Xalqın qəzeti!

# Xalq qəzeti

№ 69 (30473) 4 aprel 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Şimal qonşumuzla strateji tərəfdaşlıq genişləndirilir və möhkəmləndirilir

## Prezident İlham Əliyev Rusiyanın Sankt-Peterburq şəhərinin qubernatorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlovu qəbul edib.**

Görüşdə Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Azərbaycanın Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Sankt-Peterburq şəhəri ilə əməkdaşlığının ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

Söhbət zamanı Prezident İlham Əliyev ilə Aleksandr Beqlov arasında bundan əvvəl keçirilən görüşlər məmnunluqla xatırlandı, Sankt-Peterburq şəhərinin qubernatorunun ölkəmizə səfərinin səmərəli nəticələr verəcəyinə əminlik ifadə olundu və bu səfərin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığı bildirildi.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Sankt-Peterburqda geniş tədbirlərin keçirildiyi xatırlandı. Bir sıra görkəmli azərbaycanlıların Sankt-Peterburq şəhərinin inkişafına verdiyi töhfə məmnunluqla qeyd edildi.

Görüşdə ticarət, iqtisadi, investisiya imkanlarının genişləndirilməsi, humanitar, mədəniyyət, təhsil sahələrində müvafiq qurumlar arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün qarşılıqlı maraq olduğu bildirildi. Artıq 20 ildir ki, fəaliyyət göstərən Azərbaycan ilə Sankt-Peterburq şəhəri arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclası çərçivəsində növbəti 4 il üçün Yol Xəritəsinin imzalanması məmnunluqla vurğulandı.

Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

*AZƏRTAC*



# Brüssel görüşü: ABŞ və Aİ ədalətin, yoxsa ədavətin tərəfindədir?

## Azərbaycan yeni gərginliyə meydan açacaq sövdələşmənin dayandırılmasını gözləyir

**Dünya çox qarışıqdır. Dünən müttəfiq olanlar bu gün rəqiblər kimi üz-üzə dayanıblar. Yaxın tarixin ibrətamiz dərslərindən nəticə çıxarmayan böyük dövlətlər və onlara sığınan kiçik ölkələr müxtəlif ittifaqlarda, yaxud pərdəarxası formatlarda sövdələşərək, beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sisteminə birləşdirici yox, ayırıcı xətlər gətirirlər. ABŞ və Avropa İttifaqının Cənubi Qafqaz regionuna yönəlmiş siyasəti belə deməyə əsas verir ki, Qərb regional əməkdaşlıq və təhlükəsizlik məsələlərini özlərinin sonu bilinməyən geosiyasi maraqlarına qurban verməyə hazırdır.**



Azərbaycanın "soyuq savaş"ın bitməsindən sonra beynəlxalq münasibətlər sisteminin mühüm aktorlarından birinə çevrilməsi danılmaz faktdır. Əlverişli siyasi mövqeyi və zəngin karbohidrogen resurslarına malik olması, ən əsası, müasir dünyanın demokratik dəyərlərinə sadiqlik nümayiş etdirməsi ölkəmizi geosiyasi və geoiqtisadi baxımdan çəkili, regionun lider dövlətinə çevirib. Bu reallığı hazırda böyük dövlətlərdə də qəbul edirlər. Aprelin 3-də ABŞ Dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevə zəng edərək Brüssel görüşü ilə bağlı ölkəmizin ciddi narahatlığını və narazılığını nəzərə alaraq Ağ Evin mövqelərini izah etməyə çalışması bu gerçəkliyi bir daha təsdiqlədi. Birləşmiş Ştatlarının çağdaş xarici siyasətini müəyyən edən baş diplomat cənab Blinkenin Azərbaycan liderinə zəng edib Bakının narahatlığını cavablandırması, ölkəmizin mövqeyini öyrənməsi və ikitərəfli, eyni zamanda, regional əhəmiyyətli məsələləri müzakirə etməsi Prezident İlham Əliyevin qlobal müstəvidə nüfuzunun və çəkisinin göstəricisidir.

Təbii ki, Azərbaycan xoş məramı, əməkdaşlığı həmişə dəyərləndirir və qarşılıqlı faydalı əlaqələrin inkişafına təsir göstərən istənilən addımları dəstəkləyir. Qərbin ermənilərin 30 illik işğalına göz yummasına baxmayaraq Bakı bütün bu ikili standartları, riyakar mövqeləri dünəndə qoyub sabaha boylanmağın vacibliyini önə çəkir. Ermənistanın Azərbaycana vurduğu maddi və mənəvi zərərləri qabartmadan sülhə, təhlükəsiz gələcək naminə regional əməkdaşlığa hazır olduğunu bildirir.

**(ardı 3-cü səhifədə)**



# Hayastanda siyasi "hərarət" yüksəlir

## *Paşinyanın 8 kəndlə bağlı mövqeyi ölkədə yeni qarşıdurmalara yol aça bilər*

**Yazın gəlişi, havanın hərarətinin tədricən artması Ermənistanda siyasi proseslərə də öz təsirini göstərir. Relyefi əsasən dağlıq olan, ərazisinin 90 faizdən çoxu dəniz səviyyəsindən 1000 metr yüksəklikdə yerləşən, qışın sərt keçdiyi Hayastanda müxalifətin də, deyəsən, qırışığı açılır. Hazırda onlar güclərini səfərbər edərək, iqtidarın üzərinə, necə deyərlər, hücuma keçiblər.**

Nikol Paşinyanın martın 18-də Tavuş vilayətinin tərkibinə daxil edilmiş Qazax rayonunun işğal altında olan Əskipara (haylar "Voskepar" deyirlər – S.H.) kəndinə səfəri zamanı 8 kəndin Azərbaycana qaytarılması barədə səsləndirdiyi fikirlər müxalifətin yeni etiraz dalğasının başlanmasında əsas rol oynayıb. Baş nazir bildirmişdi ki, ölkə hakimiyyəti təslimçilikdə, Tavuş vilayətinin 4 kəndini Azərbaycana verməyə hazır olmaqda ittiham olunur. Lakin onun sözlərinə görə, Ermənistanda heç vaxt həmin adda kəndlər olmayıb. Eyni zamanda, Paşinyan kəndlərin tezliklə təhvil verilməsindən imtina edəcəkləri təqdirdə, yeni müharibə təhlükəsindən bəhs etmişdi.

*(ardı 3-cü səhifədə)*

# Müsyö Sejurnenin əndazəni aşan ritorikası

## Yaxud rəsmi İrəvanın 5 aprel Brüssel görüşünə bağladığı qurtuluş ümidləri

**Fransanın şübhəli oriyentasiyalı xarici işlər naziri Stefan Sejurne Parisdə ABŞ Dövlət katibi Antoni Blinkenlə birgə mətbuat konfransında əlinə düşən fürsətdən yararlanaraq, Azərbaycan əleyhinə təbliğat aparmağa girişib. Ermənistanın "ərazi bütövlüyünə" Azərbaycan tərəfindən "təhdidlərin olduğunu" iddia edən müsyö Sejurne bununla da kifayətlənməyib, guya, "Ermənistanın regionda münaqişənin qarşısını almağa çalışan "yeganə tərəf" olduğunu, "Azərbaycanın isə eskalasiyaya görə məsuliyyəti Ermənistanın daşıyacağı barədə "yalançı təbliğat" apardığını izhar edib.**

**(ardı 4-cü səhifədə)**



# Azərbaycan "Bir kəmər, bir yol"un baş yoluna çevrilib



Səhifə ⇨ 7

# İrəvan Moskvaya Kiyevin kölgəsindən atəş açır

**Rusiyanın Cənubi Qafqazda əzəli müttəfiq saydığı Ermənistanla münasibətlərində yaranan uçurum getdikcə dərinləşməkdədir. Ermənistanın hazırkı rəhbərliyi Rusiya Federasiyasını de-fakto İkinci Qarabağ müharibəsi və bir günlük antiterror əməliyyatından sonra yaranan hərbi-siyasi gərginliklər zamanı müttəfiqlik öhdəliklərini lazımi səviyyədə yerinə yetirməməkdə ittiham edir. Rusiya tərəfi isə israr edir ki, qondarma "DQR"-ə dəstək verməkdən imtina etmək Ermənistan hakimiyyətinin suveren hüququ və geosiyasi seçimi olub. Münasibətlərin kəskinləşməsi fonunda fevralın 1-də Ermənistan rəsmən, bir il əvvəl Rusiya prezidenti Vladimir Putinin həbsinə order verən Beynəlxalq Cinayət Məhkəməsinə (BCM) qoşulub. Amma vəziyyətin gərginləşməsi təkcə BCM-lə qurtarmır.**

**(ardı 11-ci səhifədə)**

# Brüssel görüşü Cənubi Qafqazda gərginliyi yenidən artıracaq




**Aprelin 3-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Antoni Blinken aprelin 5-də ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldığını və bu xüsusda Prezident İlham Əliyevlə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiyini deyib.

Dövlət katibi sözügedən görüşün əsas mahiyyətini Ermənistanın iqtisadi inkişafı məsələlərinin təşkil edəcəyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev qeyd edib ki, onda olan məlumata görə üçtərəfli görüşə hazırlıq prosesində Ermənistana hərbi dəstək və birgə hərbi təlimlərin keçirilməsi, Azərbaycan ilə sərhədyanı ərazilərdə hərbi infrastrukturun yaradılması, Avropa İttifaqının Avropa sülh mexanizmi xətti ilə və ABŞ büdcəsi hesabına Ermənistanın silahlandırılması kimi məsələlər də müzakirə olunub. Dövlətimizin başçısı anti-Azərbaycan mahiyyəti daşıyan bu kimi addımların, o cümlədən Fransa tərəfindən də Ermənistanın silahlandırılması siyasətinin regionda silah yarışına rəvac verdiyini və təxribatlara gətirib çıxaracağını vurğulayıb.

Telefon danışığı zamanı Antoni Blinken 5 aprel görüşünün Azərbaycana qarşı olmadığını vurğulayıb.

Söhbət əsnasında Ermənistan ilə Azərbaycan arasında sülh danışıqlarına dair müzakirə aparılıb. Prezident İlham Əliyev xarici işlər nazirlərinin sülh müqaviləsinin mətni üzrə Berlində apardıqları danışıqların prosesin irəlilədilməsi baxımdan faydalı olduğunu və danışıqların sürətləndirilməsinə ehtiyac olduğunu deyib.

Həmçinin dövlətimizin başçısı Qərbdə Azərbaycanın Ermənistana hücum etmək niyyətində olduğu barədə səsləndirilən ittihamların tamamilə əsassız olduğunu vurğulayıb.

Prezident İlham Əliyev aprelin 2-də Parisdə Antoni Blinken ilə keçirilmiş mətbuat konfransında Fransa xarici işlər nazirinin yalan danışaraq, Azərbaycanı Ermənistanın ərazi bütövlüyünü tanımamaqda və Ermənistana qarşı təhlükə mənbəyi olmaqda ittiham etdiyini bildirib.

Dövlətimizin başçısı Azərbaycanın 2022-ci ildə Praqa görüşü zamanı qəbul edilmiş bəyanata və Alma-Ata bəyanatına sadiq olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin qənaətinə görə aprelin 5-də keçirilməsi planlaşdırılan ABŞ, Avropa İttifaqı və Ermənistan üçtərəfli görüşünün qeyri-şəffaf hazırlanması, qeyri-inklüziv xarakter daşıması və Azərbaycanın haqlı iradlarına baxmayaraq təxirə salınmaması Cənubi Qafqazda sülhə, əməkdaşlığa deyil, ayırıcı xətlərin və nəticə etibarilə gərginliyin yaranmasına gətirib çıxaracaq.

Söhbət zamanı Azərbaycan və ABŞ arasında ikitərəfli əməkdaşlıq məsələlərinə də toxunulub. Antoni Blinken bu ilin fevralında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyev ilə apardığı müzakirələri qeyd edərək, ölkəsinin müxtəlif sahələrdə Azərbaycan ilə əməkdaşlığı genişləndirmək niyyətində olduğunu vurğulayıb. O, həmçinin COP29 çərçivəsində iki ölkənin nümayəndə heyətlərinin təmaslarını qeyd edib.

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilmiş görüşdə müzakirə olunan istiqamətlər üzrə Azərbaycanın da ABŞ ilə ikitərəfli əlaqələrinin inkişafında maraqlı olduğunu, COP29-un iqlim dəyişikliyi məsələləri və yaşıl texnologiyalar sahəsində ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını bildirib.

***Prezidentin Mətbuat xidməti***

# Baş nazir müavininin Çin səfiri ilə görüşü



**Aprelin 3-də Baş nazirinin müavini Şahin Mustafayev ölkəmizdə diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar Çin Xalq Respublikasının səfiri xanım Qo Min ilə görüşüb.**

Görüşdə Azərbaycan–Çin əlaqələrinin inkişaf dinamikasından məmnunluq ifadə edilib. Siyasi, iqtisadi-ticari, qarşılıqlı investisiyalar, nəqliyyat-logistika, energetika, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük perspektivlərin mövcud olduğu vurğulanıb.

Ş.Mustafayev ikitərəfli münasibətlərin inkişafına verdiyi töhfəyə görə səfir Q.Minə təşəkkür edib, gələcək diplomatik fəaliyyətində ona uğurlar arzulayıb.

**XQ**

# COP29-a hazırlıq müzakirə olunub



**Azərbaycanda səfərdə olan Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalam ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.**

Görüşdə Azərbaycanın bu il evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

**XQ**

# Müsəlman Ağsaqqalları Şurasının Baş katibi QMİ-də

**Aprelin 2-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə şəxsi dəvəti ilə Azərbaycanda səfərdə olan Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalamla görüşüb.**



Şeyxülislam A.Paşazadə dövlətimizin başçısı Prezident İlham Əliyevin qlobal təşəbbüsləri və himayəsi ilə Azərbaycanın beynəlxalq müstəvidə dinlər, mədəniyyətlər arasında dialoq və əməkdaşlıq prosesinə əməli töhfələrindən danışaraq, ölkəmizin bu sahədə evsahibliyi etdiyi dünya əhəmiyyətli mötəbər tədbirlər barədə qonağı məlumatlandırıb.

QMİ sədri mayın 1-3-də Bakıda keçiriləcək VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ICESCO, BMT-nin Sivilizasiyalar Alyansının dəstəyi, Azərbaycanın Mədəniyyət Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə dini liderlərin plenar iclasının, Bakıda və Şuşada görüşünün keçiriləcəyi barədə danışıb, Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalamın bu foruma dəvətli olduğunu məmnunluqla qeyd edib.

Şeyxülislam, həmçinin Müsəlman Ağsaqqalları Şurasının COP28-də təşkil etdiyi iqlim naminə dini pavilyonu və Əl-Əzhərin şeyxi, böyük imam Əhməd Ət-Tayyibin birbaşa dəstəyi və onun Roma Papası ilə birgə əməkdaşlığı şəraitində COP28-də dünyanın 30-dan çox dini liderinin iştirakı ilə keçirilən tədbirdə iştirakını xatırladaraq, bu il Azərbaycanın evsahibliyi edəcəyi COP29 çərçivəsində də bu uğurlu təcrübənin davam və inkişaf etdiriləcəyinə əmin olduğunu vurğulayıb.

Söhbət zamanı qurumlar arasında əməkdaşlığın perspektivləri və birgə tədbirlər müzakirə edilib.

**XQ**

# Konqo Prezidentinin Azərbaycana rəsmi səfəri

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso aprelin 3-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

# Deni Sassu-Nqesso ulu öndər Heydər Əliyevin xatirəsini anıb



**Ölkəmizdə rəsmi səfərdə olan Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso aprelin 3-də Fəxri xiyabanda xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

# Şəhidlər xiyabanını ziyarət



**Azərbaycanda rəsmi səfərdə olan Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso aprelin 3-də Şəhidlər xiyabanını ziyarət edib.**

Prezident Deni Sassu-Nqesso Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

***AZƏRTAC***

# Hərbi qulluqçu və mülki işçilərlə görüş

**Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin nümayəndələri "N" hərbi hissəsində olub, hərbi qulluqçu və mülki işçilərlə görüş keçiriblər.**



Görüş çərçivəsində Azərbaycan Ordusunda hərbi qulluqçuların maarifləndirilməsi, onların mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və milli-mənəvi dəyərlərimizin təbliği məqsədilə maarifləndirici söhbətlər aparılıb.

Qeyd edək ki, Azərbaycan Ordusunda gender bərabərliyinin təmin olunması istiqamətində mühüm addımlar atılır, hərbi qulluqçular və mülki əməkdaşlar arasında geniş maarifləndirmə işləri aparılır.

# Brüssel görüşü: ABŞ və Aİ ədalətin, yoxsa ədavətin tərəfindədir?

(əvvəli 1-ci səhifədə)

Azərbaycan düşmənçilik səhifəsini bağlayıb region xalqlarının rifahına xidmət edəcək davamlı sülhün əldə edilməsinin strateji vəzifəsi olduğunu dönə-dönə açıqlayıb. Ancaq Bakının yürütdüyü xoşniyyətli siyasətin müqabilində Qərb, xüsusən Fransa Cənubi Qafqaz regionunda yeni forpost yaradılmasının ssenarisini reallaşdırmağa çalışır.

Ssenaridə yeni heç nə yoxdur: məzmun eynidir, sadəcə, müəlliflər başqadır. Bu ssenaridə də qurban Ermənistandır, yeniliksə ancaq ondan ibarətdir ki, bu dəfə İrəvan tamamilə Qərbin ağuşuna çəkilir. 30 il ərzində regionda Rusiyanın forpostu olan Ermənistan, indi də Fransa başda olmaqla, Qərbin hərbi platsdarmına çevrilir. Etibarlı mənbələrdən alınan məlumata görə, aprelin 5-də Antoni Blinken, Ursula Fon der Lyayen və Nikol Paşinyan arasında Brüsseldə keçirilən görüşdə İrəvana siyasi, iqtisadi, hərbi və humanitar yardım planının təsdiqlənməsi planlaşdırılır. Məlumatlara görə, Ermənistanla MDB ölkələrinə qarşı misli görünməmiş əməkdaşlığın razılaşdırılması gözlənilir.

İmza tanış gəlir, elə deyilmi? Belə planlar Ukrayna üçün də hazırlanmışdı. Rusiyanın Ukrayna ilə bağlı “qırmızı xətti”ni tanımayan və sonda 2 ildən çoxdur ki, davam edən, qanlı qarşıdurmaya gətirib çıxaran belə planların hansı məqsədlərə xidmət etdiyini hamı çox yaxşı bilir. İndi hədəfdə bizim regiondur? Qərb Cənubi Qafqaz regionunu elan edilməmiş III Dünya müharibəsinin və dünyanın yenidən bölünməsi ssenarisinin tərkib hissəsinəmi çevirmək istəyir?

Heç kimə sirr deyil ki, 2020-ci ilin sentyabrın 27-dək regionda mövcud status-kvo Qərbi və digər dövlətləri qane edirdi. Belə vəziyyət yalnız Azərbaycanın və Türkiyənin maraqlarına cavab vermirdi. Ermənipərəst dövlətləri Azərbaycan torpaqlarının işğalının davam etməsi və Cənubi Qafqazda ikinci erməni dövlətinin yaranmasına hesablanmış ssenarinin qüvvədə olması razı salırdı. Bu məkrli oyunun qaydalarını Prezident İlham Əliyev pozdu. 30 illik erməni işğalına Vətən müharibəsi ilə son qoyan Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıq və status-kvo yaratdı. Bu reallıqla barışmayan Ermənistan və onun havadarları indi müxtəlif avantüralara əl atırlar. 5 aprel görüşünü də məhz bu prizmadan qiymətləndirmək lazımdır.

Belə bir görüşün keçirilməsi barədə məlumatın açıqlanmasından sonra Azərbaycan məsələ ilə bağlı narazılığını bəyan etdi. Bakı qəti surətdə xəbərdarlıq etdi ki, Aİ və ABŞ-ın Ermənistanın iştirakı ilə üçtərəfli konfrans keçirməyi planlaşdırması açıq-aydın birtərəfli və qərəzlidir və ikili standartlara əsaslanır. Bu, erməni tərəfini sülh danışıqları aparmağa sövq etmək əvəzinə, regionda yeni bölücü xətlər və təsir dairələri yaradır. Bakı açıq şəkildə bildirdi ki, Aİ və ABŞ Ermənistanın mümkün sabitliyi pozan hərəkətlərinə görə məsuliyyəti bölüşəcəklər.

Dünən ABŞ Dövlət katibinin Prezident İlham Əliyevə zəng etməsi onu göstərdi ki, okeanın o tayında Bakının narazılığı narahatlığa səbəb olub. Buna görə də cənab Blinken dövlət başçımızla telefon danışığında bildirib ki, o, aprelin 5-də keçiriləcək üçtərəfli görüşlə bağlı Azərbaycan tərəfinin narahatlığından xəbərdardır. Bununla bağlı o, Azərbaycan lideri ilə danışmağı və bu məsələyə aydınlıq gətirməyi vacib sayıb. A.Blinken iddia edib ki, qarşıdan gələn görüşün mahiyyəti Ermənistanın iqtisadi inkişafı məsələləri olacaq, “anti-Azərbaycan mahiyyəti daşımayacaq”.

Ancaq Prezident İlham Əliyevin Dövlət katibinin nəzərinə Bakının Brüssel görüşü ilə bağlı əldə etdiyi əks-arqumentləri çatdırması belə deməyə əsas verir ki, Vaşinqtonun izahatı o qədər də yetərli deyil. Prezident İlham Əliyev cənab Blinkenin diqqətinə çatdırıb ki, onda olan məlumata görə, “üçtərəfli görüşə hazırlıq prosesində Ermənistana hərbi dəstək və birgə hərbi təlimlərin keçirilməsi, Azərbaycan ilə sərhədyanı ərazilərdə hərbi infrastrukturun yaradılması, Avropa İttifaqının Avropa sülh mexanizmi xətti ilə və ABŞ büdcəsi hesabına Ermənistanın silahlandırılması kimi məsələlər” də müzakirə olunub.

Dövlətimizin başçısı anti-Azərbaycan mahiyyəti daşıyan bu kimi addımların, o cümlədən, Fransa tərəfindən də Ermənistanın silahlandırılması siyasətinin regionda silah yarışına rəvac verdiyini və təxribatlara gətirib çıxaracağını vurğulayıb. Bununla da Bakı görüş iştirakçılarına xəbərdarlıq edib ki, anti-Azərbaycan xarakterli görüşün ləğv olunması sülh prosesinə töhfə olardı. Əks təqdirdə, regionda bölücü xəttin dərinləşməsi qaçılmaz olacaq, vəziyyət yenidən gərginləşəcək.

Nəhayət, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin edib. Bakının postmüharibə siyasətinin də regionda yalnız birləşdirici xəttlərin artmasına yönəlib. Ermənistanı ikinci Ukraynaya və Suriyaya çevirmək istəyən Qərb anlamalıdır ki, Azərbaycan heç bir halda Ermənistanın yenidən baş qaldırmasına və regionda yeni münaqişə ocağının yaranmasına yol verməyəcək. Güclü Azərbaycan kimsədən qorxmur, çünki ədalət ölkəmizin tərəfindədir. Qərb də möhkəm regional sülh istəyirsə, ədavətin yox, ədalətin yanında olmalıdır.

**M.SƏBUHİ**
**XQ**

**Hər halda, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanı Ermənistan üçün kabus adlandırmaq olar. Xanım sözçü xüsusən son zamanlar ölkəsinin anti-Ermənistan ritorikasının ən parlaq icraçısı rolundadır. Bu dəfə, o, missiyasını “Zvezda” telekanalının “Bu arada” verilişinin efirində yerinə yetirib. Beləliklə, M.Zaxarova bildirib ki, Moskvanın və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Qarabağda münaqişənin kəskinləşdiyi dövrlərdə Ermənistana kömək etmədiyi barədə bəyanatlar yalandır.**

# Ermənistanın son addımları Rusiyanın əsəblərinə toxunur

## *Yaxud “Erməni sivilizasiyası”nın ölümü ilə bağlı “mərsiyə”*

Məlumdur ki, bu bəyanatları verən rəsmi İrəvan və ona yaxın dairələrdir. Zaxarova isə bildirir ki, Ermənistanın Qarabağdan rəsmən imtinası mövzusunu irəli sürən Qərb ölkələridir. Əlbəttə, onun yanaşmasında, daha doğrusu, izahında daha maraqlı bir məqam da var. Xanım sözçü Azərbaycan–Ermənistan danışıqlarının Brüssel formatı çərçivəsində əldə edilmiş razılaşmalara fokuslandığı, “NATO-nun diktəsi ilə imzalanmış sənədlərdə” tanınmamış respublikanın sakinlərinin hüquqlarının heç bir şəkildə təsbit və təmin edilmədiyini vurğulayır.



Sual yaranır: Zaxarovanın dedikləri Rusiyanın həmin “hüquqları” praktiki müstəviyə gətirə biləcəyininmi eyhamıdır? Yəni, Moskva Qarabağın erməni sakinlərinin hüquq və azadlıqları mövzusunda Ermənistan hakimiyyətinin vaxtilə irəli sürdüyü beynəlxalq təminat məsələsini reallaşdıra bilərdi? Axı söhbət Azərbaycan yurisdiksiyasına zidd amillərdən gedir. O amillərdən ki, baş nazir Nikol Paşinyan və komandası bu məsələdə Kremlə arxalanmaq istəmədilər. Rəsmi İrəvan Qarabağ məsələsini Moskvanın patronajlığından çıxarıb Qərbin egidasına təslim etməyi üstün saydı.

Digər yandan, Zaxarovanın pislədiyi Qərb formatı da erməni avantürizmi üçün perspektiv baxımından “əlverişlidir”. Əlbəttə, 44 günlük müharibədən sonra yaşananlar həmin avantürizmin iflası reallığını doğurdu. Hazırda Qərb, belə demək mümkünsə, ölünü diriltmək niyyətindədir. İstər Zaxarovanın, istərsə də Rusiyanın digər rəsmilərinin söylədikləri onu deməyə əsas verir ki, Ermənistan rəhbərliyi düzgün mövqe tutsaydı, yəni Moskvanın patronajlığını qəbul etsəydi, ölən olmayacaqdı. Belə yanaşmanın özü də bizim üçün tam qəbuledilməzdir. Ancaq hələlik bu məqamları bir kənara qoyub Zaxarovanın qəzəbinə diqqət yetirək: “Mən İrəvanın Qarabağla bağlı qərarlarına görə Rusiyanın və KTMT-nin günahkar olduğunu iddia edən və bu barədə məlumatları yayanların hamısını yalan danışmaqda ittiham edirəm”.

Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi onu da bildirib ki, ölkəsinin lideri Vladimir Putin Cənubi Qafqaz regionunda qan tökülməsinin, genişmiqyaslı müharibənin başlanmasının qarşısını almaq üçün dəfələrlə bütün siyasi və şəxsi imkanlarından istifadə edib, o cümlədən, Ermənistan vətəndaşlarını bəladan qurtarıb. Zaxarovanın sözlərindən belə nəticə hasil olur ki, bütün bunlar rəsmi İrəvanın başqa əraziləri, kəndləri idarə edəndə öz qərarlarını xatırlaması və məsuliyyət daşıması, səhvlərinə görə heç kimi günahlandırmaması məqsədi daşıyıb.

Xanım diplomat, əslində, Ermənistan hakimiyyətinin səhvlərdən nəticə çıxarmadığını vurğulayır. O, əlavə edir ki, İrəvanla Bakı arasında münaqişənin mümkün gərginləşmə ssenarisi birbaşa rəsmi İrəvanın Avropa İttifaqına, ABŞ-a və Böyük Britaniyaya regionda və ölkədəki vəziyyətə dağıdıcı təsir göstərməyə nə dərəcədə imkan verməsindən asılıdır. Zaxarovanın fikrincə, başlıca məqam “bu nankor vətəndaşların” (Ermənistan hakimiyyəti – red.) “ölümcül səhvə” yol verib dəhşətli intriqanı Ermənistanın maraqlarına qarşı istifadə etmələridir.

Göründüyü kimi, Zaxarova Ermənistanın hazırkı kursuna Rusiyanın münasibətindəki sərt reaksiyasını ortaya qoyur. Onun dilə gətirdiklərini, hətta, hədə-qorxu gəlmək kimi də qiymətləndirmək mümkündür. Subliminal mesaj budur: Paşinyan hakimiyyətinin sayəsində Ermənistan daha böyük bəlalara düçar olacaq!

*

M.Zaxarovanın üzərində dayandığı ikinci məqama keçid alaq. Əvvəlcədən deyək ki, XİN rəsmisinin söylədikləri uşaq başı aldatmaqdan başqa bir şey deyil. Sən demə, Zaxarova Ermənistanın rəsmi strukturlarının nümayəndələrindən birinin ölkəni Avropanın demokratik və bəzi digər dəyərlərinin daşıyıcısı olduğuna dair fikri ilə tanış olub və bu mənzərə onu əsəbiləşdirib. Bu səbəbdən, bildirib ki, rəsmi İrəvanın uzun tarixə malik qədim erməni sivilizasiyasını hazırda vəziyyəti pis olan Avropa İttifaqı ilə müqayisə etməsi boşunadır. Xanım diplomatın dediklərindən belə çıxır ki, erməni sivilizasiyası (?) Avropadan qədimdir, ona görə də birincinin daşıyıcılarının “köhnə qitə”yə inteqrasiya məsələsindəki fikirləri geriyə doğru addımlamaqdır.

Bəli, Rusiyanın XİN rəsmisi nəinki uşaq başı aldatmaq niyyətindədir, o, eyni zamanda, bəsit müqayisəyə əsaslanmış manipulyasiyaya köklənib. O hesaba qalsa, gərək I Pyotr Rusiya tarixindən silinsin. Nəzərə alaq ki, onun yaratdığı Rusiya Avropaya səfərinin nəticəsi olaraq meydana çıxmış quruluş idi. Yəni, böyük ölçüdə gör-götür dünyasıdır. Məsələ Ermənistanın Qərbə inteqrasiyasında deyil. Əsas olan inteqrasiyanın avantürist niyyətlər naminə gerçəkləşdirilməsindədir. Heç bir mədəni sivilizasiyada barbarlıq yoxdur. Yaxşı olar ki, Zaxarova bunu nəzərə alsın. Ancaq təkcə bunu yox...

İkincisi, qədim erməni sivilizasiyası mifini dövriyyəyə elə Rusiyanın özü buraxıb. Məqsəd türk-müsəlmanların yaşadıqları bölgələrdə bölücülük yaratmaq idi. Ermənin bəşər sivilizasiyasına aidiyyatı olsa idi, ona dövlətçiliyi Rusiya bəxş etməzdi. Bu mənada, Zaxarovanın söylədikləri peşmançılıq hissindən başqa bir şey deyil. Amma onun baxışlarında ibrət yükü var. Rusiya buyurub özünün formalaşdırdığı erməni amilindəki nankorluq səhnəsini seyr etsin. Təkcə seyr etməsin, eyni zamanda, nəticə çıxarsın. Əlbəttə ki, bunu bacaracaqsa.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Hayastanda siyasi “hərarət” yüksəlir

(əvvəli 1-ci səhifədə)

“Ermənistan” və “Şərəfim var” müxalifət bloklarının parlament fraksiyası Azərbaycanla sərhədin delimitasiyası və demarkasiyası məsələlərini müzakirə etmək üçün təcili iclas keçirməyə hazırlaşır. Bunu “Ermənistan” blokundan olan deputat Artur Xaçatryan qanunverici orqanın binasında jurnalistlərə açıqlamasında deyib: “Bu məsələdə bizim üçün qaranlıq qalan çox məqam var. Biz hakimiyyətdən Tavuş vilayəti ərazilərinin Azərbaycana aid olduğu iddiasını necə təqdim və izah edəcəyini gözləyirik”. Xaçatryan bildirib ki, müxalifət həftə ərzində parlamentin reqlamenti ilə müəyyən edilmiş qaydada toplantı keçirmək niyyətindədir.

“Aysor.am” saytı yazır ki, N.Paşinyan rəhbərlik etdiyi “Mülki müqavilə” partiyasının üzvləri ilə görüşündə ona olan hücumlara münasibət bildirərkən deyib: “Mən təslim olmamaq qərarına gəlmişəm. Hamımız insanıq, mən başqa planetdən gəlməmişəm. Sizin mühitinizdə doğulmuşam, sizin mühitinizdə böyümüşəm. Lakin aydındır ki, baş verənlər psixoloji, humanizm, əxlaqi, siyasi baxımdan çox ağırdır. Eyni zamanda, mən özüm üçün eyni hesablama aparıram. Deyirəm ki, ölkənin maraqlarına uyğun ola biləcək variantları nəzərdən keçirməliyik. Mən və ya biz əl çəkə, bu yoldan gedə bilərik. Amma bütün təhlillərim göstərir ki, yox, məhz, bu, xəyanət olardı”.

Ermənistanın Respublika Partiyası icra orqanının üzvü Artak Zakaryan Paşinyanın bəyanatına özünəməxsus formada münasibət bildirib. Deyib ki, “mən təslim olmayacağam, amma “Artsax”ı və Ermənistanın strateji ərazilərini təslim edəcəyəm” düşüncəsi Nikola görə strateji qərardır. O, sosial şəbəkə hesabında yazıb: “Mən təslim olmayacam, amma addım-addım sizin suverenliyinizdən, müstəqil dövlətçilik hüququnuzdan, təhlükəsiz yaşamağınızı təmin etməkdən əl çəkəcəyəm. Mən təslim olmayacam, amma sizin nəsillərinizin inkişafı üçün lazım olan bütün resursları növbə ilə təhvil verəcəyəm. Mən təslim olmayacağam, amma sizin tarixi yaddaşınızı, kollektiv potensialınızı, kimliyinizi, mənəvi-mədəni dəyərlərinizi, milli ləyaqətinizi təhvil verəcəyəm. Bir sözlə, təslim olmamağımın müqabilində hamınızı təslim edəcəyəm”.

Ancaq Paşinyanın tərəfdarları da müxalifətin hücumlarını cavabsız qoymurlar. Onların da özlərinə görə, arqumentləri var. Hakim partiyanın deputatı Armen Xaçatryan aprelin 3-də parlamentdə jurnalistlərə açıqlamasında deyib ki, delimitasiya və demarkasiya Ermənistanın mövcud sərhədlərinin təsdiqidir. Onun sözlərin görə, bu sərhədlər mövcuddur, yeni sərhədlər ola bilməz: “Bizim ərazimizdə olan bizimdir, bizim olmayanlar Azərbaycana qaytarılacaq. Demarkasiya hüquqi müstəvidir. Hər şeyə Tavuşdan başlamaq qərara alınsa, yəqin ki, müəyyən hissələr dəqiqləşdikdən sonra imza atılacaq. Yəni, sərhədin bu hissəsində artıq problem yoxdur. Xəritələrə, hüquqi aktlara görə, hər şey razılıqla edilməlidir”.

Müsahibə zamanı deputata “Ermənistanda yalnız hakimiyyət kəndlərin Azərbaycana məxsus olduğunu iddia edir” tipli təxribatçı sual ünvanlanıb. O isə cavab olaraq deyib: “Siz onların xəritəyə görə, Azərbaycana məxsus olmasına şübhə edirsiniz? Siz ciddisiniz? Əgər ora Azərbaycan ərazisidirsə, o zaman kəndlər azərbaycanlılara, bizim ərazilərimiz də bizə veriləcək”.

Xaçatryanın sözlərinə görə, bütün problemlər, o cümlədən, yollar məsələsi həll olunacaq. “Bəli, Azərbaycan ərazisinin bizdə olması bizim üçün əlverişli idi. Amma proses başlayıb və siz onu geri qaytara bilməzsiniz” – deyə fikirlərini yekunlaşdırıb.

Deputat onu da bildirib ki, Azərbaycan delimitasiya prosesinə Tavuşdan başlamaq istəyirdi: “Delimitasiya prosesinə başlamaq çox böyük problem idi. Çox böyük problem hər şeyi bir münasib yerə gətirmək və delimitasiyaya hansısa yerdən başlamaq idi. Çünki danışıqlar aparılmadığı müddətdə müharibə təhlükəsi mövcudluğunu saxlayırdı. Bu məqamda müsbət hadisə baş verdi, yəni delimitasiyaya başlamaq qərarı verildi. Azərbaycan şimal sərhədindən başlamaq istəyirdi, mübahisəli məsələlər olan yerdə başladıq, indi Sünikə (Zəngəzura–S.H.) gedirik”.

“Delimitasiyaya Tavuşdan başlamağı tələb edən, əslində, Azərbaycan olubmu” sualına deputat belə cavab verib: “Azərbaycan bu gün delimitasiyadan qaçmaq istəmir. Heç kimə sirr deyil ki, aramızda hərbi tarazlıq pozulub. Hətta, o dərəcədə ki, bu gün döyüşmək həvəsimiz yoxdur. Danışıqlar başlananda isə biz qarşılıqlı razılığa gəlirik. Bu, güzəşt deyil. Azərbaycanlılar dedilər ki, biz delimitasiyaya buradan başlayırıq. Biz də razılaşdıq, çünki bu, Ermənistanın maraqlarına uyğundur. Bu uşaq söhbəti deyil. Bu gün bizim sülhə ehtiyacımız var. Ona görə də buna getdik”.

Bu arada “GALLUP” beynəlxalq araşdırmalar mərkəzinin Ermənistan ofisinin martın 27-29-da keçirdiyi sorğunun nəticəsi açıqlanıb. Sorğu 1101 nəfər vətəndaş arasında keçirilib. Məlum olub ki, Ermənistan vətəndaşlarının 90 faizi Tavuş kəndlərinin təhvil verilməsinə qarşıdır. Təşkilatın Ermənistan nümayəndəliyinin direktoru Aram Navasardyan sorğunun nəticələrini dünən İrəvanda təqdim edib: “Rəyi soruşulanların 2,9 faizi bunun mütləq məqbul olduğunu söylədi. Altı faiz məqbul olmadığını, 7,8 faizi kifayət qədər qəbuledilməz, 79,7 faiz tamamilə qəbuledilməz olduğunu bildirib. 3,6 faiz cavab verməkdə çətinlik çəkib. Yəni, təxminən, 90 faiz bu yanaşmanın qəbuledilməz olduğuna inanır”.

Eyni zamanda, vətəndaşlardan baş nazir Nikol Paşinyanın işini necə qiymətləndirdikləri soruşulub. Əgər 2023-cü ilin yanvar ayında rəyi soruşulanların 13,8, martda isə 16,2 faizi baş nazirin işini tamamilə müsbət qiymətləndirdiyini bildirmişdisə, 2024-cü ilin mart ayında yalnız 8 faiz onu tamamilə müsbət qiymətləndirdiyini bildirib. Əhalinin 47,1 faizi Paşinyanın işini tamamilə mənfi qiymətləndirib.

**Ermənistandakı mövcud siyasi durumu şərh edən politoloq İlyas Hüseynov** bildirdi ki, Paşinyan hakimiyyətə gəldikdən sonra etiraz aksiyaları, nümayişlər tez-tez qeydə alınır. Onun sözlərinə görə, parlamentdə qalmaqallar, əlbəyaxa döyüşlər, küçələrdə polisin qəddarlığı və amansızlığı haqqında çoxsaylı faktlar və materiallar mövcuddur: “Eyni zamanda, Paşinyanın Qərblə bağlı fikirləri, atdığı addımlar ölkə daxilində ziddiyyətləri son vaxtlar bir qədər də artırıb. Bu kontekstdə aprelin 5-də Brüsseldə keçiriləcək görüş İrəvan üçün mühüm əhəmiyyət kəsb edir. Biz Ermənistanın media orqanlarında, sosial şəbəkələrində də görürük ki, həmin görüşə həddən ziyadə ümidlər bəslənilir. Şübhəsiz ki, Ermənistana ABŞ və Avropa İttifaqı tərəfindən dəstək ifadə olunarsa, bu, özünü ictimai-siyasi diskursda da nümayiş etdirəcək. Artıq Rusiya tərəfi 5 aprel görüşü ilə bağlı açıq narahatlığını bildirib. Rusiya–Ukrayna müharibəsinə rəğmən, Ermənistan da Moskva üçün əsas başağrısı olmaqda davam edir”.



İ.Hüseynov qeyd etdi ki, Ermənistan daxilində N.Paşinyanı devirmək istəyən və revanşizm əhval-ruhiyyəli, radikal baxışlara malik qüvvələr kifayət qədərdir. Müsahibimizin fikrincə, eksklav kəndlərin Azərbaycana verilməsi ilə bağlı Paşinyanın səsləndirdiyi fikirlərdən sonra biz Ermənistanda polis bölməsinə əllərində qumbara olan şəxslərin daxil olduqlarını gördük. Onlar polis bölməsinə basqın etdilər, tələblər irəli sürdülər və kəndlərin qaytarılmasının mümkünsüzlüyünü bildirdilər. Bu da əvvəlki ssenarinin yeni formasıdır. Çünki tutulan şəxsin özü də “Sasna Tsrer” terror təşkilatının, hazırda isə özünü siyasi cərəyan adlandıran qruplaşmanın üzvü olub. Bir neçə il öncə də təxminən eyni hadisə baş verdi və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına zərbə vuruldu. Həmin dövrdə işğal olunmuş rayonlarımızdan beşinin Azərbaycana qaytarılması ilə bağlı müzakirələr, demək olar ki, yekunlaşmışdı. Ona görə də tarix, sanki təkrarlanır. Nikol Paşinyan eyni gərginliklərlə, təhdidlərlə üz-üzə qalıb. Bu mənada, aprelin 5-də keçiriləcək görüşdən sonra Ermənistanda Paşinyan əleyhinə güclü etiraz dalğasının baş qaldıracağı istisna olunmur. Meydanlara çıxan insanlara “dirijorluq” etməyə isə Qarabağ klanı daha çox can atır”.

***Səxavət HƏMİD***
***XQ***

# Müsyö Sejurnenin əndazəni aşan ritorikası

(əvvəli 1-ci səhifədə)

### Paris Bakının mövqeyindən niyə narahatdır?

Fransanın başı hər cür “macəralara” öyrəncəli xarici işlər naziri ölkəsinin Ermənistanı silahlandıraraq, yeni müharibəyə sürüklədiyini görməzdən gələrək, Bakının sadəcə ritorikasından əndişələndiyini deyib. Elementar məntiqlə 30 il ərzində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisini işğal altında saxlayan Ermənistanın ünvanına bir dəfə də olsun irad səsləndirməyən Yelisey sarayının müvəqqəti yiyələrinin durub ölkəmizi hayları “təhdiddə” ittiham etməsi siyasi şantajdan başqa bir şey deyil. Axı, ortalıqda, faktiki olaraq, işğalı, təhdidi nişan verən heç nə yoxdur. Bunun tam əksinə olaraq, Azərbaycanın suveren ərazisinə aid 8 kəndi Ermənistan



hələ də işğal altında saxlayır. Gözə girən bu hüquqi-siyasi reallığa toxunmayan Sejurnenin mətbuat konfransında növbəti açıqlamasına diqqət yetirin: “Biz bu gün Azərbaycan tərəfindən mübahisələndirilən Ermənistanın ərazi bütövlüyü barədə danışdıq və icazə verin deyim ki, Azərbaycanın ritorikasının getdikcə nəzarətdən çıxdığını nəzərə alaraq, bundan çox narahatıq”.

Müsyö Sejurne Ermənistanın son günlər Azərbaycanla şərti sərhədə hərbçi və zirehli texnika daşımasını özündə əks etdirən videogörüntüləri, eləcə də Aİ mülki missiyası ilə müştərək sərhədboyu yerləşdirməyə çalışdığı kəşfiyyat qüllələrini “görməzdən gələrək”, bütün bu əşyayi-dəlilləri həyasızcasına Bakının “feyk xəbərləri” kimi ictimaiyyətə təqdim edir. Belə məlum olur ki, “regionda münaqişənin qarşısını almağa çalışan “yeganə tərəf” kimi “sülhsevər” Ermənistana yüz milyonlarla dəyəri olan zirehli texnika, HHM sistemləri satan, müdafiə nazirini İrəvana göndərən, burada hərbi-texniki əməkdaşlığa dair sazişlər imzalayan Paris, sən demə, bütün bunları Azərbaycanın təhdidinə qarşı həyata keçirirmiş.

Bu, həmin müsyö Sejurnedir ki, bir müddət bundan əvvəl “Ouest France” nəşrinə müsahibəsində Rusiyanın yaxın illərdə NATO ərazisinə hücumunu istisna etmədiyini söyləmiş, Avropa İttifaqını Fransadan nümunə götürməyə və hərbi proqramlarına ayırdıqları maliyyəni iki dəfə çoxaltmağa çağırmışdı. Bunu “ekzistensial məsələ” adlandıran nazir Avropanın özünün təhlükəsizliyinə “təminat tapmalı” olduğunu bəyan etmişdi.

### COP29-un ev sahibinə qarşı qısqanclıq

Fransanın xarici işlər naziri çıxışında maniakal təxəyyülünü işə salaraq, Bakının “hərbi xarakterli feyk-xəbərlərində” Rusiyanın Ukraynaya bağlamağa çalışdığı bir çox ümumi elementləri görə bildiyini irəli sürür. Bununla da açıq siyasi şantaja baş vuran Sejurne bu “fakta” Bakıda keçiriləcək COP29-a altı ay qalmış “xüsusi diqqət yetirməyin vacibliyini” önə çəkib. Ermənistanın “böyük bacısı” missiyasını bütün müstəvilərdə yerinə yetirən Fransanın Azərbaycanın COP29-a evsahibliyi etməsinə qısqanc yanaşması, bu reallığı həzm edə bilməməsi, ənənəvi böhtan və yalan kampaniyasını indi də şantajla əvəzləməsi göz qabağındadır.

“Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransa tərəfinin Azərbaycanı aqressiv ritorikada təqsirləndirməsi qəbuledilməzdir. Aprelin 2-də Fransanın xarici işlər naziri Stefan Sejurnenin Parisdə ABŞ Dövlət katibi Antoni Blinkenlə birgə mətbuat konfransında Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar növbəti dəfə Fransanın bölgədə açıq-aşkar gərginlik yaratmaq və sülh prosesinə mane olmaq səylərinin bariz nümunəsidir”.

Stefan Sejurnenin mətbuat konfransında Azərbaycana qarşı səsləndirdiyi iddiaları şərh edən Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə deyib ki, Azərbaycan ərazilərini 30 ilə yaxın müddətdə işğal altında saxlayan, 1 milyona yaxın azərbaycanlını öz doğma torpaqlarından didərgin salan, kütləvi qırğınlar və insanlıq əleyhinə cinayətlər törədən Ermənistanın Fransa tərəfindən “sülhpərvər ölkə” kimi təqdim edilməsi Parisin həm vasitəçiliyi dövründə, həm də 44 günlük Vətən müharibəsindən sonra yürütdüyü siyasətin nə qədər saxta olduğunu göstərir.

Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi kimi məsul vəzifəni yerinə yetirdiyi bir dönəmdə ölkəmizin imicinə xələl gətirmək məqsədi güdən və sədrliyimizi hədəfə alan bu kimi çağırışlardan çəkinməsinin Fransa və dünyamız üçün daha faydalı olacağını hesab edən XİN rəsmisi şərhində məhz Fransa kimi ölkələrin Ermənistanın təcavüzünü ört-basdır edən siyasətinin heç bir fayda vermədiyinin hər kəsə aydın olduğunu vurğulayıb: “Rəsmi Paris anlamalıdır ki, onun tərəfindən həyata keçirilən bu kimi destruktiv fəaliyyətə nə qədər ki, son qoyulmayıb, bu, həm Fransanın zədələnmiş imicinə, həm də hər vəchlə müdafiə etdiyi Ermənistana xeyir gətirməyəcək”.

### İrəvanın Brüssel gözləntiləri

Bu arada rəsmi İrəvanın böyük ümidlər bəslədiyi, nəinki hakimiyyəti, hətta ölkəni böhrandan qurtaracağı kimi düşünülən 5 aprel Brüssel görüşü ətrafında Ermənistanın daxilində geniş diskussiya gedir. Mövzu ilə bağlı yerli “Hraparak” qəzeti yazır ki, Ermənistanın baş naziri Nikol Paşinyanın aprelin 5-də Brüsseldə qatılacaq “üçlər”in görüşünə hakim “Mülki Müqavilə” partiyasının deputatları böyük ümid bəsləyirlər. Bu görüşün ölkənin və hakimiyyətin qüdrətinin xilası üçün müstəsna əhəmiyyət kəsb edən hadisə olacağına işarə vuran nəşr mövzunu bir qədər də genişləndirərək yazır: “Bu, Ermənistanın sonda hansı səmtə gedəcəyini müəyyən edəcək görüşdür. Əgər Qərb ümumi “dəstək” bəyanatları ilə yanaşı, əməli addımlar atsa, Ermənistana külli miqdarda pul ayırsa və bunun sayəsində Rusiya iqtisadiyyatından qurtulmaq mümkün olarsa, Paşinyan iqtidarı tərəddüd etmədən təhlükəsizlik vektorunun səmtini dəyişməyi öhdəsinə götürəcək. Burada söhbət bir neçə milyard ABŞ dollarından gedir”.

İrəvanın və Parisin Azərbaycana qarşı bütün bu diplomatik yürüşlərinin Blinken–Lyayen–Paşinyan üçlüyünün 5 aprel Brüssel görüşü ərəfəsində müşahidə olunması təsadüfi sayıla bilməz. Ermənistana birbaşa dəstək nümayişi kimi düşünülmüş, xüsusu yardım paktının imzalanacağının gözlənildiyi sabahkı görüşlə bağlı Vaşinqtondan da müəyyən çağırışlar eşidilməkdədir.

Bu arada Vaşinqton Ermənistan və Azərbaycan arasında düşmənçiliyə səbəb ola biləcək ritorikadan çəkinmək barədə tərəflərə xəbərdarlıq ünvanlayıb. “Biz Ermənistan və Azərbaycan sərhədində eskalasiyaya və hərbi əməliyyatlara səbəb ola biləcək ritorikaya qarşı xəbərdarlıq edirik və bunu bundan sonra da edəcəyik”. Bu sözləri ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller ənənəvi brifinqdə bildirib. “Biz regionda hamının hüquqlarına hörmət edilən ədalətli və layiqli sülh üçün şəraitin yaradılmasını təşviq edirik” – deyən Millerin sözlərinə görə, davamlı sülhün təminatının yeganə yolu danışıqlardır.

“Ədalətli və layiqli sülh”dən danışan Ağ Ev rəsmisi Ermənistanın şərti sərhədə canlı qüvvə və hərbi texnika cəmləməsi ilə bağlı Azərbaycan hökumətinin bəyanatından da söz açıb. “Avropa İttifaqının missiyası bəyanat yayıb ki, Ermənistan–Azərbaycan sərhədi sakit və sabitdir və qeyri-adi hərbi hərəkətlər müşahidə olunmur”, – deyə Miller bildirib.

Vaşinqton artıq Aİ-nin Ermənistanda kəşfiyyat fəaliyyəti ilə məşğul olan “mülki missiyasının” açıqlamalarını güvəndiyi, İrəvandan isə Cənubi Qafqazdan uzaqlaşdırmağa çalışdığı Rusiyaya və İrana qarşı maşa kimi yararlanmağa çalışdığı gerçəklikdir. Amma Ağ Evin bu kimi cəhdlərə baş vurarkən hesablaşmağa məcbur olduğu başqa bir gerçəklik də var. Bu, altı ay əvvəl bölgədə hərbi-siyasi, eləcə də iqtisadi-coğrafi cəhətdən qüvvələr nisbətini öz xeyrinə tamamilə dəyişərək söz və güc sahibinə çevrilmiş Azərbaycanın ortaya qoyduğu gerçəklikdir!

**_İmran BƏDİRXANLI_**
**_XQ_**

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**

Fransa Azərbaycana qarşı özünün ənənəvi münasibətini nümayiş etdirir. İndi onlar tamam azğınlaşıblar. Amma, şükürlər olsun ki, əllərindən Azərbaycana pislik etmək deyil, ancaq çığır-bağır etmək gəlir. Guya, Fransa COP29-u boykot edə bilər. Qoy eləsin, məgər onları Bakıda gözləyən var? Parisdən möhtəşəm tədbirimizə nümayəndələrin gəlməməsi diqqət yetirilməli məsələ sayıla bilməz. Özlərinin keçirməyə hazırlaşdıqları olimpiada ilə bağlı canlarına vəlvələ düşüb. Yəni, xoşagəlməz hadisələrin baş verə biləcəyindən və bunun qarşısını ala biləcəkləri ilə bağlı ciddi narahatlıqları var. Getsinlər bu barədə ciddi fikirləşsinlər.

Fransanın ölkəmizə qarşı ənənəvi mövqeyi dəyişməyib. Biz, sadəcə, bunu bir fakt olaraq qeydə almışıq və onların Azərbaycana zərər verməyə əlləri çatdığı hər yerdə adekvat cavablarını alırlar. Yaxşısı budur, Sakit okeandakı Yeni Kaledoniya ada-dövlətinin problemini həll eləsin. Onun neokolonializmə söykənən yaramaz siyasətinə qarşı Korsikada da kütləvi etirazlar başlayıb. Orada əhaliyə öz dilində danışmağa imkan verməyən Fransa gəlib Azərbaycanın qarşısında hansısa hüquqlardan bəhs edir, Qarabağ erməniləri üçün “göz yaşları tökür”. Bəli, bu gün Emmanuel Makron hakimiyyəti Azərbaycana qarşı düşmənçilik siyasəti yeridir. Bakının da buna uyğun davranışını görür. Mövcud reallıq bundan ibarətdir və biz bunu nəzərə almalıyıq.

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ötən ay Türkiyənin “TRT World” telekanalına müsahibəsində ölkəsinin Avropa İttifaqına üzvlüyü məsələsinin aktiv şəkildə müzakirə edildiyini diqqətə çatdırmışdı. Bundan sonra sözügedən istiqamətdə diskussiya və polemikalar güclənməyə başlamışdı. Elə təəssürat yaranmışdı ki, sanki Ermənistanın birliyə qoşulması an məsələsidir. Əslində, Qərbdən gələn mesajlar da bunu söyləməyə əsas vermişdi və verir də. Ancaq...**

# Avropa İttifaqı və “Ermənistan əriyi”

## Yaxud Qərbin Cənubi Qafqazdakı “təcrübə dovşanları”na baxış

Təsəvvür edin ki, hazırda vətəndaşları Avropa ölkələrinə vizasız gediş-gəliş həyata keçirən Gürcüstan qala-qala Ermənistan Aİ-yə daxil edilir. Əlbəttə, bu, istər nəzəri, istərsə də praktiki baxımdan, inandırıcı deyil. Mümkünsüzlüyü doğuran amillərdən söz açacağıq. Hələlik isə bu istiqamətdəki polemikaların nə üçün gücləndiyinə diqqət yetirək.

***

Bəli, həm Ermənistan hakimiyyətinin, həm də onun Qərbdəki tərəfdaşlarının ölkənin Aİ-yə üzvlüyü məsələsinin təbliğatını aparmalarında səbəb çox sadədir. Məsələ burasındadır ki, rəsmi İrəvan üzünü tamamilə Qərbə çevirib. Yəni, tam şəkildə Rusiyadan uzaqlaşmaq yolunu tutub. Ancaq ikinci xəttin seçilməsi fonunda birinci platformanın nə dərəcədə faydalı olacağına dair məsələ aktualdır. Yəni, Ermənistan Qərbə meyillənməklə nə qazanacaq? gəldikdə, o, bütün davranışları, o cümlədən, anti-Rusiya ritorikası ilə ölkəni təcrübə dovşanına çevirir. Dovşanın, belə demək mümkünsə, laborator sınaqlardan sağ çıxmamaq riskinin mövcudluğunu hesablamır.

***

Yazımızın ikinci bölümünə keçid alaq. Əvvəldə anons etdik ki, Ermənistanın Aİ-yə qoşulması mümkünsüzdür. Burada, ilk növbədə, Aİ-nın sırf özü ilə bağlı struktur amillər ön plana çəkilməlidir. Yəni, XİN rəhbəri A.Mirzoyanın təbirincə desək, İrəvanın demokratik inkişaf yolu seçməsinin, Vaşinqtonun və Brüsselin bunu dəstəkləməsinin heç bir önəmi yoxdur. Birincisi, Gürcüstandan, elə Azərbaycandan da fərqli olaraq Ermənistan Rusiyanın hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqının üzvüdür. Deməli, ölkənin iki gömrük zonasında eyni vaxtda iştirakı praktiki olaraq yolverilməzdir. Hər halda, dünyada belə bir hal yoxdur.



Qazanc kimi ortaya atılan ölkənin Aİ-yə üzvlüyüdür. Ancaq reallıq budur ki, baş nazir Nikol Paşinyanın administrasiyası və onun xaricdəki havadarları ideyanı təbliğ etməklə, əslində, Rusiyadan uzaqlaşmaq yönümlü siyasi kursa qarşı çıxanları neytrallaşdırmaq yolunu tuturlar. Onlar Avropa İttifaqı məkanının əhali üçün cəlbediciliyini bilir və bunu nümayişə çıxarırlar. Yəni, Aİ Rusiya faktoruna alternativ kimi qoyulur.

Əlbəttə, ümumən Aİ Rusiyadan daha cəlbedici görünür. Ancaq birincinin hansı dividendi var? Dividend erməni əriyinin Moskvaya deyil, Brüsselə daşınmasıdırsa, məsələ çox primitivdir. Həm də ona görə ki, Ermənistanın bütün Avropanı təmin edəcək meyvəsi yoxdur. Əlbəttə, söhbət ərikdən və ya digər meyvədən getmir. Sözümüz ondadır ki, sıravi erməni üçün ölkəsinin Aİ-yə qoşulması “köhnə qitə”yə vizasız gediş-gəliş üstünlüyündən başqa bir şey deyil. Digər tərəfdən, avropalı əriyə rusdan çox pul verməyəcək.

Üstəlik, Rusiyanın daha böyük, sabit və oturuşmuş bazar olduğu həqiqəti var. Bu həqiqət illərin sınağından çıxıb. Birdən-birə o bazarı dəyişməyin müsbətləri ilə bağlı isə Ermənistanda heç bir ağlabatan izah yoxdur. Sual yaranır: Rusiya bazarının itirilməsi və prosesin heç bir təzminat təminatının olmadığı şəraitdə kasıb erməni Avropaya yollanmaq üçün təyyarə bileti almağa pul tapacaqmı? Belə çıxır Ermənistan vətəndaşının qazancı yalnız Şengen vizası üçün ödədiyi 60-80 avronun cibində qalması olacaq. Buna qazanc demək mümkündürmü?

Qeyd etdik ki, Gürcüstan vətəndaşları hazırda Şengen zonasına sərbəst gediş-gəliş imkanına malikdirlər. Ölkə təkcə bu üstünlüyə yiyələnmək naminə nə qədər yol gəlib. Üstəlik, onun hazırkı üstünlüyü hələ Aİ-yə qoşulmaq deyil. Ən əsası, Gürcüstan haqqında söz açdığımız prosesi səs-küysüz reallaşdırıb. Ermənistanla bağlı durum isə fərqlidir. Elə əsl məsələ də bundadır ki, niyə fərqlidir? Səbəb çox sadədir. Çünki İrəvanın Avropaya, ümumən Qərbə doğru irəliləmək cəhdi avantürizmlə müşahidə olunur. Gürcüstan buna getməmişdi və getmir.

Söhbətimizin bu yerində onu da vurğulayaq ki, Ermənistanın Aİ-yə qoşulması məsələsinin müzakirəsindəki fəallıq yalnız Rusiyadan uzaqlaşmaq yönümlü siyasi kursa qarşı çıxanları neytrallaşdırmaq məramı daşımır. Bu, Rusiyasız Cənubi Qafqaz formulunu gerçəkləşdirmək xəttinin tərkib hissəsidir. Avropa İttifaqının timsalında ABŞ, ümumən kollektiv Qərbin istəyi kiçik Ermənistan üzərində eksperiment aparmaqdır. Rəsmi İrəvana

İkincisi, İrəvanla Brüssel arasında yaxınlaşma məsələsinə diqqət yetirərkən, burada motiv genişləndirilmiş tərəfdaşlıq amilinə əsaslanır. Söhbət Aİ-nın 2021-ci ilin yayından başlayaraq beş strateji proqramının həyata keçirilməsi üçün Ermənistana 2,6 milyard avro məbləğində maliyyə yardımı ayıracağı vədindən gedir. Hazırkı duruma görə, həmin məbləğin yalnız 20 faizi gündəmdədir.

Nəzərə alaq ki, Aİ ilə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi üçün resurs kifayət qədər əhəmiyyətlidir və bu, müəyyən mərhələdə quruma üzvlük üçün müraciətin verilməsinə əsas yarada bilər. Amma paralel olaraq, Ermənistanın Avrasiya İttifaqından çıxması lazımdır. Mövcud istiqamətdə rəsmi İrəvandan heç bir hərəkət yoxdur və olmayacaq da. Çünki Paşinyan və komandası ölkənin hazırkı iqtisadi inkişaf tempindəki sürətdə Rusiya amilinin ön planda dayandığını yaxşı bilir. Yəni, obrazlı desək, Moskva İrəvana bu vaxtadək balıq tutmağı öyrədib və öz dəryasını onun ixtiyarına verib. Bunun qarşılığında Qərbin yalnız boş vədləri var.

***

Sonda bir daha əvvəldə vurğuladığımız məqama qayıdaq. Bəli, Qərb dünyası Ermənistanı Rusiyadan qoparmaq üçün var gücü ilə hərəkətə keçib. Rəsmi İrəvan bu oyunun içindədir. Xüsusi vurğulayaq ki, sözügedən oyunun anti-Rusiya təmayülünün olduğu kimi, anti-Azərbaycan xətti də var. Əslində Qərb dünyası, xüsusən, Avropa üçün ikinci xətt bir o qədər önəmli deyil. Çünki Qərbin Azərbaycanla ciddi iqtisadi əməkdaşlıq konturları mövcuddur.

Sadəcə, Qərb anti-Rusiya ritorikası üçün erməni faktorundan yararlanırsa, həmin faktor üçün identik səciyyə daşıyan nədənsə yapışılmalıdır. Ermənistan Moskva əleyhinə çıxmağının mükafatı kimi Azərbaycan qarşısında üstünlüyə yiyələnməyi, daha doğrusu, itirdiyini geri almağı tələb edir. Qərb isə İrəvana bu xəstə tələbin yerinə yetirilməsi məsələsində yardım verir. Daha dağrusu, bunun görüntüsünü formalaşdırır.

Ancaq siyasətin sərt qaydaları var. Problem ondadır ki, Ermənistanın hazırkı hakimiyyəti özünün bəsit məntiqi ilə həmin qaydalara meydan oxuyur, reallığın fərqinə varmır. Rəsmi İrəvan fərqində deyil ki, sadə ermənilərin əriyi çürüyə bilər. Yəni, avantürist mövqeyin, ambisioz baxışın Ermənistanı tamamilə məhvə apardığı birmənalıdır.

**_Ə.CAHANGİROĞLU_**
**_XQ_**

# AMEA-da “Yeni tarixi dövr və milli ideya” müzakirəsi

**Milli Elmlər Akademiyasında “Yeni tarixi dövr və milli ideya” mövzusunda müzakirə keçirilib.**



Akademiyanın prezidenti akademik İsa Həbibbəyli Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı səsləndirdiyi “Bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır”, – sözlərini xatırladıb və bundan irəli gələrək bu istiqamətdə ilkin müzakirələrin keçirildiyini xatırladıb. Qeyd edib ki, həmin müzakirələr zamanı humanitar və ictimai elmləri təmsil edən 16 nüfuzlu alim mövzu barədə fikirlərini bildirərək bu istiqamətində 37 təklif səsləndiriblər.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, artıq akademiyada azərbaycançılıq və ümummilli ideyalar əsasında metodoloji tədqiqatların aparılmasına başlanılıb. Azərbaycan tarixinin, ədəbiyyatının, incəsənətinin dövrləşdirilməsi və inkişaf konsepsiyasının, eləcə də milli fəlsəfəmizin müəyyənləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. O, Müstəqil Azərbaycan dövlətinin bundan sonrakı tarixi dövr üçün milli ideyasının müəyyənləşdirilməsinin alimlərimizin başlıca vəzifəsi olduğunu diqqətə çatdırıb.

AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən akademik Gövhər Baxşəliyeva, Memarlıq və İncəsənət İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, Qafqazşünaslıq İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Musa Qasımlı, AMEA-nın Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov, akademiklər Möhsün Nağısoylu, Teymur Kərimli, Muxtar İmanov, professorlar İlham Məmmədzadə, Əbülhəsən Abbasov, tarix elmləri doktorları Eynulla Mədətli, Güllü Yoloğlu, fəlsəfə elmləri doktoru Füzuli Qurbanov, Şərqşünaslıq İnstitutu Gənc Alim və Mütəxəssislər Şurasının sədri Elnur Mustafayev və başqaları çıxış edərək Azərbaycanın yeni tarixi dövr üçün yeni milli ideyası ilə bağlı təklif və mülahizələrini səsləndiriblər.

**_XQ_**

I MƏQALƏ

# Liderin gücü: şəxsi keyfiyyətlərlə xalq–iqtidar birliyinin sintezi

(fəlsəfi-politoloji təhlil)



## "Güclü lider" və "liderin gücü"

Məişət səviyyəsində, ümumiyyətlə, "güc" anlayışı ünsiyyətdə çətinlik çəkmədən işlədilir. Siyasətdə də politoloqlar "güclü lider" terminini müxtəlif kontekstlərdə istifadə edirlər. Ancaq fəlsəfi və siyasi-nəzəri aspektdən bu anlayışları anlamaq istəsək, onun sadə olmadığını görərik. Politologiyada da tanınmış nəzəriyyəçilər "güclü lider" anlayışının ümumi kriteriyalarının müəyyənləşməsi istiqamətində araşdırmalar aparmaqdadırlar. Lakin hələlik cavabdan çox suallar vardır.

Digər tərəfdən, "güclü lider" anlayışı ilə "liderin gücü" anlayışı arasında məzmun fərqi vardır. Doğrudur, onların oxşar cəhətləri də çoxdur. Lakin "güclü lider" termini liderin müəyyən şəxsi keyfiyyətlər əsasında praktiki fəaliyyətini alınan nəticə aspektində xarakterizə edirsə, "liderin gücü" daha çox fəaliyyətin prosessual aspektdə daxili motivasiyasına aiddir.

Məsələn, güclü lider qarşısına qoyduğu məqsədə çatmaqda tərəddüd etməyən, bütün maneələri aşaraq qələbə qazanan hesab oluna bilər. Lakin burada da hansı məqsədin qarşıya qoyulduğu və ona nə yolla nail olması məsələsi ortaya çıxır. Bu məsələdə fikirlər fərqlənə bilir və biri üçün "güclü lider" olan, digəri üçün "zalım lider", "aqressiv lider", "eqoist lider", "bədniyyətli lider" kimi qəbul edilər.

Liderin gücü isə şəxsi fəaliyyətin daxili keyfiyyətləri ilə xarici faktorların bir-biri ilə münasibətlərinin sintezində özünü göstərən təsir səviyyəsi ilə "ölçülür". Bu zaman aparıcı rolu daxili şəxsi keyfiyyətlərin, yoxsa lider-ətraf mühit münasibətlərində liderin nümayiş etdirdiyi qətiyyət, yüksək iradi keyfiyyətlər, zəka və digər faktorlarınmı həlledici rol oynadığı aydınlaşmalıdır.

Dünya təcrübəsinin politoloji dərki göstərir ki, bu kimi suallara cavab axtarışı vacibdir. Bu baxımdan "güclü lider" və "liderin gücü" anlayışlarına fəlsəfi və siyasi-nəzəri aspektlərdə qısa nəzər salmaq faydalı olardı.

## "Sakitliyə riayət edin və möhkəmlənin"

Sokrat bu kəlamı ölümündən bir qədər əvvəl mütəəssir olan və bədbinləşən tələbələrinə demişdi. Mənası ondan ibarətdir ki: hər bir olacağı sakit, ağılla, təmkinlə qarşılayıb, vəziyyətdən nəticə çıxarmaq və bu əsasda daha möhkəm olmaq fəzilətlilik əlamətidir! Buna görə də yunan fəlsəfəsində carteros (güclü, möhkəm, möhtəşəm) termini daha çox işlədilirdi və bu kontekstdə "cartereo" feili və təyini olaraq terminindən ("dözürəm", "kişi kimi adlayıram", "möhkəmliklə keçirirəm" və s.) istifadə olunurdu. Ayrıca, düzgün filosofluq edənlər şəxsi nəfslərdən, şəhvətdən xilas olurlar və "möhkəmlənirlər" (carteroysin).

Deməli, ümumi fəlsəfi səviyyədə "güc" anlayışı" əsas olaraq etika, mənəviyyat və əxlaqla iradi keyfiyyətlərin sintezində anlaşılırdı. Burada əsas məqsəd fəzilətlilik, yəni xeyirxahlıq, müdirklik və məqsədyönlülükdən ibarət idi. Siyasi fəaliyyətdə də qədim dövr filosofları üçün fəzilət birinci sırada dayanırdı. Burada Platon siyasi gücü "hökm etmək", "hünərli olmaq" kimi daxili ruhani, psixoloji və mənəvi faktorlara bağlayırdı. Tarixin sonrakı dönəmlərində gücün fiziki, psixoloji, mənəvi-əxlaqi, mədəni və s. aspektləri daha ayrıntılı dərk olunmağa başladı. O cümlədən, siyasi liderin gücü haqqında fərqli mövqelər meydana çıxdı. Lakin bütün hallarda liderin gücü siyasi fəaliyyətdə həmişə aktual məqam kimi fəlsəfi və politoloji yanaşmalarda qəbul edilmişdir.

Fəlsəfi-nəzəri mücərrədləşdirmədən müasir mərhələdə siyasi anlamda "güc", "güclü lider" və "liderin gücü" anlayışlarının anlamlarına baxaq.

## D.Tramp və "Mister Smit Vaşinqtona gedir"

Politoloq Arçi Braun 2014-cü ildə qələmə aldığı "Güclü lider haqqında mif: müasir dövrdə siyasi liderlik" "The myth of the strong leader: political leadership in the modern age" adlı əsərində maraqlı məqamlara toxunur. O, Donald Trampı siyasi lider kimi xarakterizə edərkən Ağ Evin "daxili çəkişmələri" haqqında Maykl Vulfun məşhur "Atəş və Qəzəb" adlı bestsellerində yer alan metaforik ifadələrdən yararlanmışdır. Həmin sırada aktyor Cimmi Styüartın "Mister Smit Vaşinqtona gedir" filmindəki personajın parodiya variantını vurğulamışdır. Burada politoloqun filmdəki parodiya kontekstində işarəsi ondan ibarətdir ki, D.Trampın filmdəki cənab Smit kimi, Vaşinqtona səfəri "güclü liderlik" prizmasında əsl məzhəkə və ya macəradır. Bunun belə olub-olmadığı haqqında biz bir fikir bildirmirik, çünki məqsəd onda deyil. Daha maraqlısı D.Trampın bu replikaya cavabıdır: "sabit olaraq dahiyəm"!

İndi bu "sabit dahiliyə" A.Braunun gətirdiyi çoxsaylı faktların işığında baxaq. 2016-cı ildəki prezident seçkisində D.Trampın əsas arqumenti güclü lider olacağı ilə bağlı idi. Doğrudur, o, öncə bir şərt qoymuşdu: seçilsəm, görəcəksiniz necə güclü lider olacağam! Bu oyun keçdi, belə ki, 2016-cı ilin noyabrında rəyi soruşulan amerikalıların 36 faizi ölkəyə güclü liderin lazım olduğuna inanırdı. Halbuki, 2012-ci ildə bu rəqəm 18 faiz təşkil etmişdir. Ancaq nə D.Trampın, nə də tərəfdarlarının güclü liderliklə bağlı zamanın tələblərinə, obyektivliyə, ədalətə və konkret nəticəliliyə hesablanmış təsəvvürləri olmadığından bu "təbliğat piramidası" sürətlə çökdü.

Belə ki, D.Trampın prezidentliyi ərəfəsində "Pyü" sorğu mərkəzinin dünyanın 37 ölkəsində (!) keçirdiyi sorğuda 55 faiz ona "güclü desə" də, "özündən razı, dikbaş" kimi xarakterizə edənlər də az olmamışdır. A.Braun bunu D.Tramp nümunəsində "güclü liderliklə səmərəli rəhbər olmanın bir-biri ilə uzalaşmaması" kimi qiymətləndirmişdir. Prezidentliyinin ilk 3 ayı ilə bağlı keçirilən sorğuda isə respondentlərin yalnız 22 faizi D.Trampın beynəlxalq münasibətlərdə düzgün davranacağına inandığını ifadə etmişdi. B.Obamanın prezidenyilinin ilk 3 ayında isə 37 ölkədən yalnız Rusiya və İsrail Obamanı "bəyənməmişdi", qalan 35 ölkədə ona inam ifadə olunmuşdu və Obamanın götəricisi 64 faiz idi! Fərqə diqqət edin: "yumşaq" Obama 64 faiz faiz, "güclü" Tramp 22 faiz! ABŞ, bir dövlət kimi, nüfuzu aşağı düşmüşdü: Obamanın prezidentliyində rəyi soruşulanların 64 faizi ABŞ-a pozitiv yanaşdığını ifadə etmişdisə, Trampın dövründə bu rəqəm 49 faiz təşkil edirdi.

## Güclü liderliyin yanlış anlamı: Qərbdə liderlərin əsas problemi

A.Braunun təhlillərindən aydın olur ki, D.Trampa münasibətin bu cür təzadlı olmasınını iki səbəbi vardır. Birincisi, D.Tramp və tərəfdalarının güclü liderlik haqqında əsaslı təsəvvürləri yox idi. Belə ki, D.Tramp daim güclü liderlikdən danışırdı və bu zaman Çində tələbələrin nümayişinin sərt yatırılmasını öncə "güclü hakmiyyət" kimi qiymətləndirmişdi, sonra isə "sərt hakimiyyət" terminine keçmişdir. Bunun fonunda isə D.Tramp M.Qorbaçovu "zəif əl" adlandırmışdı.

Bundan başqa, D.Tramp ABŞ dövlətçiliyinin maraqlarına uyğun olmayan elə fikirlər söyləmişdir ki, tərəfdarları onu "güclü lider" kimi xarakterizə edirdilərsə, politoloqlar "danışığında etiket gözləməyən, sərhəd tanımayan", özünü sərbəst göstərmək üçün, hətta, dövlətin strukturlarını etibarsızlaşdıran fikirlər söyləyən" boşboğaz kimi qiymətləndirirdilər. Məsələn, D.Tramp Amerikada müstəqil məhkəmə sistemi və azad mətbuatın varlığını dövlətin milli təhlükəsizliyinə təhdid hesab etdiyini söyləmişdi. Alimlər belə nəticə çıxarmışdılar ki, D.Trampın bu sərhəd tanımazlığı və öz marağı naminə dövlətin imicini korlaması amerikalıların öz dövlətlərinin gücünə inamını azaltmışdır. Onlar ölkənin demokratik normalardan uzaqlaşdığını düşünmüşlər. Bu cür vəziyyət güclü lider anlayışına uyğundurmu? Təbii ki, xeyr!

Bundan başqa, D.Tramp üçün güclü olmaqla sərt olmaq arasında bərabərlik işarəsinin qoyulması da ciddi siyasi nöqsandan xəbər verirdi. Üstəlik, D.Trampın tərəfdarları da güclü liderlik haqqında aydın fikrə malik deyildilər. Məsələn, onun qızğın tərəfdarı olan baş prokuror Ceffe Seşnze haqqında təhqiramiz fikir söyləyəndən və onu istefaya göndərəndən sonra, keçmiş baş prokuror "Fox News" telekanalına verdiyi müsahibədə D.Trampı yenə də "güclü lider" adlandırmışdır. Belə çıxır ki, C.Seşnze üçün güclü olmaqla təhqiramiz formada tərəfdarını işdən uzaqlaşdırmağın arasında ziddiyyət yoxdur. Bəlkə də, onun üçün öz komandası ilə ədalətsiz, təhqiramiz və sərt davranmaq güclülük əlamətidir.

Bu, yeganə nümunə deyildir, çünki D.Tramp Ağ Evdə kadrları tez-tez dəyişirdi. Onların sırasında cəmi 2 həftə vəzifəsində olanlar vardı. Deməli, D.Trampın komandasında da güclü liderliyi yanlış anlayanlar kifayət qədər idi. Bu da təbiidir, çünki D.Trampın özü güclü lider olmağın şərtlərini düz-əməlli anlamamışdı.

Bizim güclü liderliklə bağlı D.Tramp nümunəsi üzərində geniş dayanmağımız subyektiv istəklərlə bağlı deyildir. Sadəcə, A.Braun "güclü liderliyin" müəyyən edilməsi zərurətini konkret misallar və müqayisələrlə yaxşı təqdim etmişdir. O, əsərində A.Hitler, İ.Stalin, M.Qandi və digər liderlərin nümunəsində politoloji müqayisələr aparmışdır. Həmin müqayisələrdən və digər Qərb politoloqlarının araşdırmalarından belə qənaətə gəlmək olar ki, güclü liderlik hələ araşdırılmalıdır və dərindən əsaslı öyrənilməlidir. Burada digər məqam liderin hansı şərtlər daxilində və coğrafi məkanda fəaliyyət göstərməsinin onun fəaliyyətinə necə təsir etməsi ilə bağlıdır.

Bütün bunların fonunda Azərbaycanda güclü liderliyin və liderin gücünün fəlsəfi-politoloji dərki ciddi aktuallıq kəsb edir. Həm də ona görə ki, Azərbaycan Avrasiya məkanında həm güclü liderlikdə, həm də liderin gücü məsələsində yeni nümunə yaratmışdır. Onun bir sıra politoloji aspektləri üzərində dayanmağa böyük ehtiyac görürük! Öncə, ümumfəlsəfi və politoloji səviyyədə "Güclü lider kimdir?" sualına cavab axtaraq.

**(ardı var)**

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

# Dönüb keçmişinə baxmazmı Fransa?!

## Neomüstəmləkəçi ölkənin Azərbaycanı destruktivlikdə ittiham etməsi əsassızdır

**Fransa müstəmləkə imperiyasının süqutu faktı ilə üzləşən beşinci respublikanın prezidenti Şarl de Qoll formaca sentimental, ancaq mahiyyətcə məkrli "Yeni Afrika siyasəti" konsepsiyasını hazırlamışdı. Onun qarşısında keçmiş müstəmləkələrdə müstəsna iqtisadi və siyasi üstünlükləri saxlamaqla Afrikanı tərk etmək vəzifəsi dururdu.**




General Afrika dövlətlərinin suverenliyi ilə razılaşmışdı, lakin bu, yalnız elan edilmiş bir mövqe idi – "Fransa Afrikanı sevir!". Eyni zamanda, de Qoll müstəmləkə ölkələrinin Parisdən asılılığını qorumaq, onların təbii sərvətlərini talamaq və güc strukturlarına nəzarət etmək üçün zəruri addımları atmışdı. "Survie" qeyri-hökümət təşkilatının yaradıcılarından biri və fransız neomüstəmləkəçilik ifadəsi olan "Fransafrika" termininin müəllifi Fransua-Ksavye Verşavın da dediyi kimi, "Elan edilən qanunilik faktiki qanunsuzluğu gizlədirdi. Bu qanunsuzluğu ancaq qeyri-qanuni üsullarla təşkil etmək olardı".

Bəli, "Fransafrik" belə meydana gəldi– metropolis və onun keçmiş xarici əraziləri arasında xüsusi müştəri əlaqələrinin sistemi, hərbi-siyasi və iqtisadi təsir şəbəkələri belə yarandı və bir sıra lobbi qrupları quruldu. De Qolldan sonrakı prezidentlər bu siyasətə sadiq qaldılar, keçmiş müstəmləkəçilik siyasətini "demokratiya" pərdəsi altında davam etdirdilər. Ancaq son illər Fransanın Afrika "sevdası" ciddi reallıqla qarşılaşıb. "Qara qitə"nin ölkələri Parisə həqiqi "məhəbbətini" sərgiləyirlər. Uzun illər dəhşətli istismara qalmış Afrika ölkələri Avropanın yeni Napoleonu olmaq sevdasına düşmüş Emmanuel Makrona qapını göstərirlər. Vaxtilə fransız təsirindən əziyyət çəkmiş Afrika qitədən Parisin izlərini birdəfəlik silməyə çalışır.

Təbii ki, Afrikadan qovulması böyük geosiyasi məğlubiyyət və hətta böyük alçaldılma kimi qiymətləndirən Fransa elitası bunun əvəzini başqa regionlarda möhkəmlənməklə çıxarmaq istəyirlər. Xüsusilə də Parisin İkinci Qarabağ müharibəsindən sonra Ermənistan vasitəsilə Cənubi Qafqaz regionunda nöhkəmlənmək istəyi məhz Afrikada üzləşdiyi biabırçılığını kompensasiya etmək arzusu ilə bağlıdır. Əslində, Paris çoxdan Cənubi Qafqaz regionunda möhkəmlənmək istəyirdi və indi Rusiyanın təsirinin zəifləməsi fonunda bunu etmək şansı var. Fransanın bu gün Ermənistana regionun açarı kimi baxması heç kimə sirr deyil. Son illər Parisin İrəvanla ikitərəfli əlaqələri dayanmadan gücləndirməsi bunun təsdiqidir.

İndi Rusiya başqa problemlərlə məşğuldur və Fransa bu vəziyyətdən yararlanaraq regionda təsirini artırmaq fikrinə düşüb. Parisin Ermənistana ölümcül silah tədarükü qərarı açıq-aydın əməkdaşlığı dərinləşdirmək və İrəvanın əhəmiyyətini və uyğunluğunu sübut etmək istəyi də məhz bununla bağlıdır. Buna görə də, Cənubi Qafqazda Rusiyanı əvəz etmək sevdasına düşmüş Fransanın İrəvanın xoşuna gəlmək üçün hər çür cəfəng bəyanatlar səsləndirməsi Parisin regionla bağlı məkrli geosiyasi siyasətinin məntiqinə uyğundur.

Xatırladaq ki, aprelin 2-də Fransa XİN rəhbəri Stefan Sejurne ABŞ Dövlət katibi Antoni Blinken ilə keçirdiyi mətbuat konfransında iddia edib ki, guya, Azərbaycan Ermənistanın ərazi bütövlüyünü təhdid edir. Təbii ki, Azərbaycanla bağlı səsləndirdiyi iddialar Fransanın ölkəmizə qarşı qərəzliliyini, bütün imkanlardan istifadə edərək Bakını hədəfə gətirmək niyyətini, ümumilikdə, Cənubi Qafqazda kövrək sülhü pozmağı və regionu yeni münaqişə ocağına çevirmək istəyini nümayiş etdirir. Bütün bu proseslər kənar maraqlara xidmət edir ki, bu da regiondakı vəziyyətə dağıdıcı təsir göstərir. Ermənistanın xarici qüvvələr üçün rıçaq kimi çıxış etməsi İrəvana münasibdirsə, bu, onun seçimidir. Amma bu seçimdə Ermənistanın vəziyyətdən qalib çıxmayacağı aydındır. Yaxın tarix İrəvan üçün dərs olmalıdır.

Görünən odur ki, Nikol Paşinyan də eyni yolu gedir və Ermənistanı xarici qüvvələrə rıçaq kimi təslim edərək, mövqeyini gücləndirəcəyini və regional siyasətə təsir edəcəyini düşünür. Bu, regionun problemlərinə kökündən yanlış yanaşmadır. Bu heç vaxt olmayıb və olmayacaq. Çünki xarici qüvvələrin əlində əsir olan ölkə heç vaxt öz xarici siyasətini düzgün və balanslı şəkildə müəyyən edə bilməz.

Ermənistanı "xüsusi qayğı" ilə əhatələyən Fransa İndi Azərbaycanı ittiham edir, ancaq yaxşı olardı ki, Paris Afrika və Yaxın Şərqdə həyata keçirdiyi aqressiv kolonializasiya siyasətinin gətirdiyi fəlakətlərdən nəticə çıxarsın. Fransa müstəqillik uğrunda haqlı mübarizə aparan koloniyalardakı fəallara qarşı təzyiqlərə, təqiblərə və cəzalandırma metodlarına son qoymalıdır. Eyni zamanda, Paris həmin xalqların müstəqillik uğrunda mübarizələrinə qarşı aqressiv tədbirlərdən əl çəkmək haqqında düşünməlidir. Bundan başqa, Fransa başa düşməlidir ki, Parisə Cənubi Qafqazda neomüstəmləkəçilik siyasəti həyata keçirməsinə imkan verilməyəcək və bu siyasətin, eləcə də regionda vəziyyətin gərginləşməsinə yönəlmiş əməllərinin fəsadlarını həm özü, həm də ciddi cəhdlə müdafiə etməyə çalışdığı Ermənistan yaşamağa məcbur olacaq.

Yürütdüyü aqressiv siyasət və destruktiv fəaliyyət Fransanın onsuz da sarsılmış imicini daha da korlayır və Ermənistanın çıxılmaz vəziyyətini daha da dərinləşdirir. Görünən odur ki, Paris 2020-ci ildən sonra Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallığı qəbul etmir və regionda qüvvələr balansını dəyişməyə çalışır. Amma Azərbaycanın yaratdığı bu reallığı dəyişmək üçün rəsmi Parisin nə hərbi, nə siyasi və iqtisadi potensialı var. Ermənistanın isə yeni eskalasiyaya başlamağa gücü yoxdur. Baş nazir Nikol Paşinyan da daxil olmaqla rəsmi İrəvan yaxşı bilir ki, regional hərbi-siyasi tarazlıq o qədər də kövrək deyil ki, onu gələcəkdə veriləcək 50 zirehli texnika, 3 radar sistemi və ya digər silahların köməyi ilə dəyişmək mümkün olsun.

Əksinə, 2020-ci ilin noyabrından Azərbaycan və Ermənistan arasında qüvvələr nisbəti birdəfəlik dəyişib və bu fərq hər gün artır. Fransa rəhbərliyi bu reallığı nə qədər tez anlasa, bir o qədər həm özü, həm də İrəvan üçün yaxşı olar.

**S.ELAY**
**XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 184** **Bakı şəhəri, 1 aprel 2024-cü il**

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanu-nunda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, “Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydalarının təsdiq edilməsi barədə” 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli, “İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında” 2003-cü il 4 avqust tarixli 911 nömrəli, “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2012-ci il 6 iyun tarixli 648 nömrəli və “Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2017-ci il 21 iyun tarixli 1480 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 10 aprel tarixli 2095 nömrəli Fərmanının 2.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 755 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları”nda “Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı” sözləri “Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyi” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 noyabr tarixli 259 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1198 (Cild I) ilə təsdiq edilmiş 7 nömrəli əlavə - “Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi üzrə idarəetmə sisteminə daxil olan Elmi-Texniki Şuranın Əsasnaməsi”nin 5.3-cü bəndinin ikinci cümləsində “elmi struktur vahidlərində” sözləri “strukturuna daxil olmayan tabeliyindəki qurumlarında” sözləri ilə, “struktur vahidlərində (qorunan ərazilər və tədqiqat institutları)” sözləri isə “strukturuna daxil olmayan tabeliyindəki qurumlarında” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 86 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 485 (Cild I) ilə təsdiq edilmiş “Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası”nın 1.1-ci bəndindən “(yerli icra hakimiyyəti orqanları, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri istisna olmaqla)” sözləri çıxarılsın və həmin bəndə “ticarət nümayəndələri” sözlərindən sonra “və yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri vəzifələri” sözləri əlavə edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 486 (Cild I) ilə təsdiq edilmiş “Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması”na 1 nömrəli əlavə - “Dövlət qulluğu vəzifələri üzrə Sertifikatın verilməsi üçün inzibati vəzifələrin növləri, qrupları və alt qrupları” cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

5.1. “AC1” sətrinin üçüncü abzasının sonunda nöqtəli vergül işarəsi qoyulsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

“Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanların rəhbərləri”;

5.2. “AC2” sətrinə “sektor müdiri” abzasından əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“şöbə müdiri;”;

5.3. “AC3” sətri üzrə:

5.3.1. “mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların rəhbərlərinin müavinləri” abzasından əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“şöbə müdirinin müavini;”;

5.3.2. “mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların rəhbərlərinin müavinləri” abzasının sonunda nöqtəli vergül işarəsi qoyulsun və aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanların rəhbərlərinin müavinləri”;

5.4. “AC4” sətrinə “dövlət orqanı rəhbərinin köməkçisi” abzasından əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi, onun müavini;”.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 dekabr tarixli 545 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2493 (Cild I) ilə təsdiq edilmiş “1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri”ndə aşağıdakı dəyişikliklər edilsin:

6.1. 5-ci hissənin ikinci abzasında “bölmə” sözü “struktur bölmə” sözləri ilə, “, habelə yerli icra hakimiyyəti orqanlarında, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlarda, eləcə də yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində inzibati vəzifələrə” sözləri “inzibati vəzifələrinə” sözləri ilə əvəz edilsin;

6.2. aşağıdakı məzmunda 8.3.2-1-ci, 8.3.3-1-ci, 8.5.12-1-ci, 8.6.5-1-ci, 8.6.7-1-ci yarımbəndlər əlavə edilsin:

“8.3.2-1. dövlət orqanı rəhbərinin müşaviri

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 3 il qulluq stajı və yaxud 5 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.3.3-1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyinin rəhbəri və onun müavini

Təhsilə dair tələblər: ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 6 il qulluq stajı və yaxud 9 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, Azərbaycan Respublikası Prezi-dentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası”nı, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.5.12-1. Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanların rəhbərləri

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 4 il qulluq stajı və yaxud 6 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.6.5-1. şöbə müdiri və onun müavini

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 3 il qulluq stajı və yaxud 4 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.6.7-1. Bakı Şəhər İcra Hakimiyyətinin başçısının yanında olan orqanların rəhbərlərinin müavinləri

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 3 il qulluq stajı və yaxud 4 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;”;

6.3. 8.7.3-cü yarımbəndin dördüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.7.4-cü və 8.7.5-ci yarımbəndlər əlavə edilsin:

“8.7.4. yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi, onun müavini

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 2 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.7.5. dövlət orqanı rəhbərinin köməkçisi

Təhsilə dair tələblər: ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 2 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 185** **Bakı şəhəri, 1 aprel 2024-cü il**

**“İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın formalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 466 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1065-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın formalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 466 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1954 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 mart tarixli 116 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-1-ci və 3-1-ci hissələrə “sosial müavinətlər” sözlərindən sonra “, işsizlikdən” sözü əlavə edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş 2-1 nömrəli əlavə - “Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar tərtib edilən inzibati xəta haqqında Elektron Protokol”un adına “sosial müavinətlər” sözlərindən sonra “, işsizlikdən” sözü əlavə edilsin.

**3.** Həmin Qərarla təsdiq edilmiş 3-1 nömrəli əlavə - “Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar çıxarılan inzibati tənbeh vermə haqqında Elektron Qərar”ın adına “sosial müavinətlər” sözlərindən sonra “, işsizlikdən” sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 186** **Bakı şəhəri, 2 aprel 2024-cü il**

**“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında” 2008-ci il 13 iyun tarixli 2868 nömrəli, “Təhsil müəssisələrində təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının aparılması qaydaları ilə bağlı tədbirlər haqqında” 2012-ci il 8 may tarixli 2218 nömrəli, “Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli, “Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında” 2019-cu il 10 yanvar tarixli 881 nömrəli, “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2020-ci il 27 iyul tarixli 2178 nömrəli və “Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında” 2021-ci il 20 oktyabr tarixli 2971 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 4218 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respub-likasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləş-dirilməsi tədbirləri haqqında” 2008-ci il 13 iyun tarixli 2868 nömrəli, “Təhsil müəssisələrində təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının aparılması qaydaları ilə bağlı tədbirlər haqqında” 2012-ci il 8 may tarixli 2218 nömrəli, “Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli, “Azərbaycan Respub-likasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında” 2019-cu il 10 yanvar tarixli 881 nömrəli, “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2020-ci il 27 iyul tarixli 2178 nömrəli və “Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında” 2021-ci il 20 oktyabr tarixli 2971 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 4218 nömrəli Sərəncamının 7-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 may tarixli 77 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 385 (Cild I); 2024, № 1, maddə 105) 1-1-ci hissəsi ləğv edilsin.

**2.** “Ümumi təhsil pilləsində təhsilalanların yekun attestasi-yasının aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 498 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2217 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

**3.** “Ölkədə mövcud olan qabaqcıl texnoloji avadanlıqla təchiz edilmiş elmi tədqiqat mərkəzlərinin və laboratoriyaların (tədqiqat infrastrukturunun) reyestrinin tərtib olunması və aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 340 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1447 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**4.** “Turizm Reyestrinin aparılma Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 yanvar tarixli 16 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 73 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**5.** “Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları”nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Təbii ehtiyatlara görə ödəmələrin, çirkləndirici maddələrin təbii mühitə atılmasına görə ödəmələrin tətbiqi və həmin ödənişlərdən əmələ gələn vəsaitdən istifadə haqqında” 1992-ci il 3 mart tarixli 122 nömrəli, “Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamənin və sudan istifadə tariflərinin təsdiq edilməsi barədə” 2002-ci il 17 iyun tarixli 97 nömrəli, “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2013-cü il 4 oktyabr tarixli 288 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2006-cı il 18 mart tarixli 84 nömrəli Qərarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli 95 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 272 (Cild I) 10-cu hissəsi ləğv edilsin.

**6.** “Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun Əsasnaməsinin və sanitariya-mühafizə zonasının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 noyabr tarixli 424 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1360 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 189** **Bakı şəhəri, 2 aprel 2024-cü il**

**Azərbaycan Milli Konservatoriyasının yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında**

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Milli Konservatoriyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Milli Konservatoriyasına çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** “Azərbaycan Milli Konservatoriyasının Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərar qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Milli Konservatoriyasının “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 190** **Bakı şəhəri, 2 aprel 2024-cü il**

**“Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı”nın, “Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı”nın və “Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

“Azərbaycan Respublikası Prezidentinin “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, “İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında” 2003-cü il 4 avqust tarixli 911 nömrəli, “Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında” 2019-cu il 11 aprel tarixli 622 nömrəli, “Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidməti haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2019-cu il 11 sentyabr tarixli 829 nömrəli fərmanlarında və “Ezamiyyə xərclərinin 1 günlük normalarına əlavələrin və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin siyahısının təsdiq edilməsi barədə” 2008-ci il 10 mart tarixli 2715 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2437 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli 142 nömrəli Qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı”nın 13-cü hissəsinə “Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi,” sözlərindən sonra “Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini,” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan "Bir kəmər, bir yol"un baş yoluna çevrilib

**Azərbaycan Çin ilə nəqliyyat–logistikaya dair qlobal təşəbbüslər müstəvisində sıx əməkdaşlıq qurub. Hər iki dövlət "Bir kəmər, bir yol" layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırıb.**




Prezident İlham Əliyev hələ ötən il iyunun 20-də Çinin "China Media Group" media korporasiyasına müsahibəsində müxbirin "Azərbaycanın "Bir kəmər, bir yol" kimi nəhəng infrastruktur layihəsini qısa müddətdə –307 günə icra etməsinə necə nail olub" sualına cavabında da bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı belə bir təşəbbüsün inkişafımızın sürətlənməsində mühüm rol oynadığını xatırladaraq Azərbaycanın bu cür nəhəng regional bağlantının mərkəzində dayanmasının önəmli üstünlüklərini diqqətə çatdırıb. Ölkə rəhbəri daha sonra deyib: "Xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq…".

Ötən müddətdə Prezident İlham Əliyevin vurğuladığı kimi, ilk olaraq yerli infrastruktur inkişaf etdirmək üçün bu sahəyə geniş həcmdə investisiya qoyuldu, qonşularla bağlantı körpülərinin qurulması diqqətdə saxlanıldı. Beləliklə, "Bir kəmər, bir yol" layihəsi ilə bağlı ölkədaxili infrastruktur sistemi qısa zamanda gerçəkləşdi. Bununla da, sözügedən istiqamətdə sonrakı proseslərin sürətlə aparılmasına əlverişli zəmin yarandı.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında "İpək yolu iqtisadi kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Çin Xalq Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" kimi mühüm sənədlərin imzalanması da ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin davamlı genişlənməsini və Çinin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (Orta Dəhliz) marağının artmasını şərtləndirib.

Bu gün Çin Azərbaycandan kənd təsərrüfatı, kimya və sənaye məhsullarının idxalını daha da artırmağı, "İnternet ipək yolu"nun yaradılması, "İpək yolu" elektron ticarətinin inkişafı məqsədilə respublikamızla əməkdaşlığı dərinləşdirməyi planlaşdırır. Buna uyğun olaraq hər iki dövlət nəqliyyat və tranzit sahəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsini daim diqqətdə saxlayır.

Çinin Avropa ilə ticarət əlaqələrini Azərbaycan üzərindən həyata keçirməyə çalışması təkcə ölkəmizin coğrafi mövqeyindən ibarət deyil. Azərbaycan 15 milyon ton yükaşırma imkanı olan beynəlxalq dəniz limanına və ildə 5 milyon ton yükdaşıma imkanı olan Bakı–Tbilisi–Qars (BTQ) dəmir yoluna malikdir. Bu infrastrukturlar Orta Dəhlizin əsasını təşkil edir. Bu il BTQ-də genişləndirmə işlərinin başa çatacağı nəzərdə tutulur. Dəmir yolunun Gürcüstandan keçən hissəsində genişləndirmə işləri yekunlaşandan sonra yolun yükdaşıma imkanının10 milyon tona çatacağı da gözlənilir.

Qazaxıstan Orta Dəhliz marşrutu üzrə Çin ilə Azərbaycanın arasında yerləşən dövlətdir. Buna görə də Orta Dəhlizin formalaşmasında Qazaxıstan da mühüm rola malikdir. "KTZ Express" logistika şirkətinin icraçı direktoru Aybek Kapar bildirib ki, Qazaxıstan ərazisindən ümumilikdə 11 nəqliyyat dəhlizi keçir ki, bunların arasında ən əhəmiyyətlisi Çin ilə Avropanı birləşdirən Orta Dəhlizdir. Qazaxıstanın Çin ilə sərhəddə yerləşən Altınkol stansiyasından yük qatarı Orta Dəhlizlə Gürcüstanın dəniz limanlarına 53 deyil, 15 gün ərzində çatdırılır. Bu, yüklərin tez çatdırılması ilə yanaşı, nəqliyyat xərcinin də azalması deməkdir.

Çin Milli Dəmir Yolları Qrupunun (China National Railway Group) məlumatında bildirilir ki, Qazaxıstandan Avropaya və əks istiqamətdə hərəkət edən yük qatarlarının sayı cari ilin yanvar–fevral aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9 faiz, daşınan yüklərin həcmi isə 10 faiz artıb.

Açıqlamada vurğulanır ki, indiyədək Çinin 120, "Bir kəmər, bir yol" ölkələrinin isə 25 şəhəri ilə Avropa arasında qatarlarla yüklərin daşınması həyata keçirilib. Cari ilin yanvar-fevralında qeyd edilən istiqamətlərdə 2928 qatar vasitəsi ilə 317 min konteyner daşınıb. "China Railway Group"un ilin ilk ayında Çinin Sian, Çonçin və İvu şəhərlərindən Bakı, Tbilisi və İstanbula açdığı yeni marşrutlar üzrə 18 qatar hərəkət edib.

Yeri gəlmişkən, Çin ilə Avropa arasında dəmir yolu ilə yük daşımalarına 2011-ci ildən başlanılıb. Ötən müddətdə Çindən Avropanın və Asiyanın onlarla şəhərinə və əks istiqamətdə 85 mindən çox qatar səfər edib. Bakı–Tbilisi–Qars dəmir yolu xətti istifadəyə verildikdən sonra Azərbaycandan keçməklə bir neçə yeni Çin-Avropa yük qatarı marşrutu istifadəyə verilib. Rusiya-Ukrayna müharibəsi başlayandan sonra isə şimal xətti üzrə dəmir yolu marşrutlarında yaranan problemlər logistika şirkətlərinin Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə – Orta Dəhlizə marağını əhəmiyyətli dərəcədə artırıb. Son vaxtlar Qırmızı dənizdəki təhlükəsizlik problemləri səbəbindən gəmilərin Çindən Avropaya hərəkət müddəti isə ən azı 12 gün çoxalıb, nəticədə daşıma və sığorta xərcləri 2 dəfədən çox artıb.

Beynəlxalq ticarətdəki gərgin vəziyyət fonunda Çin–Avropa yük qatarları hər 2 istiqamət üzrə sabit, sürətli və sərfəli alternativ yaradıb. Bu kontekstdə Orta Dəhlizin əhəmiyyəti getdikcə daha qabarıq formada özünü göstərib. Məsələn, ötən il Orta Dəhliz üzrə yük daşımalarının həcmi 2 dəfə artaraq 3 milyon tona çatıb. Yaxın illərdə bu rəqəmin 10 milyon tona çatacağı proqnozlaşdırılıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyin məlumatında da bu barədə ətraflı bəhs edilib, eyni zamanda, uzaq Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən multimodal Orta Dəhliz Azərbaycanın iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq layihələrdən biri kimi dəyərləndirilib.

Bir daha xatırladaq ki, iqtisadi və siyasi baxımdan mühüm önəm daşıyan Orta Dəhliz Çinin "Bir kəmər, bir yol" layihəsinin bir parçasıdır, eyni zamanda, tarixi İpək yolunun ən mühüm komponentlərindən biridir. Bu marşrutun sürətli inkişafı istiqamətində Azərbaycan mühüm addımlar atmaqdadır. Belə ki, Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi, Zəngəzur dəhlizinin yaradılması bu yöndə görülən ən mühüm işlərdəndir.

Bu məqamda onu da qeyd etmək yerinə düşər ki, son illər ərzində Orta Dəhlizdə yükdaşımaların artımında Azərbaycan önəmli rol oynayıb. Başqa sözlə, respublikamızda dəniz, dəmir yolu, avtomobil, hava nəqliyyatının inkişafı istiqamətində gerçəkləşdirilən genişmiqyaslı layihələr, habelə Şərqlə Qərb arasında ənənəvi ticarət və alternativ yollar üzərində diqqətçəkən geosiyasi, geoiqtisadi proseslər sözügedən marşrutun cəlbediciliyini artıraraq ölkəmizlə bərabər regionun da sürətli tərəqqisini şərtləndirib.

Bu istiqamətdə layihələr hazırda da uğurla reallaşdırılır. Məsələn, 2017-ci ildə istifadəyə verilən və Orta Dəhliz vasitəsilə daşımalarda xüsusi rol oynayan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da artırılması üçün əlavə infrastruktur tədbirləri həyata keçirilir. Eyni zamanda, əsas dəmir və avtomobil yolları şəbəkələrinin kəsişməsində yerləşən Bakı Beynəlxalq Limanının ötürmə qabiliyyətini artırmaq məqsədi daşıyan tikinti işləri də planlaşdırılır.

Ümumiyyətlə, son 20 ildə ölkəmizdə bununla bağlı 19 min kilometr avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. Azərbaycanın beynəlxalq ticarət bazarında rolunun gücləndirilməsi – yüksək gəlirli istehsal, ixrac fəaliyyəti və innovativ texnologiyalarla investorların cəlb edilməsinə, iqtisadiyyatın dayanıqlı inkişafına və yeni iş yerlərinin yaradılmasına töhfə vermək üçün Ələt qəsəbəsində azad iqtisadi zona yaradılıb.

Qeyd edilən layihələrin gerçəkləşdirilməsi nəticəsində müvafiq sahədə yüksək göstəricilər əldə olunub. Məsələn, 2023-cü ildə ölkə ərazisindən keçən yüklərin həcmi 2019-cu illə müqayisədə 162 faiz artaraq 5,1 milyon tondan 13,4 milyon tona yüksəlib. Hesabat dövründə dəmir yolu tranzit daşımalarının həcmi 2019-cu illə müqayisədə 76 faiz artıraraq 3,8 milyon tondan 6,7 milyon tona çatdırılıb. Eyni zamanda, avtomobil nəqliyyatı ilə tranzit yüklərin həcmində də nəzərəçarpacaq artım müşahidə edilib. Belə ki, 2023-cü ildə avtomobil nəqliyyatı ilə tranzit daşımalarının həcmi 2019-cu illə müqayisədə 391 faiz artaraq 1,3 milyon tondan 6,5 milyon tona yüksəlib.

Onu da qeyd edək ki, respublikamızda nəqliyyat infrastrukturunun dinamik inkişafı ilə yanaşı, bu sahənin qanunvericilik bazasının möhkəmləndirilməsi də diqqətdə saxlanılıb. Məsələn, Azərbaycan ərazisindən keçən təhlükəli tranzit yüklərə görə yol vergisi ləğv edilib. Paralel olaraq yük avtomobillərinin çəkisi üzrə minimum vergi güzəşti həddi 38 tondan 41 tona çatdırılıb. Avtomobil nəqliyyatı üçün dövlətlərarası kvotalar və icazələr liberallaşdırılıb.

Bu layihələr isə beynəlxalq daşımalarda iştirak edən avtonəqliyyat vasitələrinin sayının artmasını şərtləndirib. Bu, statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, keçən il bu cür avtonəqliyyat vasitələrinin sayı 2021-ci illə müqayisədə 3,7 dəfə artaraq 12,7 minə çatıb. Avtomobil yollarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin ölçülərinə və çəkisinə dair tələblərin pozulması hallarının qarşısının alınması üçün elektron tərəzilərin tətbiqinə başlanılıb. Bu tədbirlərlə paralel olaraq indiyədək sərhəd-keçid məntəqələrinin infrastrukturunun təkmilləşdirilməsi və operativliyi istiqamətində genişmiqyaslı sistemli işlər görülüb, eləcə də nəqliyyatın daha rahat və operativ hərəkətini şərtləndirən yeni keçid məntəqələri istifadəyə verilib.

***Vaqif BAYRAMOV***
***XQ***



## Əhmədbəyli–Ağbənd magistralı bu il Zəngilana çatacaq

**İşğaldan azad olunmuş ərazilərdə inşaat işləri həyata keçirən Türkiyənin "Proyapı" şirkətinin İdarə Heyətinin sədr müavini Akif Aygen mediaya müsahibəsində Əhmədbəyli–Horadiz–Mincivan–Ağbənd avtomobil yolunun Zəngilan beynəlxalq hava limanına qədər olan hissəsinin tamamlanmaq üzrə olduğunu bildirib. "Böyük ehtimalla yol bu ilin sonuna qədər hazır olacaq. Hazırda yol üzərindəki 3 tuneldə betonlaşdırma işləri aparılır", – deyə o, qeyd edib.**

Xatırladaq ki, strateji əhəmiyyətə malik Əhmədbəyli–Horadiz–Mincivan–Ağbənd avtomobil yolu başlanğıcını Füzuli rayonunun Əhmədbəyli kəndindən götürməklə layihələndirilib. Yolun uzunluğu 124 kilometrdir.

Yol Qarabağın inkişaf planı nəzərə alınmaqla 6 və 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Magistralın ilk 76 kilometrlik hissəsinin 3 gediş – 3 gəliş olmaqla 6, qalan 48 kilometrlik hissəsinin isə 2 gediş – 2 gəliş olmaqla 4 hərəkət zolaqlı olması nəzərdə tutulub.

## Dəmir yollar yenidən qurulur

**Bu il Böyük Kəsik stansiyasında fasiləsiz avtomatik lokomotiv işarəvermə sexinin bərpası nəzərdə tutulur. Bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin infrastruktur departamentinin rəhbəri Elçin Zülfüqarov məlumat verib.**




İl ərzində infrastruktur sahəsində bir sıra işlərin planlaşdırıldığını bildirən qurum rəsmisinin dediyinə görə, ilk növbədə, Biləcəri çeşidləmə parkında başlamış əsaslı təmir işləri tamamlanmalıdır. Bundan əlavə, 4 yarımstansiya və 7 dartı yarımstansiyası əsaslı təmir olunmalıdır. 2024-cü ildə şəhərətrafı 20 kilometrlik yolun yenidən qurulması, Bakı–Böyük Kəsik dəmir yolu xəttində elektrik təchizatı və rabitə-işarəvermə sistemlərinin layihələndirilməsi və yenidən qurulması, Yalama stansiyasının təmiri və digər işlərin yerinə yetirilməsi nəzərdə tutulub.

E.Zülfüqarovun sözlərinə görə, hazırda Yalama stansiyada gün ərzində Rusiya Federasiyasından 10 cüt qatar qəbul edilərək göndərilir. Mövcud infrastrukturun genişləndirilməsi nəticəsində bu göstəricinin 12 cütə çatdırılması planlaşdırılır. İl ərzində, həmçinin 43 ədəd maşın mexanizm və xüsusi nəqliyyat vasitəsinin alınması nəzərdə tutulur.

***XQ***

# Şaxələndirmə dünya bazarına yön alıb

## Yanvar–fevral aylarında ölkəmiz 455 milyon dollarlıq qeyri-neft malları ixrac edib

**Ölkəmizdə ümumi iqtisadi artımın əsas hissəsi neft-qaz strategiyasının uğurlu nəticələri hesabına təmin olunsa da, son illər qeyri-neft sektoru üzrə də xüsusi fəallıq nəzərə çarpır. Bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən ardıcıl, məqsədyönlü tədbirlərin məntiqi nəticəsidir. Müqayisə üçün qeyd edək ki, 2010-cu ildə ölkəmizin qeyri-neft sektorunda 18,4 milyard manatlıq məhsul istehsal olunduğu halda, 2023-cü ildə bu göstərici 77,7 milyard manat təşkil edib.**



Bu sahədə artım tendensiyası 2024-cü ilin ilk iki ayında da müşahidə olunub. Ölkənin qeyri-neft sahələrinin inkişaf etdirilməsinin uğurlu nəticələri isə ixrac əməliyyatlarında özünü qabarıq şəkildə büruzə verib. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi "İxrac icmalı"nın mart sayında ətraflı məlumat verilib. Bildirilib ki, yanvar-fevral ayları ərzində Azərbaycanın ümumi ixracı 4,8 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 455 milyon ABŞ dolları təşkil edib. İlin ilk iki ayı ərzində ərzində yeyinti məhsulları üzrə ixrac 137,1 milyon dollara bərabər olub. Hesabat dövründə qara metalların ixracı 46,4 faiz, bitki və heyvan mənşəli piylər və yağların ixracı 29,7 faiz, pambıq ixracı 29,3 faiz, meyvə-tərəvəz ixracı isə 24,6 faiz artıb.

Cari ilin yanvar-fevral ayları ərzində ölkənin aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 16,9 faiz artaraq 145,9 milyon dollar təşkil edib. Yeri gəlmişkən, qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə xeyli artaraq 36,6 milyon dollara çatıb. 2024-cü ilin ilk iki ayında ixrac edilən qeyri-neft sektoruna aid mallarin siyahısında elektrik enerjisi (34,9 milyon dollar) birinci olub. Bu siyahıda pambıq mahlıcı (33,5 milyon dollar) ikinci, pomidor (30 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

"İxrac icmalı" sözügedən dövrdə Azərbaycanın ən çox qeyri-neft məhsulları ixrac etdiyi ölkələrin siyahısını da açıqlayıb. Belə ki, yanvar-fevral ayları ərzində Rusiya Federasiyasına 154,4 milyon dollar, Türkiyəyə 97,3 milyon dollar, Gürcüstana 42,9 milyon dollar, Ukraynaya 18,2 milyon dollar, Qırğızıstana isə 18,2 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mallar ixrac olunub.

Nəşrin məlumatında bu ilin fevral ayının qeyri-neft ixracı üzrə göstəricilər barədə də ayrıca məlumat verilib. Bildirilib ki, hesabat ayında da Azərbaycandan dünya bazarlarına 233 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunub. Bunun da 166,3 milyon dolları qeyri-yeyinti məhsullarının, 66,7 milyon dolları isə yeyinti məhsullarının payına düşüb. Yeyinti məhsulları üzrə ixrac əvvəlki ilin eyni ayı ilə müqayisədə 25 faiz çox olub.

Fevral ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (78,8 milyon dollar) birinciliyə yüksəlib. Bu siyahıda ilk üçlüyü isə Türkiyə (49,7 milyon dollar) və Gürcüstan (17,8 milyon dollar) tamamlayıb.

Son illər Azərbaycanın kənd təsərrüfatı sektorunda yaradılmış məhsul bolluğu daxili bazarın tələbatını ödəməklə yanaşı, ölkənin ixrac potensialının artmasına da mühüm töhfələr verir. Bu baxımdan əsas birkiçilik məhsullarından sayılan pambıq mahlıcı və pomidorun xüsusi qeyd etmək olar. Elə cari ilin fevral ayında ölkəmizdən ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında adıçəkilən məhsulların üstünlük təşkil etməsi də bunu təsdiqləyir. Xatırladaq ki, hesabat dövründə Azərbaycandan 23 milyon dollarlıq pambıq mahlıcı və 13,2 milyon dollarlıq pomidor (tomat) ixrac edilib. Bununla yanaşı, fevral ayında qeyri-neft sektoru üzrə ixrac edilən malların siyahısında ikinci və ilkin formalı propilen sopolimerləri (13,2 milyon dollar) üçüncü olub.

"İxrac icmalı"nın məlumatına əsasən, 2024-cü ilin yanvar-mart ayları ərzində "Bir pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilmiş qeyri-neft ixracının dəyəri 59,3 milyon ABŞ dolları, mart ayında isə 25 milyon ABŞ dolları təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi aylıq icmalda, həmçinin qeyri-neft sektoru üzrə cari ilin yanvar-fevral aylarında həyata keçirilmiş ixrac əməliyyatları ilə bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi təqdim olunub. Hesabat dövrü üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində "MKT İstehsalat Kommersiya" MMC, "My Fruit" MMC, "P-Aqro" MMC, Muradova Sahibə Səlimət qızı, "Soil Boons" MMC, "STP Global Cable" MMC, "Technopack" MMC, "Ümüd 059" MMC, "Mors Trading" MMC və "Gözəl Təbiət" MMC ilk onluqda qərarlaşıb.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlət şirkətlərinin siyahısında isə birinci yer "Azərenerji" ASC-yə məxsus olub. Siyahıda sonrakı yerləri ARDNŞ-in "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "SOCAR Polymer" MMC, "Azəralüminium" MMC, "Azer-Gold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəripək" MMC və "ASK Tütün" MMC tutublar.

"İxrac icmalı"nın məlumatında Azərbaycanın 2023-cü ilin yanvar-fevral aylarında peyk telekommunikasiya xidmətləri sahəsindəki uğurları ilə bağlı yığcam məlumat da yer alıb. Qeyd olunub ki, hesabat dövründə Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 45 ölkəsinə 3 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. Fevral ayında isə "Azərkosmos" dünyanın 41 ölkəsinə 1,6 milyon ABŞ dolları dəyərində xidmət göstərib. Bütövlükdə isə, peyk telekommunikasiya xidmətləri üzrə ixracın ilk beşliyində 886,1 min ABŞ dolları ilə Birləşmiş Krallıq, 650,3 min ABŞ dolları ilə Lüksemburq, 219,1 min ABŞ dolları ilə BƏƏ, 139,1 min ABŞ dolları ilə Pakistan və 135,4 min ABŞ dolları ilə Almaniya qərarlaşıb.

Nəşrin məlumatına görə, bu ilin ilk iki ayı ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 372,2 milyon manat, o cümlədən fevral ayında 184,3 milyon manat dəyərində əməliyyat aparılıb.

Göründüyü kimi, son illər ölkəmizdə qəbul olunmuş məqsədli dövlət proqramları, əvəzsiz biznes mühiti, eləcə də uğurlu şaxələndirmə siyasəti qeyri-neft sektorunun inkişafını sürətləndirib. Bu da öz növbəsində ixracın strukturunda qeyri-neft mallarının payının getdikcə artmasına imkan yaradır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

Səfər təəssüratı

# Soçi – bir Qafqaz nağılı, Qara dəniz nəğməsi...

**İnsan təyyarədə olanda nələri fikirləşir, nələri xatırlayırmış, İlahi? İlk yadıma düşən məqam orta məktəbin səkkizinci sinfində oxuyanda rəhmətlik Murad müəllimə verdiyim sual oldu: – Müəllim, xəritəyə baxanda elə güman edirəm ki, Xəzərlə Qara dənizi birləşdirmək olar. Dövlətlər nə üçün bu addımı atmırlar?**



Müəllim cavab verə bilməmişdi. İndi – 2024-cü il martın 9-da təyyarə ilə Bakıdan Soçiyə – Qafqazın bu başından o biri başına gedəndə Xəzərlə Qara dənizin arasındakı zirvələri, dağların möhtəşəmliyini gördüm və mərhum müəllimimizin cavab verə bilməməsinin səbəbini anladım.

... Mərhum rektorumuz, professor Aslan Aslanov mühazirələrinin birində demişdi ki, xalq yaradıcılığındakı halların, vəziyyət və hadisələrin hamısı ya vaxtilə həyatda mövcud olub, ya da nə zamansa mövcud olacaq. Professor tamamilə haqlı idi. Martın 9-da təyyarənin illüminatorundan baxanda aşağıda Azərbaycan, Gürcüstan, Ermənistan, Krasnodar, Stavropol, Adıgey, Dağıstan, İnquşetiya, Çeçenistan, Kabardin-Balkar, Qaraçay-Çərkəz, Şimali Osetiya kimi siyasi-coğrafi ərazilərin üzərindən keçdiyimizin fərqində idik. Üzərindən keçdiyimiz konkret ərazinin hansı dövlətə məxsus olduğunu bilməsək də, buradakı dağlar səltənətində Elbrusun ən uca zirvə olduğunu açıq şəkildə gördük.

Dağlarda nə qədər qar var imiş? Bəxtimizdən həmin gün hava açıq idi və göz işlədikcə ağappaq zirvə möcüzələrindən və bəyaz yamaclardan başqa heç nə görünmürdü. Bəzi ərazilərdə qar ərisə də (bəlkə oraya az yağmışdı) dərələrdə yığılıb qalan qar kütləsi dağın sinəsi aşağı süd axırmış kimi maraqlı görünürdü. Bəzi yerlərdə isə dağ çayları bəyaz yamacları doğrayıb keçirdi. Qafqazda irili-xırdalı nə qədər çay var imiş? Amma təkcə çaylar yox, dağın "budaqları" da səmadan möcüzə kimi görünürdü. Belə ki, yuxarıdan baxanda Qafqaz silsiləsi kəsilib yerə yıxılmış nəhəng, qollu-budaqlı ağaca bənzəyirdi. Qərəz...

Təyyarə Qara dəniz sahilindəki Adlerə enəndə (yol yoldaşlarımızdan biri dedi ki, Adler Soçinin Mərdəkanıdır) gözlərimi sevindirən ilk məqam yamacdakı çiçəkləmiş zoğal ağacları oldu. Həmin günlər Azərbaycanda yaz hələ xeyli "naz etsə" də, Qafqazın Qərb qurtaracağında zoğal, alça, ərik və adını bilmədiyim digər ağaclar çiçəkləmişdi.

Bayaqdan bəri dağların üstü ilə gəlsək də, Adlerdən Soçiyə qədər çoxsaylı tunellərlə, yəni, dağların altı ilə gedirdik. O yerləri görəndə qədim türklərin yaşayış məskəni kimi nə üçün buranı da seçdiyinin səbəbi aydın olurdu. Xatırladım ki, bu torpaqların sahibi türklər olanda Soçi yaşayış məntəqəsinin adı Abaza olub. Təbiəti, havası və relyef gözəlliyi ilə məşhur olan, Üçdərə yaylağındakı bu şəhər 1829-cu ildə Ədirnə sülhü ilə Rusiyaya birləşdirilib.

Alimlər şəhərin adını yerli xalq olan abazalarla əlaqələndirirlər. Qeyd edilir ki, abas (abaz) xəzərlərdə və peçeneqlərdə yayfa adı olub. Əlavə edilir ki, müasir abazalar Qaraçay-Çərkəzdə, Kabarda-Balkarda, Adıgöydə və Kislovodskda yaşayan müsəlman əhalinin əcdadlarıdır. O da qeyd edilir ki, abazaların müəyyən hissəsi Qafqazın istilasından sonra Türkiyəyə mühacirət etmişdir. Osmanlı tarixinin əsas tədqiqatçılarından olan alman alimi Hammerin yazdığına görə: "1769-cu il iyulun 17-də Xotin döyüşündə Abaza Mehmet paşa komandir idi". Bildirilir ki, şəhərin yeni adı Soçi də abaza tayfalarından olan soçaların adındandır. Elə dağlardan gələrək, Soçinin mərkəzindən keçib Qara dənizə tökülən Soçinka çayının adında da həmin tarixilik görünür.

... Oteldə yerləşəndən dərhal sonra Qara dənizi görmək istədim. Bu işdə mənə Kazanda doğulub böyümüş, Ufada ali təhsil almış, Soçidə işləyən tatar Alber Xayrulin kömək etdi. Adını deyəndən dərhal sonra əlavə etdi ki, mənim adımı Albertlə qarışdırmayın, Anadoludakı Alparla qarışdırın. Elə səfərin son günü Soçidən Adlerə – hava limanına da Fərqanədən olan Fehruz adlı gənc özbək balasının idarə etdiyi taksi ilə getmişdim. Əlavə edim ki, Soçidə Orta Asiyadan olanlar daha çoxdur.




Sahildə görüşdüyüm qoca rusla belə bir söhbətimiz oldu:

– Qarşıdakı möhtəşəm memarlıq nümunəsi olan binada hansı idarə yerləşir?

– O, Soçi dəniz limanı kompleksi idi. Liman başqa yerə köçəndən sonra bütün otaqları da, dəhlizləri də restoran və kafelərə çevrilib.

– Nə üçün bu dənizə Qara dəniz adı verilib?

– Bu dənizdə tarix boyu həm çoxsaylı qırğınlara səbəb olan qanlı müharibələr, həm də böyük fəsadlarla nəticələnən təbii fəlakətlər baş verib. Bu dənizin qara günləri ağ günlərindən çox olub. Elə 1941–45-ci illər müharibəsində Soçi "Təxliyyə şəhəri" adlandırılırdı. Bura nə qədər yaralı gətirilmişdisə, sayını hələ də dəqiq bilən yoxdur.

– Təəssüf ki, indi də bu dənizdə müharibə gedir. Qorxmursunuz ki?

– Yox! Səksən yaşdan sonra nədən qorxacağam? Amma sən qorxacaqsan.

– Nədən?

– Bir azdan bilərsən.

Bir azdan – sahildə, "Komsomol" bağındakı "İki lövbər" fontan kompleksində olanda, həqiqətən, qorxdum. Bilmədim ki, təlim idi, ya raket atdılar, ya gəmi partladı... nə idisə, çox dəhşətli bir gurultu eşitdim. Həmin anda həm dənizdəki, həm də qurudakı – ağaclara və ya məftillərə qonmuş bütün quşlar uçub havaya qalxdı. Qanadlılara həsəd apardım ki, həyəcanlı anlarda uçub canlarını qurtara bilirlər, bəs müharibə gedən ölkələrdəki körpələr neyləsinlər?

"İki lövbər" fontanı ətrafındakı parkda diqqətimi daha çox çəkən "gözü yaşlı" (bir az əvvəl yağış yağmışdı) qocaman "ağlayan söyüd", dekorativ ağacda təzəcə "inşa edilmiş" qaratoyuq yuvası, bəlkə də, iyirmidən çox şəhərdə gördüyüm – faşizm üzərindəki qələbəni təmin etmiş əsgər və zabitlərin xatirəsinə ucaldılan ümumiləşdirilmiş heykəl oldu. O heykəllər elə peşəkarlıqla ərsəyə gətirilir ki, onların hamısında cəbhədən əlil qayıtmış atamın da xarakterik cizgilərini görmüşəm. Soçidəki heykəlin isə sol əlinin üstünə baxdım. Atamın sol əlinin üstündə 1944-cü ildən ömrünün sonunadək gəzdirdiyi qəlpə var idi.

O ki, qaldı "İki lövbər" fontanına, heykəltaraş Viktor Qluxov bu memorial kompleksi XIX əsrin birinci yarısında Votkin zavodunda hazırlanmış, hər biri dörd ton olan lövbərlərin orijinalı üstündə yaradıb. Rus hərbi donanmasının gəmilərində istifadə edilən həmin lövbərlər 1838-ci il mayın 31-də güclü fırtına nəticəsində batan gəmi ilə birlikdə dənizin dibinə gedibmiş. Həmin gün fırtına Tuapsedə 13, Soçidə isə 9 gəmini batırmışdı. 1967-ci ildə isə Adler yaxınlığında həmin lövbərlər tapılmış və sudan çıxarılmışdır.

Soçidə görməli yerlər, həqiqətən, çoxdur. Otel inzibatçısı dedi ki, Rusiya–Ukrayna müharibəsindən əvvəl hər il bu şəhərə bəlkə də Soçinin əhalisi qədər turist gəlirdi. İndi isə...

Turistlər sovet dönəmində "kurort şəhər" adlandırılan Soçinin füsunkar təbiətini, zəngin tarixini və mədəni simasını nümayiş etdirən çoxsaylı ünvanlara maraq göstərirlər. Məsələn, Soçi dendrarisi, "Stalin daçası", Qafqaz dağları və heyrətamiz Aqura şəlalələri, stalinizm dövründəki binalar, Riviera Parkı, çoxsaylı restoran, mədəniyyət mərkəzi, kitabxana, Adler sahilləri və ən nəhayət, 2014-cü ildə keçirilmiş Qış Olimpiya Oyunları üçün tikilən "Fişt Olimpiya stadionu" (Fişt Qafqazın qərbindəki ən uca zirvənin adıdır və adıgey dilində "qarlı zirvə" deməkdir) kimi maraqlı ünvanlar istənilən qonağın diqqətini cəlb edir. Üstəlik, burada qonaqlara müxtəlif xalqların çoxsaylı mətbəx nümunələri də təqdim edilir.

Yəni, Qafqazın o biri başında da hər şey yaxşıdır. Hamının əhvalını pozan isə ancaq müharibədir. Bu müharibələr tarixin bütün dönəmlərində insanların gününü qara etmişdir. Qaldığım otelin ən yaşlı əməkdaşı olan Larisa Vladimirovna məni hava limanına aparacaq taksini sifariş edəndən sonra dedi: Siz xoşbəxtsiniz. Azərbaycan müharibəni qurtara bilib. Kaş, bizdə də tezliklə qurtaraydı.

Hər halda, Soçi sinnimin bu vədəsində mənə bir Qafqaz nağılı, Qara dəniz nəğməsi kimi xoş təsir bağışladı.

**İttifaq MİRZƏBƏYLİ,**
**Əməkdar jurnalist**

# Qazaxıstanın Baş prokuroru müavininin ölkəmizə işgüzar səfəri



**Qazaxıstan Respublikası Baş prokurorunun müavini Jandos Umiraliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Baş prokuror Kamran Əliyevin dəvətilə Bakıda keçiriləcək Xəzəryanı dövlətlərin baş prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşündə iştirak etmək üçün ölkəmizə işgüzar səfərə gəlib.**

İkitərəfli görüşdə Baş prokuror Kamran Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafı, ikitərəfli münasibətlərin möhkəmlənməsi və yeni əməkdaşlıq imkanlarının yaranmasında Azərbaycan Prezidenti cənab İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev arasında olan qarşılıqlı etimad və dialoqun mühüm rol oynadığını vurğulayıb. Cari ilin 11-12 mart tarixlərində Qazaxıstan Prezidentinin ölkəmizə dövlət səfəri çərçivəsində işğaldan azad edilmiş Füzuli rayonunda Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin istifadəyə verilməsi xalqlarımızın qardaşlığının daha bir göstəricisi olduğu qeyd edilib.

Kamran Əliyev cari ilin 29 sentyabr–2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləciyini və bununla bağlı qazaxıstanlı həmkarı Berik Asılova dəvət məktubu ünvanladığını bildirib.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Jandos Umiraliyev iki ölkə arasında mövcud əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün çətinliklərdə bir-birinə dəstək verdiyini diqqətə çatdırıb.

**XQ**

# Fransa baş diplomatının yalanı sülh prosesinə zərbədir

**Aprelin 2-də Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin Parisdə ABŞ Dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar növbəti dəfə Fransanın bölgədə açıq-aşkar gərginlik yaratmaq və sülh prosesinə mane olmaq səylərinin bariz nümunəsidir.**

Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin ABŞ Dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi iddialara dair şərh edərkən bildirib.

"Azərbaycan ərazilərini 30 ilə yaxın müddətdə işğal altında saxlayan, bir milyona yaxın azərbaycanlını öz doğma torpaqlarından didərgin salan, kütləvi qırğınlar və insanlıq əleyhinə cinayətlər törədən Ermənistanın Fransa tərəfindən sülhpərvər ölkə kimi təqdim edilməsi bu ölkənin həm vasitəçiliyi dövründə, həm də 44 günlük Vətən müharibəsindən sonra yürütdüyü siyasətin nə qədər saxta olduğunu nümayiş etdirir.

Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi kimi məsul vəzifəni yerinə yetirdiyi bir dönəmdə, ölkənin imicinə xələl gətirmək məqsədi güdən və sədrliyimizi hədəf alan bu kimi çağırışlardan çəkinilməsinin Fransa və dünyamız üçün daha faydalı olacağını hesab edirik.

Məhz Fransa kimi ölkələrin son 30 ildə Ermənistanın təcavüzünü ört-basdır edən siyasətinin heç bir fayda vermədiyi hər kəsə aydın olmalıdır. Bununla Fransa tərəfi anlamalıdır ki, onun tərəfindən həyata keçirilən bu kimi destruktiv fəaliyyətə nə qədər ki, son qoyulmayıb, bu həm Fransanın zərər görmüş imicinə,



Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransa tərəfinin Azərbaycanı aqressiv ritorikada təqsirləndirməsi qəbuledilməzdir. həm də hər vəchlə müdafiə etdiyi Ermənistana xeyir gətirməyəcək", – deyə Ayxan Hacızadə qeyd edib.

**XQ**

# Əfv Komissiyasında 700-dən çox müraciətə baxılacaq

**Bu gün Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının ilk iclası keçirilib. Bu barədə komissiyanın üzvü, Mətbuat Şurasının sədri Rəşad Məcid məlumat verib.**

O bildirib ki, komissiyada 700-dən çox müraciətə baxılacaq: "Burada həbsdə olan qadınlar, əcnəbilər, hərbi qulluqçular, yol-nəqliyyat hadisələri ilə bağlı həbs olunanlar, ömürlük məhkumlar və sairə barədə müraciətlərə baxılacaq. İlk iclasda 100-dən artıq müraciətə baxıldı. Gərgin və məhsuldar müzakirələr oldu".



**XQ**

Bəşəri örnək

# Azərbaycan multikultural dəyərlər ölkəsidir

## *Müsahibimiz Milli Məclisin deputatı Anatoli Rafailovdur*

***– Xalqlar, millətlər ayrı-ayrı fərdlər kimidir. Mərd, dostcanlıları da var, xəbis, qonşuları ilə dava-dalaş salmağa meyilli olanları da...Azərbaycan xalqının birincilərdən olduğu heç kimdə şübhə doğurmur. Sizcə, bu, nədən qaynaqlanır?***

– Mən bu barədə tez-tez düşünürəm. Bu qənaətdəyəm ki, ölkəmizdə yüksək tolerantlıq ənənələrinin yaranması təsadüfi deyil. Bununla bağlı xeyli kitab oxuyub, məlumatlar toplamışam.

Mənə elə gəlir ki, o xalqlar və toplumlar güclüdür ki, onların mədəni dəyərlər sistemi digər xalqlar üçün maraqlı, cəlbedici ola bilir. Azərbaycan böyük bir sivilizasiyanın daşıyıcısıdır. Təsadüfi deyil ki, geniş bir coğrafi məkanda "yumşaq güc" kimi formalaşıb.



Bu gün bütün dünyada Azərbaycan xalqı sivil, multikultural dəyərlər ölkəsi kimi də tanınır. Bizdə ayrı-ayrı dillərə, dini inanclara, adət-ənənələrə malik olan xalqların birgə yaşayış modeli formalaşıb.

***– Bildiyimə görə, Bakıda, beynəlmiləl bir mühitdə tərbiyə alaraq böyümüsünüz. O illər sizin taleyinizə və xarakterinizə necə təsir göstərib?***



– Mən köklü bakılıyam. Əslən Qubadanam, lakin Bakıda, yəhudi ailəsində doğulub boya-başa çatmışam. Azərbaycan Tibb İnstitutunun müalicə fakültəsində təhsil almışam. Uzun illər xalqımızın sağlamlığının keşiyində durmuşam. Bunu xüsusi vurğu ilə, fəxrlə deyirəm.

Həkimlik sənəti dünyagörüşümə çox təsir göstərib. İnsanları yaxından tanımışam, sevmişəm. Hər yerdə çoxlu dostlarım var. Geriyə boylananda düşünürəm, nə yaxşı ki, mən məhz bu gözəl şəhərdə anadan olmuşam. Bakı hər zaman əsl dostluq və qardaşlıq şəhəri olub. Bakılılar düzlüyü, halallığı sevirlər.

Həqiqətən, dostluq böyük nemətdir. Xoşbəxtlikdən, azərbaycanlılar dostluğa sədaqətli insanlardır. Yəhudilər də belədir. Bu iki qədim xalq hər zaman bir-birinə qarşı güvənli, etibarlı olub. Əminəm ki, gələcəkdə də belə olacaq!

Dünyanın heç bir yerində yəhudilər özlərini Azərbaycanda olduğu qədər rahat və təhlükəsiz hiss etməyiblər. Yəhudilər bunu unutmur və məqam düşəndə hər yerdə dilə gətirirlər. Qədirbilənlik bizim xalqlarımıza xas olan məziyyətdir.

***–Sizin ölkə parlamentinə deputat seçildiyiniz ərazidə də ayrı-ayrı xalqların nümayəndələri çoxdur. Bunun müsbət və mənfi cəhətləri nədir?***

–Dərhal deyim ki, bunun heç bir mənfi cəhəti yoxdur, əksinə, yalnız müsbət tərəfləri var. Müxtəlif xalqların nümayəndələri ilə dostluq, ünsiyyət insana mənəvi qida verir, zənginləşdirir. Fərdiyyətçilik, eqoizm heç kəsə fayda verməyib. Azərbaycanın hər yerində olduğu kimi, şimal zonasının insanları da işgüzar və etibarlıdırlar.

Mən 2010-cu ilin fevralında 53 saylı Quba–Qusar seçki dairəsindən Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmişəm. Öz vəzifə borcumu yerinə yetirərək bu bölgəyə tez-tez baş çəkir, seçicilərlə görüşür, qayğı və problemləri ilə maraqlanıram. Gücüm, imkanlarım nəyə çatırsa, insanlara, xüsusilə, şəhid ailələrinə və çətinliyə düşən ailələrə kömək etməyə çalışıram.

Seçicilərlə görüşlər zamanı bəzən ilk baxışda qəribə görünən hallar da baş verir. Qəbula yazılanlar arasında elələri olur ki, məndən bir həkim kimi məsləhət almaq istəyirlər. Bu yerdə həkimliyim karıma gəlir (gülür). Əlbəttə, elə oradaca tövsiyələrimi verirəm. Lazım gələndə Bakıdakı həmkarlarımın ünvanlarını verir, onlara telefon açır, seçicilərimə diqqətli olmalarını xahiş edirəm.

Ölkəmizin şimal bölgəsində xeyli ləzgi, yəhudi, rus və digər xalqlar yaşayır. Burada məskunlaşan milli azlıq və etnosların ailələri bu gözəl yurdu haqlı olaraq özlərinin vətənləri hesab edirlər. Onlar qəlbən bu gözəl, bərəkətli torpağa bağlıdırlar. Bunu görmək, müşahidə etmək mənə son dərəcə xoşdur. Bəli, biz birlikdə güclüyük.

***–Qubadan Qusara gedən yolda, Qudyalçayın üzərində qədim bir yaşayış məntəqəsi var…***

–Bəli, ora yəhudilərin kompakt yaşadığı "Qırmızı qəsəbə"dir. Orada əsrlər boyu yəhudi ailələri yaşayıblar. Onlara burada heç kim heç vaxt əyri gözlə, xor baxmayıb.

Bu gün "Qırmızı qəsəbə"də yəhudi məktəbi, sinaqoq fəaliyyət göstərir. Yəhudilərin burada mədəniyyət mərkəzi var. Qəsəbənin yolları abad və rahatdır, meydan və parkları səliqə-sahmanlıdır.

Son onillər ərzində qəsəbə sakinlərinin bir qismi dünyanın bir çox böyük şəhərlərində biznes fəaliyyəti ilə məşğuldur. Amma doğma ata ocağını unutmur, ildə, azı, bir dəfə buraya baş çəkməyi özlərinə borc bilirlər.

***–Sizcə, Azərbaycanın tam əksinə olaraq, Ermənistanda niyə yəhudiləri gözümçıxdıya salıblar?***

–Bunun səbəbi bəllidir. Ermənistan millətçilik azarına mübtəla olan monoetnik dövlətdir. Burada başqa xalqları və etnosları ya qovurlar, ya da sıxışdırıb çıxarırlar. Orada antisemitizm, faşizm və millətçilik çox yayılıb.

2023-cü ilin oktyabr ayında ASALA-nın gənclər qanadı Ermənistanın paytaxtında mövcud olan yeganə sinaqoqa hücum təşkil etmişdi. Məbədin binası üzərinə benzin töküb, şüşələrini sındırmışdılar. Bir ay sonra isə erməni şovinistləri sinaqoqu büsbütün yandırdılar.

Mən Qarabağda, işğaldan azad edilmiş torpaqlara səfərim zamanı ağlasığmaz erməni vandallığının şahidi olmuşam. İşğalçılar orada nəinki kənd və şəhərləri, hətta meşələri, flora və faunanı od vurub yandırmışdılar. Bu, canlı aləmə qarşı əsl soyqırımıdır.

***–Siz xarici ölkələrə tez-tez səfər edirsiniz. Bugünkü Azərbaycan barədə orada hansı rəy formalaşıb?***

–Bu sualınız ürəyimdən oldu. Azərbaycan Qərbdə güclü, xarizmatik lideri olan, torpaqlarını cəsarətlə azad edən, sivil, multikultural dəyərlərə sahib bir dövlət olaraq tanınır. Azad və özgüvənli dövlətin vətəndaşı olmaq çox qürurludur!

Bu gün planetimiz çox qarışıb. Dünyanın çox yerində qanlı döyüşlər nəinki səngimir, əksinə, güclənir. Azərbaycan xalqının bəxti onda gətirib ki, onun Yer kürəsinin belə bir qarışıq dönəmində Prezident İlham Əliyev kimi müdrik və qətiyyətli lideri var.

***–Qısa da olsa, ABŞ-a son səfəriniz barədə məlumat verməyinizi xahiş edirəm.***

– 2023-cü ilin sonunda ABŞ-a səfər etmişdim. Səfər çərçivəsində Ağ evdə ABŞ Prezidentinin İcra Ofisi (Milli Təhlükəsizlik Şurası, Daxili Siyasət Şurası) və bu ölkənin Antisemitizmə nəzarət və onunla mübarizə üzrə xüsusi elçisi, səfir Deborah Lipstadt ilə görüş keçirildi.

Görüş zamanı əsas etibarilə dünyada antisemitizmlə mübarizə barədə müzakirələr aparıldı. Mən çıxış edərək Azərbaycandakı yəhudilərin tarixi və cari vəziyyəti barədə məlumat verdim. Heç bir antisemitizm halına rast gəlinməyən ölkəmizi nümunə göstərdim. Eyni zamanda, erməni vandalizmi barədə söz açdım.

***– Azərbaycanda milli-etnik zəmində nifaq toxumları səpmək niyyətində olan qüvvələr mövcuddur. Onların bəd əməllərinin qarşısını almaq üçün nə etmək lazımdır?***

– Regionda sülh danışıqlarının aparılmasını istəməyən güclər var. Onlar bunun üçün dini-etnik zəmində də təxribatlar törətməyə meyillidirlər. Lakin bu cəhdlər əbəsdir. Azərbaycanda yaşayan xalqlar heç vaxt ölkəmizin düşmənlərinin məkr və hiylələrinə uymazlar.

Bir daha qeyd etməyi özümə borc bilirəm ki, Azərbaycan bu ölkədə yaşayan bütün xalqların ana Vətənidir. Biz bu gözəl yurdun daha da güclü və qüdrətli olması üçün hər birimiz bundan sonra da əlimizdən gələni etməliyik.

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

# Aprel döyüşlərindən Şuşa Zəfərinə

## *Haqq savaşımızın igid zabiti*

**Rəsul Rasim oğlu İbrahimli tarixi Aprel döyüşlərində iştirak edən və II Qarabağ müharibəsində şanlı zəfərin qazanılmasında rolu olan Vətən oğullarımızdandır.**



Rəsul 1992-ci ildə Yardımlı rayonunun Ərsilə kəndində dünyaya göz açıb. Gavran kənd tam orta məktəbini bitirib. 2010–2014-cü illərdə Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsində təhsil alıb. Sonra ordu sıralarına çağrılıb. Hərbi xidməti zamanı Aprel döyüşlərində yaxından iştirak edən gənc zabit ilk dəfə o vaxt ölüm-dirin savaşının nə olduğunu görüb, bilib. Ona qədər yalnız müharibə mövzulu kinolarda gördüyü səhnələr 4 gün ərzində gözünün qarşısında canlı şəkildə baş verib.

İndi bu barədə söz düşəndə deyir ki, Qarabağ münaqişəsinin dönüş nöqtəsi olan və erməni ordusunun məğlubedilməzliyi barədə mifi dağıdan Aprel döyüşləri onun da böyük qələbəyə inamını artırıb. "Məhv olduqlarını görüb vay-şivən qoparan ermənilərin beynəlxalq təşkilatlara yalvarışından sonra ordumuz hərbi əməliyyatları dayandırdı ki, mənfur düşmən işğalçılıq siyasətindən əl çəksin. Amma bu, onlara dərs olmadı və 4 il sonra 44 günlük Zəfər yürüşü ilə Vətən müharibəsində həlledici qələbə qazandıq. Xoşbəxtəm ki, həm 2016-cı ildə, həm də 2020-ci ildə gənc zabit kimi həmin döyüşlərdə iştirak etmişəm".



Aprel döyüşlərində Lələtəpənin və Talış kəndi ətrafındakı strateji yüksəkliklərin alınması, Cocuq Mərcanlının tam nəzarətimizə keçməsi, "Ohanyan səddi"nin darmadağın edilməsi, Gülüstan, Qazaxlar, Seysulan kəndlərinin, Suqovuşan istiqamətində yolların azad olunması gənc Rəsulu hədsiz dərəcədə sevindirib. Rəşadətləri dastana dönən Milli Qəhrəmanlar Şükür Həmidovun, Samid İmanovun, Murad Mirzəyevin və digər hərbçilərimizin Vətən naminə fədakarlıqları onu daha da ruhlandırıb.

Hərbi xidmətdən sonra Rəsul İbrahimli Yardımlıda kənd məktəbində ilk müəllimlik fəaliyyətinə başlayıb. 2019-cu ildən isə Bakıdakı 255 nömrəli tam orta məktəbdə çalışıb. Vətən müharibəsi başlanan kimi isə könüllü olaraq, özü də bu dəfə daha böyük qətiyyətlə, qələbə sorağı ilə cəbhə bölgəsinə yollanıb. Füzuli, Qubadlı və Şuşa istiqamətlərinə gedən döyüşlərdə əsgərləri ilə çiyin-çiyinə vuruşub. Davanın sonuncu günündə yaralanıb. Vətən müharibəsindəki şücaətinə görə o, "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Vətən müharibəsindən qayıtdıqdan sonra müraciəti əsasında iş yeri Abşeron rayonu Masazır kənd 5 nömrəli tam orta məktəbə dəyişdirilib. 2017-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən məktəbin açılışında Prezident İlham Əliyev iştirak edib. Bu məktəbdə vətənpərvərlik ənənələri layiqincə yaşadılır. Təhsil ocağı Birinci Qarabağ müharibəsi şəhidi Bəxtiyar Cəfərovun adını daşıyır. Məktəbin riyaziyyat müəllimi Qoşqar Ömərov II Qarabağ müharibəsində Daşaltıda şəhidlik zirvəsinə ucalıb, qəhrəman kimi böyük ehtiramla anılır. Dörd medallı qazi Rəsul müəllim isə torpaqlarımızın azadlığı uğrunda gedən şiddətli döyüşlərdə zabit kimi iştirak edib. Noyabrın 9-dan 10-na keçən gecə Şuşada 2 əsgəri şəhid olub, özü isə qolundan yaralanıb. Müharibə zamanı şagirdlərindən aldığı mesajlar onu qələbəyə daha da ruhlandırıb.

Noyabrın 5-də Şuşa ətrafında idik, – deyə xatırlayır. – Telefonuma zəng gəldi, 6-cı sinif şagirdlərimdən biri idi. Telefonda mənə qələbə arzuladı, bir misalın həlini soruşdu, sonra da ağladı. Yadda qaldığım üçün xeyli fərəhləndim. İndi o şagird 9-cu sinifdə oxuyur. Qalib ölkənin vətəndaşı kimi qürur hissi keçirir.

Məktəbdə bütün şagirdlər Rəsul müəllimin simasında silaha sarılmış pedaqoqlarla fəxr edirlər.

Aprel döyüşləri və II Qarabağ müharibəsində iştirak etməsini həyatının ən şərəfli dövrü kimi səciyyələndirən gənc müəllim Vətənin bütövlüyü, azadlığı uğrunda aparılan haqq savaşında qazandığımız zəfərdən hər zaman yetirmələrinə fəxrlə danışır.

***Ə.DOSTƏLİ***
***XQ***

Günün müzakirəsi

# Psixi xidmətlər ixtisaslı və əlçatan olmalıdır

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının təşkilatçılığı ilə "Azərbaycanda psixi sağlamlıq məsələləri və psixi pozuntulardan əziyyət çəkən şəxslərin hüquqları" mövzusuna həsr olunmuş dəyirmi masa keçirilib.**



Məclisdə səhiyyə naziri Teymur Musayev, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və Ailə, Qadın və Uşaq Məsələləri komitəsinin sədri Hicran Hüseynova, Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəsi Hande Harmancı, Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Ombudsman Aparatının əməkdaşları, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, psixiatr və ekspertlər iştirak ediblər.

**Ombudsman Səbinə Əliyeva** əhalinin sağlamlığının qorunması hüququnun müdafiəsi sahəsində qurumun fəaliyyəti barədə məlumat verib, bu istiqamətdə problemlərin araşdırılması və həll olunması üçün müvafiq tədbirlərin görüldüyünü bildirib. Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində psixiatriya müəssisələrində həyata keçirilən monitorinqlərdən danışan natiq belə aksiyaların mövcud problemlərlə əyani şəkildə tanış olmaq və preventiv tədbirlər görmək baxımından mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Ombudsman bəzi psixiatriya xəstəxanalarında, xüsusilə regionlardakı müəssisələrdə olan bir sıra nöqsanların aradan qaldırılması ilə bağlı müvafiq təklif və tövsiyələrlə aidiyyəti qurumlara müraciət olunduğunu qeyd edib.

İkinci Qarabağ müharibəsinin iştirakçılarının postmüharibə dövründə psixiatrik yardımla təmin olunmasının önəmi ilə bağlı qeyd edilib ki, bu məsələ diqqət mərkəzindədir, təsisatın təşəbbüsü ilə bir qrup müharibə iştirakçısı müvafiq yardımla təmin edilib. Psixi sağlamlığın qorunması istiqamətində ölkəmizdə davamlı tədbirlər həyata keçirilir. Vətəndaşların hüquqlarının qorunması baxımından müvafiq dövlət orqanlarının həyata keçirdiyi tədbirlər, proqram və layihələr Ombudsman təsisatı tərəfindən izlənilir və təhlil olunur. Psixi sağlamlıq məsələlərinə cavabdeh olan qurumlar arasında bu sahədə əlaqəli əməkdaşlıq daha da gücləndirilir.

**Səhiyyə naziri Teymur Musayev** respublikada psixiatrik xidmətin yaxşılaşdırılması məqsədilə bir sıra tədbirlərin həyata keçirildiyini bildirib. Nazir psixiatriya ixtisası üzrə rezidentura təhsilinin müddətinin 2 ildən 3 ilə artırıldığını, rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların təsnifatına yeni uşaq və yeniyetmə psixiatriyası ixtisasının da əlavə edildiyini vurğulayıb.

Qeyd edilib ki, nazirlikdə "Müharibə əlilləri, yaralıları və şəhid ailələri ilə iş" sektoru və "9109 – Çağrı Mərkəzi" yaradılıb. Tibbi xidmətin əlçatanlığının və keyfiyyətinin artırılmasını təmin etmək üçün məqsədyönlü addımlar atılır. Bu sahədə illərlə formalaşmış stiqmanın aradan götürülməsi məqsədilə ambulator və stasionar psixiatriya xidməti artıq dövlət tibb müəssisələri ilə yanaşı, özəl tibb müəssisələrində də göstərilir. Həmin müəssisələr həm Bakı şəhərində, həm də regionlarda yerləşir.

Ombudsman Aparatının əməkdaşlarının psixiatriya müəssisələrinə mütəmadi baxışlar keçirdiyini, pasiyentlərin hüquqlarının təminatı vəziyyəti, saxlanma şəraiti və digər məsələlərin yerində araşdırıldığını vurğulayan nazir deyib ki, bu qurumla əməkdaşlıq yüksək qiymətləndirilir. İcrası az vaxtda mümkün olan tövsiyələr dərhal yerinə yetirilir. Psixi sağlamlıq üzrə Milli Strategiyanın hazırlanması, psixiatriya xəstəxanalarında müalicə olunan pasiyentlər üçün Müalicə İstehsalat Əmək Emalatxanalarının yaradılması, psixo-sosial reabilitasiya mərkəzlərinin açılması, psixi sağlamlıq sahəsində elmi tədqiqatların aparılması nəzərdə tutulur.

**Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov** son vaxtlarda psixoloji yardım həyata keçirilən özəl müəssisələrdə çalışan şəxslərin əksəriyyətinin bu sahə üzrə təhsili olmadığını bildirib, bu sahəyə ciddi nəzarətin əhəmiyyətini və vacibliyini vurğulayıb. O, ölkəmizdə həkimlərin və pasiyentlərin hüquqlarını qoruyacaq yeni qanun layihəsinin hazırlandığını da diqqətə çatdırıb.

**Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri komitəsinin sədri Hicran Hüseynova** müasir dövrdə uşaqların virtual məkanda daha çox vaxt keçirmələrinin onların psixologiyasına ciddi təsir göstərdiyini qeyd edib. Komitə sədri əhali arasında sağlam həyat tərzinin təbliğinin, eyni zamanda, valideyn məsuliyyətinin artırılması ilə bağlı işin aparılmasının vacibliyini diqqətə çatdırıb.

**Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəsi Hande Harmancı** psixi xidmətlərə əlçatanlığın təmininin ölkəmiz üçün ən əhəmiyyətli məsələlərdən biri olduğunu, psixi sağlamlıq mövzusunda maarifləndirmə tədbirlərinin həyata keçirilməsinin zəruriliyini vurğulayıb.

**Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli** isə dövlət tibb müəssisələrində çalışan psixiatrların sayı ilə bağlı mövcud problemlərdən, kadr çatışmazlığından danışıb.

Digər çıxış edənlər tibbi xidmətə əlçatanlığın yüksəldilməsi üzrə işlərin görülməsi, ölkədə psixi sağlamlığın təmini sahəsindəki mövcud problemlərin həlli istiqamətində təklif və tövsiyələrini bildiriblər.

Sonda mövzu üzrə müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Azərbaycanı xaricdə tanıdanlar

# "Qarabağ"ın Dumanlı Albiondan yüksələn musiqisi

**Onların adına ilk dəfə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin illik hesabatında rast gəldik. Xocalı soyqırımı ilə bağlı tədbirlər sırasında Londonda yaşayan soydaşlarımızın faciə qurbanlarının xatirəsinə "Chiquilin de Bachin" əsərinin videoklipini təqdim etdikləri bildirilir və qeyd olunurdu ki, əsəri Səadət Fərziyeva (piano), Rasim Fərziyev (kamança) və Tereza Mostallino (kamança) ifa ediblər.**



Maraqlanıb öyrəndik ki, hazırda London sakinləri olan Səadət və Rasim Fərziyevlər Sumqayıtda doğulub böyümüş cütlükdür. Onlar ilk olaraq gənclik şəhərindəki musiqi məktəblərini bitiriblər. Səadət xanım fortepiano, Rasim bəy isə kamança (eyni zamanda skripka) alətlərində ifa etməyi dərindən öyrəniblər. Tədricən sevgi dolu ifaları ilə ətrafa səs salıblar.

Səadət xanım bir müddət Sumqayıtdakı Bülbül adına 2 nömrəli İncəsənət Məktəbində pedaqoq, şöbə müdiri olub. Yetirmələri dövlət tədbirlərində və konsertlərdə uğurla çıxış ediblər. Rasim bəy də Azərbaycan musiqilərini, xarici bəstəkarların əsərlərini iki alətdə ifa edərək konsertlərdə, hətta xarici publikanın qarşısında layiqincə təqdim edib.

Səadət Fərziyeva özünü bəstəkarlıq sahəsində də sınayıb. Qoşduğu mahnıları ilk olaraq anasına oxuyub. Bu həvəsi qetdikcə artıb və musiqiçi öz mahnılarına mətnlər də yazmağa başlayıb. Dərs dediyi bağçada, musiqi məktəbində bunları balacalara həvəslə öyrədib. Mahnılarında vətən, ana, nənə-babaya sevgi və s. mövzular yer alıb. Müsabiqələrdə uğurlar qazanıb. Onun bəstəkarlıq yaradıcılığında uşaq mahnıları, fortepiano üçün pyeslər xüsusi yer tutur. Xalq artisti, bəstəkar Oqtay Zülfüqarov, Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə və başqaları Səadətin istedadını yüksək dəyərləndiriblər.

**Səadət xanım dedikləri:** "Daim musiqi sədaları ilə nəfəs almışam. Evdə Azərbaycan xalq, bəstəkar mahnılarını eşidib sevə-sevə dinləmişəm. Anam bağça müdiri olsa da, musiqi vurğunu idi və bu, mənə də sirayət edib. Anamın həzin səslə oxuduğu nəğmələrin, danışdığı nağılların təsiridir ki, uşaq mahnılarına ruhən daha yaxınam".

Düz 26 il əvvəl Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasını (BMA) bitirən musiqiçi orada "Azərbaycanın Cənub bölgəsinin "Halay" rəqs mahnıları" mövzusunda dissertasiya müdafiə edərək sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. Rasimlə birlikdə Cənuba ekspedisiyasından sonra çap etdirdiyi "Halay kitabı"nda 70-ə yaxın əmək, toy və mərasim, sevgi və əzizləmə, beşik mahnıları və ağıları nota alıb. Səadət xanım 2011-ci ildən BMA-da böyük elmi işçi, daha sonra dosent kimi çalışıb, hazırda doktoranturada dəyərli mövzuda araşdırma işi aparır. Azərbaycan xalq mahnılarının səs və fortepiano üçün işlənməsi və Cənub bölgəsinə aid mahnıların sözlərinin ingilis dilinə tərcüməsi, sonradan kitabın İngiltərədə çap olunması da onun böyük uğurlarındandır.

"Uşaq mahnıları-2013" müsabiqəsinin qalibi olması Səadət Fərziyevanın qarşısında yeni üfüqlər açıb. Həmin müsabiqədən sonra onun "Xoş gəlmisən, Novruzum", "Dostluq himni", "Qaranquş" və s. mahnıları geniş yayılmağa başlayıb və uşaq xor kollektivlərinin repertuarına salınıb, bu günə qədər də bağçalarda, məktəblərdə həvəslə ifa olunur.

Fərziyevlər 2016-cı ildən Londonda yaşayıb-yaradırlar. İlk gündən orada bir çox uşaq tədbirlərində çıxış edərək özlərini peşəkar musiqiçi, yüksək səviyyəli müəllim kimi tanıdıblar. Hər çıxışdan sonra "Haradansınız?" sualına cavab olaraq "Azərbaycandanıq" deməkdən qürur duyurlar. Skripka, kamança, fortepiano, musiqi nəzəriyyəsi, vokal dərsləri təqdim edən bu cütlük şagirdlərini özlərinin maraqlı metodu ilə öyrədir və bu, onların imtahanlarda əla nəticələr əldə etməsinə səbəb olur. Müəllimlər bu uğurlara şagirdlərdən və valideynlərdən az sevinmirlər.

Prezident İlham Əliyevin Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında səsləndirdiyi tövsiyələrdən sonra dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən həftəsonu Azərbaycan məktəblərinin sayı artıb. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü, Diaspora iş üzrə Dövlət Komitəsinin, diaspor fəaliyyəti ilə tanınan Britaniya Azərbaycanlıları Cəmiyyətinin rəhbəri Fəridə Pənahovanın təşkilatçılığı ilə Londonda "Qarabağ" məktəbinin yaradılması orada yaşayan azərbaycanlıları çox sevindirib. Məktəbdə Azərbaycan dili, tarixi, rəsm dərsləri ilə yanaşı, musiqi və xor dərsləri də öyrədilir.



"Qarabağ"ın musiqi rəhbərləri Səadət və Rasim Fərziyevlərdir. Amalları balaca soydaşlarımıza ana vətənlərini tanıtmaq, dillərini inkişaf etdirmək və milli varlıqlarını unutmağa qoymamaqdır. Məktəbdə oxuyan uşaqların arasında, təbii ki, valideynlərindən biri xarici millətdən olanlar da var. Sevindirici hal həmin valideynlərin də Azərbaycan mədəniyyətinə, dilinə maraqlarının artmasıdır. Səadət Fərziyeva özünün yaratdığı "Muzlogopedika" proqramı ilə millətindən asılı olmayaraq, ingilis dilli uşaqların azərbaycanca sözləri düzgün söyləməsinə yardım edir. Beləcə, balacalar dilimizi şeir və mahnılarla öyrənə bilirlər.

Çoxmillətli kollektivdə işləmək və uşaqlara dərs demək elə də asan deyil. Rasim Fərziyev isə skripka ilə yanaşı, Azərbaycanın milli aləti olan kamançanı valideyn və tələbələrinə böyük məhəbbətlə təqdim edib sevdirir. Baxdığımız videolentlərdən də gördük ki, xalq mahnılarımızın, rəqslərimizin, mahnıdan mahnıya keçidlərdə muğam hissələrinin ifası valideynlərdə, uşaqlarda da valeh edir, onların bu alətlə yaxından tanış olmasına səbəb olur ki, bu da öz növbəsində Azərbaycan mədəniyyətini dünyaya tanıtmaq fürsətidir.

Fərziyevlər Böyük Britaniyada yurdumuzun təbliği üçün əllərindən gələni əsirgəmirlər. Zəfər, Novruz bayramı, Xocalı və s. mövzularla bağlı olan tədbirlərin çoxluğu onların əsl vətənpərvərliyinin göstəricisidir. Səadət xanım Azərbaycanın tanınmış bəstəkarlarının mahnıları ilə yanaşı, öz əsərlərini də uşaqlara öyrədir. Odur ki, hər kəs məktəbə canı-könüldən bağlıdır. Uşaqlar mahnıları sevərək öyrənir, valideynlərə ev tapşırıqlarını yaxşı yerinə yetirmək üçün onlara sonsuz həvəslə kömək edirlər. Artıq məktəbin bir cox tələbəsi solo ifaçısı kimi yetişərək, konsertlərdə gözəl, canlı performansını təqdim etməyə başlayıb.

**Britaniya Azərbaycanlıları Cəmiyyətinin rəhbəri Fəridə Pənahovanın dediyinə görə,** Rasim müəllimin Londondakı yetirmələri arasında fiziki əngəlli – görmə qabiliyyəti olmayan bir uşaq da var. İngilis müəllimlər onu öyrətməyə həvəssiz olublar. Rasim müəllim isə uşaqdan himayəsini əsirgəməyib və o da yaşına görə mahir kamança ifaçısı kimi, çox ciddi imtahan qurumlarının sınağından bacarıqla keçib. Bu, pedaqoq soydaşımızın ictimai nüfuzunu daha da artırıb.

**Söhbət zamanı Rasim Fərziyev belə bir vətənpərvərlik şüarını dilə gətirdi:** "Bizim silahımız milli mədəniyyətimizdir! Ona görə də mədəniyyətimizi dünyaya tanıtmaq hər bir Azərbaycan vətəndaşının, xüsusilə də xaricdə yaşayan soydaşlarımızın ülvi borcudur!"

"Qarabaq" məktəbi şagirdlərinin illik yekun konsertində və "Heydər Əliyev – 100" tədbirində Azərbaycanın Birləşmiş Krallıqdakı səfirliyinin, yerli ictimaiyyətin, soydaşlarımızın və ölkəmizə dost xalqların icma nümayəndələrinin qarşısında çıxışı xüsusilə xoş təəssürat yaradıb. "Qarabağ"lılar Xalq artisti Gülyanaq Məmmədova ilə rəngarəng proqram təqdim ediblər. Tədbirin musiqi təşkilatçısı Rasim Fərziyev olub. Gecədə ingilis və Azərbaycan dillərində canlı ifalarda səslənən "Dostluq himni" və vətənpətvərlik mahnıları bütün qonaqlara xoş təsir bağışlayıb. Uşaqların dili ilə müharibələrə yox deyilməsi, bütün dünyada yaşayan insanların sülhə çağrılması sürəkli alqışlara səbəb olub.

Həmsöhbətlərim peşəkar musiqiçi kimi yetişmələrinə, Londanda nüfuzlu xarici auditoriyada yüksələrək hörmət qazanmalarına görə Vətənə borclu olduqlarını dönə-dönə vurğuladılar. Dedilər ki, azərbaycanlı olmaları ilə fəxr edirlər və Vətənimizin, xalqımızın adını hər zaman ucaltmaq üçün bindan sonra da əllərindən gələni əsirgəməyəklər.

***Əli NƏCƏFXANLI***
***XQ***

El sənətləri

**Qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı son illərdə ölkəmizdə görülən işlər bəhrəsini verir. İllərdir ki, Horadiz, Şəmkir, Quba, Xaçmaz və İsmayıllıdakı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin müəssisələri fəaliyyət göstərir. 2018-ci ilin oktyabrında isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran filialının açılışında iştirak ediblər. O vaxtdan "Lənkəran" imzalı "xalça-məktublar" dünyanı dolaşmağa başlayıb.**

# Cənub xalçaları dünyanı gəzir



Artıq burada toxunan xalçalar Amerika və İsveçrəyə, digər ölkələrə ixrac olunur, keyfiyyətinə və yaraşığına görə sifarişçilər tərəfindən sevilir. Filial fəaliyyət göstərdiyi gündən xalçaçılar burada 1044 xalça toxuyublar. Onlara dünya bazarında böyük maraq və tələbat var.

"Azərxalça" ASC-nin Lənkəran filialına Nargilə Qənbərova rəhbərlik edir. Prezidentin qarşısında çıxışı zamanı Nargilə xanım deyib ki, burada 116 toxucu işləyir, 15 şagirdimiz var. "Demək olar ki, nəqliyyata qədər bütün şəraitlə təmin olunmuşuq. Belə bir gözəl müəssisə xalçaçı xanımların ixtiyarına verilib. Buna görə çox sağ olun. Mən "Azərxalça"nın işçisi olaraq 40 ilə yaxındır ki, bu sənətdə çalışıram. Amma biz heç vaxt bu cür şərait, belə gözəl bina görməmişdik. Bizim xəyallarımızı gerçəkləşdirdiniz, ağlımıza gəlməyəni bizim üçün həyata keçirdiniz. Çox sağ olun".



Bizimlə söhbətində isə Nargilə xanım bildirdi ki, filialın xalçaları həmişə yaxşı satılır.

– Son vaxtlar dünya bazarında modern üslubda zərif ipək xalçalara üstünlük verirlər. Biz də bunu nəzərə alıb, 6 aydır ki, işə ipək xalçalar toxuyuruq. Yüksək keyfiyyətli xalçalar üçün xammal xarici bazarlardan gətirilir. Məhsulun çeşnilərinə gəldikdə isə filialda peşəkar, təcrübəli, öz işini kamil bilən toxucular çalışır. Onların toxuduğu müxtəlif çeşidlərdə xalçalar alıcı zövqlərinə uyğun gəlir, xarici bazarın tələbatına cavab verir. Onu da deyim ki, peşəkarlıq, keyfiyyət həm də toxunan xalçaların ilmə sayına görə müəyyən edilir. Əgər əvvəllər toxucularımız əməkhaqqını 1 kvadratmetrə görə alırdılarsa, indi bu, ilməyə görə hesablanır. Xalçaçı var ki, gündə 10 min ilmə toxuyur.

Söhbətimizə toxucu Sevinc Fərziyeva da qoşulur: – Xalçaçılıq çox incə sənətdir. Məhz buna görə də qadınlar bu işi daha gözəl görürlər. Sənətə gələn gərək Azərbaycanın mədəniyyətini də bilsin. Hazırda ipək sapdan xalça toxuyuruq. Adama maraqlı gəlir. Qaldı ki, çox vaxt və diqqət tələb edir. Ölçüsü bir kvadratmetr olan ipək xalça 2 nəfər tərəfindən 3 aya toxunur.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Arxeoloji laboratoriya – qədim tariximizə pəncərə

**AMEA Arxeologiya və Antropologiya İnstitutu Eksperimental arxeoloji laboratoriyanın rəhbəri Əjdər Babazadə Azərbaycan Elm Fondunun ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Əsas qrant müsabiqəsi-2023"ün qalibi olmuş "Qarabağın daş dövrünə aid alət sənayesinin texno-tipologiyasının traseoloji ve eksperimental analizləri" adlı layihəsi çərçivəsində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində elmi ezamiyyətdə olub.**



Layihənin rəhbəri Əjdər Babazadə bir neçə Avropa ölkəsi ilə bərabər traseoloji və eksperimental arxeoloji tədqiqatların ilk olaraq ortaya çıxdığı Rusiya Elmlər Akademiyasının Sankt-Peperburq şəhərində yerləşən Maddi-Mədəniyyət Tarixi İnsititutundakı Eksperimental-traseoloji laboratoriyada praktik və teorik təcrübə aparıb. Təcrübə proqramına sözügedən laboratoriyanın əməkdaşı N.Skakun rəhbərlik edib.

Təcrübə-təlim prosesi qədim əmək alətlərinin tipoloji, texnoloji və traseoloji xüsusiyyətinin və morfologiyasının tədqiqinə yönəlib. Paleo-ekonomiya və paleo-ekosistemi anlamaq üçün, əcdad Homininlərin prehistorik alət çantasındakı texno-tipoloji müxtəlifliyə və fərqliliyə əyani olaraq nəzər yetirilib.

Ezamiyyət, proqrama uyğun olaraq institutun zəngin Paleolit materialları ilə tanışlıqla başlanılıb. Daha sonra alət industriyasının texnologiyasının öyrənilməsi üçün mikroskopik analizləri və eksperimental tətbiqləri həyata keçirmək məqsədilə araşdırmalar aparılıb.

Layihə tədqiqatlarının əsas hədəfi paleolit ekonomiyasının öyrənilməsinə yönəldiyindən təcrübə proqramında eksperimental tətbiqlərə və arxeoloji materialların traseoloji analizlərinə üstünlük verilib. Arxeoloji və eksperimental materiallar üzərində mikro analizlər–traseoloji araşdırmalar üçün mikroskoplardan istifadə edilib. Bundan başqa, eksperimental tədqiqatların laboratoriya şəraitində tətbiqi metodu həyata keçirilib.

Ezamiyyət müddətində Əjdər Babazadə Rusiya Elmlər Akademiyasının Maddi-Mədəniyyət Tarixi İnstitutunun rəhbəri professor Andrey Polyakovla da görüşüb, elmi tədqiqat işlərinin perspektivlərini müzakirə edib. AMEA Arxeologiya və Antropologiya İnstitutunda son illər nəşr olunan kitablar professor Andrey Polyakova hədiyyə olunub.

***Qabil YUSİFOĞLU***
***XQ***

# 44 günün 444 cəngavərinin çağdaş dastanı

**Dünən Azərbaycan MEA-nın Mərkəzi Elmi Kitabxanasının "Akademik" zalında Zəfər ab-havası duyuldu, vətənpərvərlik, qürur və şərəf hissləri yaşandı...**




Azərbaycanın ilk qadın hərbi müxbiri, Əməkdar jurnalist Əntiqə Qonağın "44 günlük savaşın 444 cəngavəri" üçcildliyinin təqdimat mərasiminə millət vəkilləri, alimlər, şəhid və qazi ailələrinin üzvləri, müharibə veteranları, eləcə də müəllifin həmkarları olan media nümayəndələri toplaşmışdı.

Tədbirə moderatorluq edən tanınmış jurnalist və ictimai fəal Azər Həsrət çıxışında Əntiqə Qonağın İkinci Qarabağ müharibəsinin qəhrəmanlarından bəhs edən "44 günlük savaşın 444 cəngavəri" üçcildliyini nadir toplu adlandıraraq, bu nəşrin gələcək nəsillər üçün çağdaş tariximizin salnaməsi olacağına əminliyini bildirdi. Azərbaycan MEA-nın Mərkəzi Elmi Kitabxanasının direktorunun müavini Şəhla Tahirqızı üçcildliyin təqdimat mərasiminin aprel döyüşlərinin 8-ci ildönümü ilə üst-üstə düşməsinin rəmzi məna daşıdığını, bu nəşrlərin kitabxananın qızıl fondunda layiqli yer tutacağını nəzərə çatdırdı.

Milli Məclisin deputatı Vahid Əhmədov öz kitabdan ibarət qəhrəmanlıq salnaməsinin müəllifi Ə.Qonağı hərbi jurnalist, respublika prokurorluğunun sabiq əməkdaşı və yazıçı kimi yaxından tanıdığını, onun şəhidlər, qazilər, müharibə qəhrəmanları barədə çoxsaylı məqalələrin müəllifi olaraq çox gərəkli iş gördüyünü, belə əsərlərin daha çox yazılması zərurətini qeyd etdi. Millət vəkili V.Əhmədov həmçinin, bu kateqoriyadan olan ailələr üçün bir çox qanunların qəbuluna da vacib saydı.

Müəllifə Bakı Dövlət Universitetində dərs demiş dosent Sona Çərkəz tədbirdəki çıxışında müharibənin bütün ağrı–acısını şəxsən yaşamış Əntiqə Qonağın qələmə aldığı "44 günlük savaşın 444 cəngavəri" üçcildliyini gənc nəslin hərbi–vətənpərvərlik ruhunda tərbiyəsində, Vətən qəhrəmanlarının yeni nəslə tanıdılmasında müstəsna əhəmiyyətə malik olduğunu xüsusi olaraq vurğuladı.

Təqdimat mərasimində çıxış edən millət vəkili Vüqar İsgəndərov müharibə qəhrəmanları haqqında nəşrlərin daha çox xanım müəllliflər tərəfindən ərsəyə gətirilməsinin ayrıca məna kəsb etdiyinə diqqət çəkərək, milli önəm daşıyan bu əsərlərin xarici dillərə çevrilməsi, ekranlaşdırılması məsələsinə də toxundu.

Daha sonra çıxış edənlər – Qarabağ müharibəsi veteranı, mayor, Xaçmaz Rayon İcra Hakimiyyətinin nümayəndəsi Tariyel Didarov, ehtiyatda olan polkovnik Şair Ramaldanov, prokurorluq orqanlarının keçmiş əməkdaşı Zahid Vəliyev "Zəfəri qazanan xalq xoşbəxt xalqdır...", "Döyüş meydanını qalib kimi tərk edənlərin salnaməsi...", "Bu çoxcildlik ordumuzun gələcək əsgərlərinə qəhrəmanlıq dastanı, ərmağandır..." tezislərinə köklənmiş fikirlərini tədbir iştirakçıları ilə bölüşdülər.

"44 günlük savaşın 444 cəngavəri" üçcildliyinin müəllifi Əntiqə Qonaq tədbirin sonunda çıxış edərək, toplunun ərsəyə gəlməsində əməyi və dəstəyi keçən hər kəsə, eləcə də mərasimə təşrif buyuranlara minnətdarlığını bildirdi.

***İ.HƏSƏNQALA***
***XQ***

# İrəvan Moskvaya Kiyevin kölgəsindən atəş açır

(əvvəli 1-ci səhifədə)

Ermənistanın siyasi elitası tarixən ölkənin təhlükəsizlik məsələlərini ənənəvi olaraq Rusiya ilə əlaqələndirib. Odur ki, hətta 2020-ci ildən sonra belə bu istiqamətdə real diversifikasiya cəhdləri nəzərdən keçirilmirdi. Lakin Rusiyanın müqavilə əsasında İrəvanı silahla təmin edə bilməməsi, üstəlik Azərbaycanın əks-hücumlarına sərt cavab verilməməsi Ermənistanın hazırkı rəhbərliyinin nəzərində Moskvanın əsas təhlükəsizlik təminatçısı rolunu neytrallaşdırdı. Rusiya 2022-ci ildə Azərbaycanla Müttəfiq və Əməkdaşlıq haqqında Bəyannamə imzaladıqdan sonra İrəvan və Bakıya si ətrafında baş verən hadisələrlə əlaqədar Qafqaz problemləri təkcə Rusiyanın deyil, elə Qərbin də informasiya gündəliyindən bir qədər kənarda qalıb. Lakin Avrasiyanın bu bölgəsində geosiyasi transformasiyanın vacibliyini qiymətləndirməmək əsla doğru olmazdı.

Əvvəla, XXI əsrin ilk onilliyinin ortalarından başlayaraq bu regionda NATO-nun yeni postsovet dövlətlərini əhatə edəcək genişlənməsi prosesi de-fakto dondurulmuşdu. Amma alyansın baş katibi Yens Stoltenberqin Bakı, Tbilisi və İrəvana son səfəri göstərdi ki, bu, ilk baxışdan belə görünür və bu istiqamətdə hərəkət heç də dayandırılmayıb.

və Ankaranın maraqlarına birbaşa yardımı ilə izah edərək, ermənilərin milli "travmasından" fəal şəkildə istifadə edirlər. Rusiya 2020-ci ilin sentyabrında Cənubi Qafqazdakı müharibədə məğlub olmadı – sadəcə onun silahlı bölmələri tərəflərin heç biri ilə hərbi qarşıdurmaya getmədi. Lakin, səmimi etiraf edilməlidir ki, Moskvanın nüfuzu ciddi zərbə aldı. İstər Kremlin, istərsə də Ermənistanın özünün "DQR"-in tanınmaması ilə bağlı istənilən qədər formal əsaslar irəli sürə bilərsiniz. Amma kütləvi şüur üçün diplomatik siyasi dəqiqlik və formal hüquqi mülahizələr yaramır. Çoxları hesab edə bilər ki, Moskva bütün səylərini Ukraynaya və Qərblə qarşıdurmaya cəmləyərək, Qafqaz istiqamətinin prioritetini sadəcə olaraq azaldıb. "Qırmızı xətləri" bu və ya digər istiqamətə çəkmək istəyi də buradan meydana çıxır".

olan təhlükəsizlik əlaqələrinin bizim təhlükəsizlik ehtiyaclarımıza cavab vermədiyini göstərən reallıqlardır..." Hətta britaniyalı jurnalist də müsahibinin bu açıqlamasına şübhə ilə yanaşır və Ermənistanın seçim etməli olacağını vurğulayır. O haqlıdır, belə davam edərsə, həqiqətən də, yeni və köhnə təhlükəsizlik tərəfdaşları arasında qarşıdurmada Ermənistanın "atəş xəttinə" düşəcəyi qaşılmaz olacaq və İrəvana qarşı da Ukrayna ssenarisi təkrarlana bilər.

Baş nazirin son vaxtlar istiqamətini Qərbə dəyişməsini əsaslandırmaq üçün dönə-dönə Rusiyanı və KTMT-ni Ermənistanın ərazi bütövlüyünün müdafiəsində passiv mövqe tutmaqda günahlandırması da cavabsız qalmır.




münasibətdə faktiki olaraq eyni dərəcədə yaxın mövqe tutdu. Bundan sonra Ermənistan öz başına çarə qılmağa və təhlükəsizliyinə dəstək olacaq partnyorlar axtarmağa başladı: "hücumların qarşısını almaq" məramı ilə Aİ missiyasını Ermənistan–Azərbaycan sərhədinə cəlb etdi, hərbi potensialını bərpa etmək üçün Hindistan, Fransa və Yunanıstanla hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsinə başladı.

Beləliklə, Rusiya tədricən təhlükəsizliyin əsas təminatçısı rolundan uzaqlaşdırılır və çoxdan Qafqaza soxulmaqda maraqlı olan digər aktorlar təhlükəsizlik sahəsində Moskvanın rolunu öz üzərinə götürməyə çalışırlar.

Ermənistanın Siyasi Tədqiqatlar İnstitutunun elmi işçisi, siyasi ekspert Sergey Melkonyan bunu belə əsaslandırır: "Ermənistanla Rusiya arasında münasibətlər bu gün əsasən xarici amillərin təsiri altında dəyişir: Ukrayna istiqamətinin üstünlük təşkil etməsi xarici siyasətin Qərblə qarşıdurma prizmasından dərk edilməsinə və müntəzəm olaraq qırmızı xətlərə yenidən baxılmasına gətirib çıxarıb. Ənənəvi müttəfiqlə (Rusiya –İ.R.) münasibətlərdə yaranan böhran fonunda Azərbaycan tərəfindən Ermənistanın təhlükəsizliyinə olan daimi təhdid yeni xarici təhlükəsizlik təminatlarının axtarışının "drayver"inə çevrilib".

Doğrudur, Ermənistan rəsmiləri bütün bunları İrəvanla Moskva arasında münasibətlərin yeni konturlar alması və hakimiyyətin bu hərəkətlərini diversifikasiyaya yönəlmiş siyasət kimi şərh edirlər. Amma Rusiya bunu erməni siyasi hakimiyyətinin də təqdim etdiyi diversifikasiya kimi yox, əvəzləmə kimi görür.

Etiraf edilməlidir ki, Rusiya Ukraynada xüsusi hərbi əməliyyatlara başlayandan sonra Ermənistan hakimiyyətinin sanki əl-qolu daha geniş açılıb və fürsətdən istifadə edib bütün resursları ilə Moskvanı diz çökdürməyə çalışan "Kollektiv Qərb" dövlətləri ilə diplomatik əlaqələri nəzərəçarpacaq dərəcədə intensivləşdirib. NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina son iki ildə Ermənistana yeddi dəfə səfər edib. NATO-nun emissarı 2024-cü ilin yanvarında baş tutan sonuncu səfəri zamanı isə hətta Ermənistan rəhbərliyi tərəfindən son vaxtlar həyata keçirilən xarici siyasətdəki dəyişikliklərdən məmnunluğunu ifadə edib. Beləliklə, Paşinyanın komandasının ABŞ, Fransa və Avropa İttifaqının simasında Rusiyanın təsirini, o cümlədən Ermənistan–Azərbaycan münaqişəsinin həlli prosesini "dayandırmaq və buna qarşı güc" tapmaq cəhdləri aydın görünür.

Bu azmış kimi, Ermənistanın KTMT-də fəaliyyətini dondurması, öz nümayəndəsini qeyri-müəyyən müddətə geri çağırması və İrəvanın Zvartnos hava limanında təhlükəsizliyə nəzarət edən Rusiya heyətinin çıxarılması ilə bağlı hakimiyyətin səsləndirdiyi rəsmi mövqe "əzəli müttəfiq"in Moskvaya qarşı üsyanından başqa bir şey deyil.

Etiraf etmək lazımdır ki, bu gün Ukrayna–Rusiya müharibəsi ətrafında baş verən hadisələr...

İkincisi, 2014-2015-ci illərdən ABŞ və onun müttəfiqləri olan Aİ dövlətləri ilə Rusiya arasındakı geosiyasi qarşıdurma müstəvisinin Qafqazdan Yaxın Şərqə və Ukraynaya keçməsinə baxmayaraq, bu region postsovet məkanında ən qarışıq bölgələrdən biri olaraq qalırdı.

Təkcə son dörd il ərzində Avrasiyanın bu hissəsində status-kvo iki dəfə dəyişib. 2020-ci ildə İkinci Qarabağ müharibəsi nəticəsində 26 il ərzində dəyişməz qalan qüvvələr balansında köklü dəyişikliklər baş verdi. Bu, təkcə Ermənistanla Azərbaycan arasındakı fərdi etnosiyasi münaqişəyə aid deyildi. Xarici qüvvələrin rolunda da keyfiyyət dəyişikliyi baş verdi. Türkiyə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün Bakının hərbi kampaniyasını dəstəklədi. Bakı bölgədə uzun illər irin verən bu yaranı kəsib atdı və öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Azərbaycan, bəlkə də dünya tarixində, ən azından son iki əsrdə separatçı əraziləri birləşdirə bilən çox nadir dövlətlərdən biri oldu.

Bu hadisələrə qədər, hətta sonralar belə, həm Rusiya, həm də Qərb regionla bağlı bir çox məsələrdə mövqelərinin tam uyğunsuzluğuna baxmayaraq, Qafqaz teatrında "rəqabətli əməkdaşlıq" formatını qoruyub saxlayırdılar. Rusiyanın Ukraynada Xüsusi Hərbi Əməliyyatlarına başlaması mövcud vəziyyəti kökündən dəyişdi. Moskva indi Aİ-nin Ermənistanda yerləşdirilən missiyasına təkcə Ermənistan rəhbərliyinin qeyri-sabitliyinin, bu dövlətin dönüklüyünün sübutu kimi deyil, həm də Qərbin anti-Rusiya aləti kimi baxır. İlk baxışdan Rusiya və Qərb Ermənistan və Azərbaycan üçün, əsasən, oxşar sülh gündəliyini – sərhədin demarkasiyası və delimitasiyasını, regionda nəqliyyat kommunikasiyalarının qarşısının alınmasını və İrəvanla Bakı arasında sülh müqaviləsinin imzalanmasını təbliğ edir. Amma, eyni zamanda, hər bir tərəf özünü prosesin eksklüziv moderatoru kimi və bu etnosiyasi münaqişənin sonunu özlərinin Qafqazda mövcudluğunu gücləndirməkdə və həm də geosiyasi rəqibin təsirini minimuma endirməkdə görür.

Rusiyada nəşr edilən "Beynəlxalq analitika" jurnalının baş redaktoru, siyasi ekspert Sergey Markedonov yazır: "ABŞ və müttəfiqləri Qarabağın itirilməsini Moskvanın passivliyi və etibarsızlığı, hətta Kremlin Bakı

Ən son məlumata diqqət edin. Ermənistanın Müdafiə Nazirliyi bir qədər də qürrələnərək yaydığı bəyanatda deyir: "Aprelin 1-də Ermənistan–Amerika müdafiə əməkdaşlığı çərçivəsində ABŞ-ın bir qrup mobil təlimatçısı Ermənistan Respublikasına səfər edib". Bəyanatda həmçinin mütəxəssislərin ictimaiyyətlə əlaqələr və kommunikasiyalar sahəsində təcrübə mübadiləsi aparmaq üçün təlimlər keçirəcəyi bildirilir. Bunun Rusiyada yaradacağı qıcığı nəzərə alan ölkənin xarici işlər naziri Ararat Mirzoyan dərhal açıqlama verir və Ermənistanın alyansla əməkdaşlığına baxmayaraq, ölkənin hazırda NATO-ya daxil olmağı planlaşdırmadığını diqqətə çatdırır. Amma Mirzoyan erməni hiyləgərliyi ilə Rusiyanın "qulağına" oxuyur ki, "hazırda Ermənistan üçün əsas tərəfdaşlar ABŞ və Avropadır, ölkə Brüssel və Vaşinqtonla iqtisadi və siyasi əlaqələri dərinləşdirir".

Münasibətlərin hansı istiqamətə yönəldiyini yaxşı başa düşən Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinin buna reaksiyası özünü çox gözlətmir və diplomat bildirir ki, ABŞ Ermənistanla əməkdaşlığa İrəvan və Moskva arasında münasibətləri korlamaq üçün fürsət kimi baxır. Səfir onu da qeyd edib ki, respublikanın hakimiyyət orqanları iki dövlətin vətəndaşları üçün vacib olan qarşılıqlı əlaqəni saxlamaq üçün siyasi iradə nümayiş etdirməlidir.

Baş nazir Nikol Paşinyan isə Qərb tərəfindən necə siyasi dopinq alıbsa, ona qətiyyən məxsus olmayan cəsarətlə İngiltərənin "The Telegraph" nəşrinin jurnalisti Roland Olifanta, əslində Moskvaya deyir ki, o, məsələn, Böyük Britaniya, ABŞ və Aİ kimi çoxsaylı tərəfdaşlardan birinə çevrilən Moskva ilə əvvəlki müttəfiqlik münasibətlərini inkişaf etdirməyə elə bir imkan görmür: "Biz deməmişik ki, biz, ümumiyyətlə, Rusiya ilə, xüsusən də təhlükəsizlik sahəsində əməkdaşlığı inkar edirik və ya rədd edirik. Biz təhlükəsizlik əlaqələrimizi şaxələndirəcəyimizi söyləyirik.

ABŞ, Fransa, Hindistan və ya Avropa İttifaqı ilə təhlükəsizlik əlaqələrimiz təbii ki, Rusiyaya qarşı yönəlməyib. Bunlar, sadəcə olaraq, keçmişdə mövcud

günahlandırması da cavabsız qalmır. Məsələn, KTMT rəsmiləri Paşinyanın cavabdehlik sahəsi ilə bağlı səsləndirdiyi ittihamlarla sığortalanmasına cavab olaraq bildirib ki, bu məsələ "kifayət qədər mürəkkəbdir və o, əsaslı cavab almaqdan daha çox diqqəti respublikadakı vəziyyətə cəlb etməyə yönəlib. Çünki KTMT tərəfindən 2010-cu ildə imzalanmış qarşılıqlı fəaliyyət prinsipləri haqqında sazişə əsasən, məsuliyyət zonası üzv dövlətlərin suveren ərazisidir. KTMT-nin cavabdehlik sahəsinə Ermənistanın suveren ərazisi daxildir və Ermənistan və onun qonşuları arasında ikitərəfli əsasda tənzimlənən dövlət sərhədinin keçdiyi yerdə bitir", – deyə qurumun açıqlamasında bildirilir.

Öz növbəsində, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da Qərbin Ermənistanı öz planlarını həyata keçirmək üçün alətə çevirməsinə, hətta bununla NATO-nun Qafqazda RF-yə qarşı ikinci cəbhə açmağı planlaşdırdığını açıq bəyan edərək, Rusiyanın bundan ciddi narahat olduğuna diqqət çəkib.

Aydın məsələdir ki, Ermənistanı belə addımlar atmağa cəsarətləndirən təkcə Qərbin ona bütün sahələrdə dəstək verəcəyini vəd etməsi deyil. Ermənistan da rəsmi Brüssel kimi hesab edir ki, hazırda regionun geosiyasi homogenizləşməsi üçün uyğun vaxtdır. Rusiya–Ermənistan münasibətlərindəki böhran, Gürcüstanın NATO "aspirantı" statusunu tezliklə reallığa çevirmək istəyi Rusiyanın Ukraynada müharibəyə başı qarışdığı bir vaxtda reallaşa biləcək planlardır.

Əslində, Paşinyanın və Ermənistanın rəsmi hakimiyyətinin əzəli tarixi müttəfiqi Moskvaya qarşı bu siyasi gedişləri Ukrayna–Rusiya münaqişəsi kölgəsindən Rusiyaya arxadan açılan atəşdir. Bununla belə, Ermənistan və onun Qərbdəki havadarları unutmamalıdırlar ki, Qafqaz siyasi mozaikaları çox rəngarəng olan bir bölgədir. İstər regional, istər hegemon aktorlar mövcud çalarları və nüansları nəzərə almalı, son məqsədləri Qafqazda "barıt çəlləyi" yox, sülh və sabitlik yaratmaq olmalıdır. Ermənistanın da ən azından Qərbin müharibə ocağına atdığı və yanmaqda olan Ukraynaya baxıb nəticə çıxarması hələ gec deyil.

***İlqar RÜSTƏMOV***
***XQ***

# Rusiyaya qarşı təzminat iddiası gündəmdədir



**Aprelin 2-də Haaqada hökumətlərarası konfrans keçirilib. Konfransda Ukraynaya dəyən zərərin qiymətləndirilməsi reyestrinin (RD4U) fəaliyyətə başladığı elan edilib. Ötən il Avropa Şurasının qərarı ilə yaradılan bu maliyyə qurumu Rusiyanın hərəkətlərinə görə maddi təzminat almaqla bağlı ukraynalıların müraciətlərini qəbul edəcək. Hələlik yalnız məlumat toplanır. Kompensasiya ödənişlərinin nə vaxt başlayacağı hələlik bəlli deyil. Həm Ukrayna hakimiyyəti, həm də Avropa Şurası ümid edir ki, zərərlə bağlı ödənişlər Avropa İttifaqında həbs olunan Rusiya fondları hesabına həyata keçiriləcək.**

"Ukrayna üçün ədalətin bərpası" adlı konfrans Niderland hökuməti və Avropa Komissiyasının himayəsi altında təşkil olunub. Konfransda müxtəlif ölkələrin rəsmiləri də iştirak ediblər. Onların arasında, məsələn, Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriç də vardı. Məhz bu təşkilat, Rusiya onu tərk etdikdən iki ay sonra, 17 may 2023-cü ildə Reykyavikdə keçirilən iclasda RD4U yaratmaq qərarına gəlib. Reyestr üçün başlanğıc tarixləri texniki problemlərə görə bir neçə dəfə təxirə salınıb. İlk növbədə, ona görə ki, kompensasiyaların ödənilməsi mexanizminin necə olması ilə bağlı razılaşma yoxdur. Reykyavikdə keçirilən görüşün iştirakçıları yalnız Rusiyanın hərbi əməliyyatlar başa çatdıqdan sonra dəymiş ziyanı kompensasiya etməsi ilə bağlı razılığa gəliblər.

Siyasi müşahidəçilərin fikrincə, indi bu məsələnin həll olunduğunu söyləmək olmaz. Təbii ki, Avropa İttifaqı Rusiyanın, təxminən, 260 milyard avro dəyərində aktivlərinə həbs qoyub. Bununla belə, Aİ hüquqi baxımdan çox mürəkkəb və təhlükəli proses hesab edərək, onların müsadirəsi prosesinə başlamağa tələsmir. Müsadirə edilmiş Rusiya aktivlərindən əldə edilən gəlirlərə gəlincə, Avropa Komissiyası təklif edir ki, onlardan Ukrayna ordusu üçün silah və sursatların alınması üçün istifadə edilsin. Aİ-də bu məsələ ilə bağlı müzakirələr hələ davam edir. Üstəlik, "Politico" yazır ki, gəlirin, təxminən, 5 milyard avroluq hissəsi Moskva ilə mümkün məhkəmə prosesinin xərclərini ödəmək üçün tutulacaq. Rusiya Mərkəzi Bankının sədri Elvira Nabiullina Rusiya aktivlərini məhkəmədə müdafiə etməyə hazır olduğunu açıqlayıb. Bununla belə, qeyd etmək lazımdır ki, "Politico" bu məsələdə Belçikada yerləşən "Euroclear" depozitarına istinad edir. Xatırladaq ki, Rusiya aktivləri məhz bu depozitarın sərəncamındadır. Ancaq Avropa Komissiyası 5 milyard avronun müsadirə ediləcəyi barədə hər hansı bir məlumat paylaşmayıb.

Bir sözlə, ukraynalılara təzminat ödəmək perspektivi hələ də qeyri-müəyyən görünür. Amma Avropa rəsmilərinin fikrincə, indi məlumat toplamaq vaxtıdır. RD4U-nun mətbuat xidmətindən verilən açıqlamada bildirilir ki, aprelin 2-dən etibarən daşınmaz əmlakı dağıdılmış və ya zədələnmiş şəxslərdən ərizələrin qəbuluna başlanılacaq. Bunun üçün ərizəçilər bütün sənədlər toplusunu təqdim etməlidirlər. Əsas odur ki, zədələnmiş mənzil və ya ev üçün Ukraynanın yerli hakimiyyət orqanları tərəfindən verilən şəhadətnamə olsun. Əgər şəhadətnamə olmasa, ərizə qəbul edilməyəcək. Bu, o deməkdir ki, yalnız Ukraynanın nəzarətində olan və aktiv hərbi əməliyyatların aparılmadığı ərazidə yaşayanlar reyestrə daxil ediləcək. Belə ərizələr RD4U-nun Kiyev ofisində qəbul olunacaq, ukraynalılar "Diya" proqramı vasitəsilə də sənədləri təqdim edə biləcəklər.

RD4U-nin mətbuat xidmətinin verdiyi məlumata görə, gələcəkdə kompensasiya siyahısı xeyli genişləndiriləcək. Bu, həyat itkisinə görə dəymiş ziyanın ödənilməsini də əhatə edəcək. Belə çıxır ki, ukraynalılar cəbhədə həlak olan ailə üzvlərinə görə kompensasiyaya ümid edə bilərlər. Kiyevdə hesab edirlər ki, bu istiqamətdə işi sürətləndirmək lazımdır. Ukrayna Prezidenti Volodimir Zelenski videobağlantı vasitəsilə konfransda çıxış edərək, təzminat fondunu bu il ərzində formalaşmağa çağırıb. "Sizdən xahiş edirəm ki, sürətinizi azaltmayın", – deyə o, tədbir iştirakçılarına müraciət edib. Haaqada şəxsən iştirak edən Ukraynanın xarici işlər naziri Dmitri Kuleba isə konfransdan əvvəl jurnalistlərlə söhbətində Kiyevdə reyestrin fəaliyyətini vahid prosesin bir hissəsi hesab etdiklərini açıqlayıb.

**S.ELAY**
**XQ**

# Tayvanda zəlzələ: 9 nəfər ölüb

**Tayvan adasının şərq sahillərində baş verən 7,3 bal gücündə zəlzələ nəticəsində 9 nəfər ölüb, 963 nəfər xəsarət alıb. Bu barədə yerli media məlumat yayıb. Zəlzələ nəticəsində bir neçə binanın dağıldığı, ölən və xəsarət alanların da həmin binaların sakinləri olduğu bildirilir.**



Qeyd edək ki, dünən yerli vaxtla səhər saat 7:58-də (Bakı vaxtı ilə 3:58) adanın şərq hissəsindəki Hualien şəhəri yaxınlığında 7,3 bal gücündə zəlzələ baş verib. Yaponiyanın səlahiyyətli qurumları Tayvan adasına yaxın adalarda, o cümlədən Okinava prefekturasında sunami xəbərdarlığı elan edib. Bundan başqa, Çinin materik hissəsində və Filippində də sunami xəbərdarlığı elan olunub. Zəlzələdən sonra maqnitudası 3,4–6,5 arasında dəyişən 20-dən çox yeni təkan qeydə alınıb.

**XQ**

## "Sumqayıt – çörək" Açıq Tipli Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

7 iyun 2024-cü il saat 11.00-da "Sumqayıt – çörək" ATSC səhmdarlarının cəmiyyətin iclas zalında illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. "Sumqayıt – çörək" ATSC-nin 2023-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.
2. Maliyyə-təftiş komissiyasının hesabatı və nəticələrinin təsdiqi.
3. İdarə heyəti və müşahidə şurası üzvlərinin seçilməsi.
4. İdarə heyyəti sədrinin seçilməsi.
5. Maliyyə-təftiş komissiyası üzvlərinin seçilməsi.
6. Mənfəətin bölüşdürülməsi və əldə olunmuş xalis mənfəətdən istifadənin təyin edilib təsdiqlənməsi.

Ünvan – Sumqayıt şəhəri, Lermontov küçəsi 13.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 69 (30473) 4 aprel 2024-cü il, cümə axşamı

# Qrossmeysterlərin Toronto sammiti

## *Nicat Abasov şahmat tacı iddiaçılarının turnirinə ağlarla başlayır*




**Ötən ilin yayında Bakıda keçirilmiş Dünya kuboku turnirinin yarımfinalçısı, azərbaycanlı qrossmeyster Nicat Abasov, hindistanlı keçmiş dünya çempionu Vişvanatan Anandın davamçıları Santoş Vidit, Dommaracu Qukeş, Rameşbabu Praqnanandha, ABŞ şahmatçıları Fabiano Karuana, Hikaru Nakamura, Əlirza Firuzca (Fransa) və rusiyalı Yan Nepomnyaşi. Dünya şahmatının bu səkkiz parlaq zəka sahibi Kanadanın Toronto şəhərində iddiaçılar turnirinin startı ərəfəsindədir.**

Həmyerlimizin qalib gəldiyi rəqiblər arasında Loran Fressine (Fransa), Pyotr Svidler (FİDE–Rusiya), Aniş Giri (Hollandiya), Torontoda yenə üz-üzə gələcəyi Santoş Vidit kimi məşhur qrossmeysterlər var idi.

Şahmat həvəskarlarının, o cümlədən, "Xalq qəzeti" oxucularının turnirə marağını nəzərə alaraq, birinci dövrədə N. Abasovun görüşlərinin təqvimini diqqətə çatdırırıq. Şahmatçımız bu günə təyin edilmiş 1-ci turda ağ fiqurlarla Nepomnyaşiyə qarşı oynayacaq. Aprelin 5-də və 6-da ikinci-üçüncü raundlarda Abasovun rəqibləri Karuana və Nakamura olacaq. Dördüncü turda (7 aprel) Abasov—Firuzca görüşünü izləyəcəyik. Aprelin 8-də rəqiblər təşkilatçıların onlar üçün nəzərdə tutduqları istirahət günündə bir qədər dincəlmək imkanı qazanacaqlar. Sonrakı üç gündə isə (9-11 aprel) Hindistan üçlüyü—müvafiq surətdə Qukeş, Praqnanandha və Viditlə oyunlarımız olacaq.

Əhəmiyyətinə görə, bəlkə də, siyasətçilərin mötəbər sammitlərindən geri qalmayan yarışın qalibi özünü çox xoşbəxt hiss edəcək. Turnirin ən yaxşı iştirakçısı dünya şahmat tacı uğrunda matçda hazırkı çempion, Çin Xalq Respublikası təmsilçisi Dinq Lirenə rəqib olacaq. Bu isə hər bir qrossmeysterin ürəyindən keçən böyük arzudur.

Təsadüfi deyil ki, planetin hər yerində milyonlarla qədim və müdrik oyun pərəstişkarının diqqəti hazırda Kanadaya yönəlib. Bu gün Torontoda starta çıxıb, üç həftədən sonra finişə çatacaq iddiaçılar turnirinin bütün görüşləri şahmat aləmində hədsiz maraqla gözlənilir. Heç kim dünya tacı uğrunda mübarizədə 17-ci dünya çempionu ilə kimin qarşılaşacağı məsələsinə biganə deyil.

Azərbaycanın şahmat ictimaiyyəti üçün ikiqat fərəhli haldır ki, iddiaçılar səkkizliyində həmvətənimiz Nicat Abasov da var. O, ötən illərdə belə məsul yarışların iştirakçıları olmuş Teymur Rəcəbov və Şəhriyar Məmmədyarovdan sonra iddiaçılar turnirində oynamaq hüququ qazanmış üçüncü şahmatçımızdır.




Səkkiz-doqquz ay əvvəl N. Abasov paytaxtımızda Dünya kuboku yarışında gözlənildiyindən də yaxşı çıxış etmiş, ardıcıl altı rəqibini turnirlə vidalaşmağa məcbur edib, yarımfinala çıxmışdı. Nicat yalnız dəfələrlə dünya çempionu norveçli dahi Maqnus Karlsenə, sonra da üçüncü yer uğrunda matçda Karuanaya məğlub olub, yarışı fəxri dördüncü yerdə başa vurmuşdu. Bu, Azərbaycan şahmat məktəbinə qürur gətirən nailiyyət idi.

Mayın 14-də 29 yaşı tamam olacaq N. Abasov Bakıda Dünya kuboku yarışında böyük nailiyyət qazanıb, bütün turnir günlərində çıxışlarını həyəcanla izləyən idman həvəskarlarımızı ürəkdən sevindirmişdi. Əvvəllər o, dünya şahmatının ən mahir ustalarını öz bayrağı altına toplayan belə yarışlarda heç vaxt bu qədər uzağa gedə bilməmişdi. Paytaxtımızda isə hamını təəccübləndirib, yarımfinala qədər irəliləyə bildi. Bu uğura görə mükafatı bütün zəka sahiblərinin arzuladığı, amma heç də hamının üzünə gülməyən iddiaçılar turnirinə vəsiqə oldu.

Nicat Abasov doğma Bakıdakı kimi, uzaq Torontoda da mümkün qədər yaxşı nəticə göstərib, Dünya kuboku yarışında qazandığı uğurun təsadüfi olmadığını iddiaçılar turnirində sübuta yetirməyə çalışacaq. Qrossmeysterimizə dəqiq gedişlər arzulayırıq.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

İdman

# AFFA 3 klubu cərimə edib

**AFFA İntizam Komitəsinin iclasında Azərbaycan Premyer Liqasının XXVIII turunun matçlarında qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib.**




"Səbail"lə oyunda 4 futbolçusu sarı vərəqə alan "Turan Tovuz" 700 manat cərimələnib. "Sumqayıt" isə "Araz-Naxçıvan"la matçda intizamsızlığa yol verən 4 oyunçusuna görə analoji sanksiyaya məruz qalıb. Bundan başqa, qarşılaşmanın 90+2-ci dəqiqəsində sumqayıtlıların məşqçisi Seymur Rəhimov hakimin qərarına etiraza görə birbaşa qırmızı vərəqə aldığı üçün 2 oyun cəzalanıb.

Onun bu hərəkəti klubun 1500 manat cərimələnməsinə səbəb olub.

# Soydaşımız beynəlxalq idman qurumunun rəhbəridir

**Azərbaycan Milli Paralimpiya Komitəsinin Beynəlxalq əməkdaşlıq və ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Rüfət Hacılı Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyasının (IBSA) icraçı direktoru təyin edilib.**



Bu təyinat IBSA-nın İdarə Heyətinin onlayn formatda keçirilən son iclasında reallaşıb.

Qeyd edək ki, IBSA özündə 120 ölkədən çox üzvü birləşdirən görmə məhdudiyyətli şəxslərin ən böyük idman təşkilatıdır. Assosiasiya 10 idman növünün koordinasiyası ilə məşğuldur. Bunlardan üçü paralimpiya üzrə paracüdo, qolbol və futbol idman növləridir.

# Millimizin hücumçusunun "qiyməti" yüksəldi

**Postsovet məkanı ölkələrinin ən bahalı futbolçularının adları açıqlanıb. "Transfermarket" portalına görə, 15 oyunçunun yer aldığı siyahıda Azərbaycan millisinin və Türkiyənin "Hatayspor" komandasının hücumçusu Renat Dadaşov da var.**



Onun "dəyəri" 2 milyon avro olaraq göstərilib. Siyahıya İtaliyanın "Napoli" komandasının gürcüstanlı yarımmüdafiəçisi Xviça Kvaratsxeliya (80 milyon avro) başçılıq edir. 2-3-cü pillələri isə Aleksandr Zinçenko (42 milyon avro, Ukrayna / "Arsenal"), Aleksandr Qolovin – (30 milyon avro, Rusiya / "Monako") tuturlar.

***Leyla SABİRQIZI***
***XQ***

Ekologiya

# İmişlidə "Yaşıl" aksiya



**Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatının və Mil-Muğan Regional Təhsil İdarəsinin İmişli rayonu üzrə Təhsil sektorunun birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Yaşıl dünya – sağlam həyat" adlı tədbir keçirilib.**

İmişli şəhər 7 saylı tam orta məktəbin həyətində keçirilən tədbirdə şagirdlərin çəkdikləri rəsm əsərləri nümayiş olunub.

Tədbirdə dünyanı narahat edən ekoloji problemlər, iqlim dəyişiklikləri və onların canlı aləmə mənfi təsirlərindən, ekoloji mədəniyyətdən söhbət açılıb.

Daha sonra ağacəkmə aksiyası keçirilib. Boş qalan sahələr təmizlənib, ağaclar üçün çuxurlar qazılıb və yeni tinglər əkilib.

***XQ***

Hava

# Abşeronda yağmursuz və küləkli, bölgələrdə yağıntılı və dumanlı...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 4-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Səhərdən başlayan güclü şimal-qərb küləyi əsəcək, axşama doğru mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 6-11° isti, gündüz 11-16° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-75 , gündüz 55-60 faiz olacaq. Azərbaycanın rayonlarında səhər şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru qərb rayonlarından başlayaraq yağıntılar kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 7-11°, gündüz 17-22°, dağlarda gecə 2-7°, gündüz 12-17° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

Texnologiya

# Süni intellekt bəşəriyyəti əsarətə sala bilərmi?

**Süni intellektin (AI) sistemli və davamlı inkişafı bütün bəşəriyyətin ölümünə səbəb ola bilər, lakin bu ehtimal 20 faizdən çox deyil. "Business Insider" xəbər verir ki, bunu "SpaceX" və "Tesla" şirkətlərinin rəhbəri, "xAI" startapının yaradıcısı İlon Mask deyib.**



"Düşünürəm ki, süni intellektin, həqiqətən, bəşəriyyətin ölümünə səbəb olmaq ehtimalı var", – Mask deyib. Los-Ancelesdə süni intellektlə bağlı konfransda çıxışı zamanı iş adamı alim və süni intellekt sahəsində əsas tədqiqatçılardan biri Cefri Hintonun qiymətləndirməsi ilə razılaşacağını bildirib: "Düşünürəm ki, onun bu ehtimalın, təxminən, 10 və ya 20 faiz və ya bu diapazonda bir şey olması ilə bağlı təxminləri ilə razılaşardım".

2023-cü ilin iyul ayında Mask süni intellekt sahəsində layihələr üçün "xAI"-nin yaradıldığını elan edib. "xAI"nin məqsədinin "kainatın əsl təbiətini anlamaq" olduğu bildirilir.

Eyni zamanda, milyarder süni intellektin inkişafına nəzarət edə bilməməsi səbəbindən onun təhlükələrini, o cümlədən bəşəriyyətin ölüm və ya əsarət altına düşmə riskini dəfələrlə bəyan edib.

***S.FİDAN***
***XQ***

Sağlamlıq

# Üzərliksən, havasan – hər bir dərdə davasan

**Ruslarda adı "qarmala", Şərqdə Suriya "rutu", bəzi Şərq ölkələrində "qəbirotu", "cadugər" bitkisi adlanan üzərlik, əsasən, Asiya və Qafqazda bitir. Şərq insanları bu qəribə bitkinin və toxumlarının beyinə, bədənə, ruha təsir etdiyini qədimdən müəyyən ediblər. "Təbabətin atası" İbn Sina "qarmala"nın bihuşedici, təmizləyici və ağrıkəsici təsiri olduğunu demişdir. O, özü oynaq və sinir ağrılarında bədəni "qarmala" yağı ilə yağlamağı tövsiyə edirdi.**



Üzərlik hələ tam yetişib toxumları açılmamış toplanır. Qədimdə tüstüsü ilə məbədləri, evləri və xəstə insanları qara qüvvələrdən "təmizləyirdilər". Eləcə də, üzərlik cadugərlərin, müxtəlif rituallarla məşğul olanların istifadə etdiyi bitki olub.

Alimlər üzərlik tüstüsünün, həqiqətən, sakitləşdirici, dezinfeksiyaedici təsirini sübut ediblər. Onun zökəm, qrip, malyariya, mədə-bağırsaq problemi, yaralar və qıcolmalarda, sinir xəstəliklərində faydalı olduğu bildirilir. Toxumunun dəmləməsi astma, təngnəfəslik, bronxitə kömək edir. Oynaq, revmatizm, sümük ağrılarında bitkidən isti vanna edirlər. Hələ də uşaqlar özünü narahat hiss edəndə, onlara nəzər dəydiyini düşünüb üzərlik yandırır və onun tüstüsü ilə nəzəri götürürlər.

Elmi araşdırmalara görə, bitkinin çubuqlarını yandırarkən buxar və tüstüsünün təsirindən dizenteriya, vərəm və bağırsaq çöpləri, bakteriya və virusların təsiri, xəstəliklərə yoluxma, eyni zamanda, yayılma riski azalır.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3868
SİFARİŞ 711
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00